Xalqın qəzeti!

# Xalq qəzeti

№ 16 (30985) 28 yanvar 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan müasir sənaye istehsalı ölkəsinə çevrilir

## Prezident İlham Əliyev Sumqayıt Sənaye Parkında güzgü vərəqələrin istehsalı zavodunun açılışında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Azermirror" MMC-nin güzgü vərəqələrin istehsalı zavodunun açılışında iştirak edib.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına əvvəlcə ölkəmizdə yaradılan sənaye zonaları və Sumqayıt Sənaye Parkının fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, hazırda ölkəmizdə mövcud sənaye zonalarında 104 müəssisə istehsal fəaliyyətinə başlayıb. İndiyədək sənaye zonalarına 7 milyard manatdan çox investisiya yatırılıb və 11 mindən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə mövcud layihələr üzrə 1,74 milyard manata yaxın investisiyanın yatırılması nəzərdə tutulur. Sənaye zonalarında indiyədək ümumilikdə 19,4 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 6,1 milyard manatlıq hissəsi ixrac olunub. Hazırda istehsal olunan məhsullar dünyanın 70 ölkəsinə ixrac edilir.

*(ardı 2-ci səhifədə)*

## Gürcüstanın strateji seçimi regional inteqrasiyadır



Səhifə ⇨ 5

## İfşa olunmuşların "üsyanı"




Səhifə ⇨ 4

## Revanşist dairələrin son ümidi

Səhifə ⇨ 6

## Yaradıcı təlimə ögey münasibət şagirdi "robot"a çevirir

Səhifə ⇨ 11



## Xəzərin 8-ci "polad ada"sı

Səhifə ⇨ 7



## Tərəfdaşlıqla təhlükəsizliyin qovuşduğu nöqtə

*Azərbaycan–İsrail münasibətlərinin indiki mərhələsi məhz bu vəhdəti ifadə edir*



**Hər hansı siyasi görüşə, dialoqa, rəsmi səfərlərə ayrıca götürülmüş, təqvimin yaddaşına yazılan tədbir kimi deyil, qlobal hadisələr zəncirinin bir halqası kimi baxanda, onun məhz indiki məqamda tarixi əhəmiyyəti aydın görünür. Azərbaycanın xarici siyasət xəttini qlobal kontekstdə nəzərdən keçirsək, onun özünəməxsusluğunun bütün çalarları üzə çıxar. Bu zaman rəsmi Bakının qlobal diplomatiyada prioritet olaraq Türkiyə, İsrail, İslam dünyası ilə, həmçinin ABŞ, Avropa, Asiya və Afrika ilə strateji münasibətləri paralel inkişaf etdirdiyinin şahidi olarıq.**

*(ardı 6-cı səhifədə)*

## Qafqazda sülhün nəqliyyat formulu

*TRIPP qlobal qazanc sazişinə çevrilir*




**Cənubi Qafqazda regional kommunikasiyaların açılması və siyasi normallaşma prosesləri ətrafında gedən müzakirələr son dövrlər yeni mərhələyə daxil olub. Böyük güclərin fəal şəkildə prosesə qoşulduğu indiki şəraitdə nəqliyyat və tranzit layihələri siyasi təsir mexanizmi kimi ön plana çıxır. Məhz bu kontekstdə TRIPP marşrutu (Zəngəzur dəhlizi) ətrafında aparılan danışıqlar, Ermənistanın ABŞ ilə intensivləşən təmasları və paralel şəkildə Türkiyə və Azərbaycanla normallaşma mesajları regionda formalaşmaqda olan yeni geosiyasi konfiqurasiyanın elementlərindən biri kimi diqqət çəkir.**

*(ardı 5-ci səhifədə)*

## Uzaq Mərakeş – yaxın dostumuz



Səhifə ⇨ 5

## Yeraltı nəqliyyatın önəmi daim yüksəlir



Səhifə ⇨ 8

# Prezident İlham Əliyev Sumqayıt Sənaye Parkında güzgü vərəqələrin istehsalı zavodunun açılışında





*(əvvəli 1-ci səhifədə)*

Respublikanın müxtəlif regionlarında sənaye parklarının və sənaye məhəllələrinin yaradılması, orada sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün əlverişli mühitin formalaşdırılması iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi məqsədilə ölkədə reallaşdırılan uğurlu sənayeləşmə siyasətinin nəticəsidir. Sənaye zonaları biznes subyektlərinin innovativliyinin və istehsal səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan məhsul istehsalının təşviqində, ixrac potensialının genişləndirilməsində, eyni zamanda, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır.

Hazırda ölkədə Sumqayıt, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Hacıqabul, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" daxil olmaqla 8 sənaye parkı fəaliyyət göstərir. Naxçıvan Sənaye Parkının, eləcə də Gəncə şəhəri və Şəmkir rayonu ərazisində yeni Qərb Sənaye Parkının yaradılması istiqamətində işlər görülür. Bütün bunlarla yanaşı, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri də istehsal və sahibkarlıq fəaliyyətinin inkişafına töhfə verir.

Qeyd edək ki, ümumi sahəsi 640 hektar olan Sumqayıt Sənaye Parkında hazırda 40 rezident fəaliyyət göstərir, layihələrin ümumi dəyəri 6,7 milyard manat, faktiki investisiya həcmi isə 5,5 milyard manat təşkil edir. Layihələr çərçivəsində 8800-ə yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulur. Faktiki olaraq 6135 nəfər işlə təmin edilib. Rezidentlərin ümumi satış həcmi 15,4 milyard manata çatıb ki, bunun da 5,7 milyard manatı ixracın payına düşür.

"Azermirror" MMC-nin təsisçisi Rüstəm Abbasov Prezident İlham Əliyevə müəssisə barədə məlumat verdi. Bildirildi ki, bu MMC-yə 2023-cü ildə Sumqayıt Sənaye Parkının rezidenti statusu verilib. "Azermirror" tərəfindən sənaye parkının 1 hektar ərazisində güzgü vərəqələrin istehsalı zavodu tikilib. Burada 30 nəfər daimi işlə təmin olunub. Zavodda ildə 900 min kvadratmetr güzgü vərəqəsi istehsal ediləcək.





Müəssisədə hazırlanan məhsulların daxili bazarın tələbatını ödəməklə yanaşı, ixracı da nəzərdə tutulur. Çin texnologiyası əsasında qurulan layihənin investisiya dəyəri 6,13 milyon manatdır. Müəssisənin yaradılmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 1,5 milyon manat güzəştli kredit ayrılıb. Sənaye parkının rezidentlərinə verilən bütün güzəştlərdən yararlanan "Azermirror" MMC 600 min manat dəyərində vergi və gömrük azadolmasından faydalanıb.

Onu da qeyd edək ki, Azərbaycanda qeyri-neft sənayesinin inkişafı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ölkəmizdə mövcud təbii və iqtisadi resurslardan səmərəli istifadə, innovativ yanaşmaların və qabaqcıl texnologiyaların sənaye istehsalına cəlb olunması, yeni sənaye sahələrinin formalaşdırılması, rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsi istiqamətində sistemli tədbirlər davam etdirilir.

# Karton və qutu taralarının istehsalı müəssisəsinin açılışı










**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Bakı Karton və Qutu Fabriki" MMC-nin karton və qutu taralarının istehsalı müəssisəsinin açılışında iştirak edib.**

"Bakı Karton və Qutu Fabriki" MMC-nin rəhbəri Kamran Salmanlı dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, 2023-cü ildə Sumqayıt Sənaye Parkının rezidenti statusu verilən "Bakı Karton və Qutu Fabriki" MMC tərəfindən Parkın 3 hektara yaxın ərazisində karton və qutu taralarının istehsalı müəssisəsi qurulub. Türkiyə və Çin texnologiyalarından istifadə edilən müəssisədə il ərzində 55 milyon kvadratmetr karton və qutu tarası istehsal olunacaq. Burada birinci mərhələdə karton və qutu istehsalının, ikinci mərhələdə isə karton istehsalı üçün tələb olunan yerli xammalın təkrar emalının həyata keçirilməsi planlaşdırılır. Məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək. Müəssisənin investisiya dəyəri 20 milyon manatdır. Onun yaradılmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 2 milyon manat dəyərində güzəştli kredit ayrılıb. Burada 64 daimi iş yeri yaradılıb. Sənaye parkının rezidentlərinə verilən bütün güzəştlərdən yararlanan müəssisə təqribən 1,3 milyon manat dəyərində vergi və gömrük azadolmasından faydalanıb.




Qeyd edək ki, sənaye zonalarında sahibkarlığın inkişafını təşviq etmək məqsədilə rezidentlər üçün geniş güzəşt və stimullaşdırıcı mexanizmlər tətbiq olunur. Belə ki, rezidentlər dövlət vəsaiti hesabına yaradılmış hazır infrastrukturla – qaz, elektrik enerjisi, su, çirkab sularının axıdılması sistemləri, daxili avtomobil və dəmir yolları, həmçinin fiber-optik internet xətləri ilə təmin edilir. Eyni zamanda, rezidentlər 10 il müddətinə əmlak, torpaq və mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular üzrə əlavə dəyər vergisindən, həmçinin gömrük rüsumlarından azad olunur.



# Sumqayıt Sənaye Parkında polipropilen və laminatlı kisə istehsalının təməlqoyması





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Nun" MMC-nin polipropilen və laminatlı kisə istehsalı müəssisəsinin təməlini qoyub.**

"Nun" MMC-nin təsisçisi Kamran Rzayev yaradılacaq müəssisə barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, ötən il Sumqayıt Sənaye Parkının rezidenti statusu verilən bu MMC tərəfindən reallaşdırılacaq layihəyə uyğun olaraq 1 hektar ərazidə istehsal müəssisəsinin tikintisi nəzərdə tutulub. Almaniya texnologiyasından istifadə ediləcək müəssisənin illik istehsal gücü 1680 ton laminatlı kisə, 1440 ton polipropilen kisə olmaqla ümumilikdə 3120 tondan çox təşkil edəcək. Məhsullar əsasən daxili bazarın tələbatını ödəyəcək.

Burada 140 daimi iş yeri yaradılacaq. İnvestisiya həcmi 11,2 milyon manat olan müəssisənin qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 3 milyon manat dəyərində güzəştli kredit ayrılması nəzərdə tutulub. Burada quraşdırılacaq avadanlığın idxal zamanı ƏDV və gömrük rüsumlarından azad olunması planlaşdırılır.

*AZƏRTAC*

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2026-cı ilin fevral ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 4, 18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 5 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 6, 13, 27 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hərbi məsələlər şöbəsinin müdiri**<br>Seyidov Fərid Mirmufid oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 16 |
| Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi | 17 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi | 17 |
| Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 20 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 23 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 24 |
| Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi<br>Yusubov Elçin Mustafa oğlu | 24 |
| Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi<br>Hacıyev Bəşir Qüdrət oğlu | 25 |
| Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi<br>Kərimov Aydın Zöhrab oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 27 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 27 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası<br>Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 26 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin fevral ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Daxili işlər naziri**<br>Vilayət Eyvazov | **Qəbələ** | Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən | **02** |
| 2. | **Baş prokuror**<br>Kamran Əliyev | **İmişli** | İmişli, Beyləqan, Füzuli, Saatlı, Sabirabad, Cəbrayıl, Xocavənd | **03** |
| 3. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri**<br>Ramin Məmmədov | **Sumqayıt** | Sumqayıt, Abşeron, Xızı | **05** |
| 4. | **Energetika naziri**<br>Pərviz Şahbazov | **Quba** | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən | **06** |
| 5. | **Ədliyyə naziri**<br>Fərid Əhmədov | **Göyçay** | Göyçay, Ağdaş, Ağsu, Zərdab, İsmayıllı, Kürdəmir, Ucar, Şamaxı | **06** |
| 6. | **Gənclər və idman naziri**<br>Fərid Qayıbov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **06** |
| 7. | **Dövlət Gömrük Komitəsinin sədri**<br>Şahin Bağırov | **Tərtər** | Tərtər, Bərdə, Naftalan | **06** |
| 8. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri**<br>Anar Quliyev | **Masallı** | Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı | **06** |
| 9. | **İqtisadiyyat naziri**<br>Mikayıl Cabbarov | **Sumqayıt** | Sumqayıt, Abşeron | **13** |
| 10. | **Mədəniyyət naziri**<br>Adil Kərimli | **Qax** | Qax, Şəki, Oğuz, Qəbələ, Zaqatala, Balakən | **13** |
| 11. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri**<br>Rəşad Nəbiyev | **Salyan** | Salyan, Neftçala, Şirvan, Hacıqabul | **13** |
| 12. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri**<br>Zaur Mikayılov | **Qəbələ** | Qəbələ, Oğuz | **13** |
| 13. | **Kənd təsərrüfatı naziri**<br>Məcnun Məmmədov | **Ucar** | Ucar, Ağdaş, Göyçay, Kürdəmir, Yevlax, Mingəçevir, Zərdab | **20** |
| 14. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri**<br>Bahar Muradova | **Bərdə** | Bərdə, Tərtər | **20** |
| 15. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi**<br>Mürsəl İbrahimov | **Abşeron** | Abşeron, Sumqayıt, Xızı, Cəbrayıl, Qubadlı, Şuşa, Zəngilan | **20** |
| 16. | **"Azəristiliktəchizat" ASC-nin sədri**<br>İlham Mirzəliyev | **Göygöl** | Göygöl, Daşkəsən, Samux | **20** |
| 17. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru**<br>Azər Məmmədov | **Xızı** | Xızı, Siyəzən | **20** |
| 18. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri**<br>Rövşən Rzayev | **Şirvan** | Şirvan, Hacıqabul | **23** |
| 19. | **"Azərişıq" ASC-nin sədri**<br>Vüqar Əhmədov | **Qəbələ** | Qəbələ, Oğuz | **25** |
| 20. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri**<br>Zaur Əliyev | **Şirvan** | Şirvan, Hacıqabul | **25** |
| 21. | **Elm və təhsil naziri**<br>Emin Əmrullayev | **Sumqayıt** | Sumqayıt, Abşeron, Xızı, Qubadlı | **27** |
| 22. | **Əmək və əhalinin sosial müdafiəsi naziri**<br>Anar Əliyev | **Qobustan** | Qobustan, Şamaxı | **27** |
| 23. | **Fövqəladə hallar naziri**<br>Kəmaləddin Heydərov | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli | **27** |
| 24. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri**<br>Saleh Məmmədov | **Abşeron** | Abşeron, Zəngilan | **27** |
| 25. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri**<br>Qoşqar Təhməzli | **Şamaxı** | Şamaxı, Ağsu, İsmayıllı, Qobustan | **27** |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Xəzər dənizi və Bakı buxtası ekoloji gündəmdə



**Baş nazir Əli Əsədovun sədrliyi ilə yanvarın 27-də Nazirlər Kabinetində "Xəzər dənizində müxtəlif təyinatlı qəzalı və yararsız vəziyyətdə olan hidrotexniki qurğuların, o cümlədən qəzalı vəziyyətdə olan və ləğv olunmuş quyuların təkrar ləğvi və izolyasiyası, estakadaların, yanalma körpülərinin, platformaların, həmçinin batmış və yarımbatmış vəziyyətdə olan gəmilərin çıxarılması və digər reabilitasiya işlərinin həyata keçirilməsinə dair 2025-2030-cu illər üçün Kompleks Tədbirlər Planı"nın icrası və Bakı buxtasının ekoloji vəziyyətinin yaxşılaşdırılması məsələlərinə həsr olunmuş iclas keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən məlumata görə, Baş nazir çıxışında Xəzər dənizinin Azərbaycana mənsub bölməsindəki neft-qaz yataqlarında Sovet İttifaqından miras qalmış müxtəlif təyinatlı hidrotexniki qurğuların, ləğv edilmiş və ya konservasiya olunmuş neft quyularının, estakadaların, yanalma körpülərinin, platformaların köhnəlməsi, korroziyaya uğraması və hidrometeoroloji amillərin təsiri səbəbindən qəzalı vəziyyətə düşməsi nəticəsində yaranmış problemlərin dənizin ekoloji vəziyyətinə neqativ təsir göstərdiyini, eyni zamanda, uzun müddət antropogen təsirlərin davam etməsi nəticəsində Bakı Buxtasında (Dənizkənarı bulvarın) da çirklənmənin dərinləşdiyini və onun ekoloji vəziyyətinin yaxşılaşdırılmasına kəskin zərurət yarandığını bildirib.

Kompleks Tədbirlər Planı ilə bağlı Nazirlər Kabineti Aparatının Sənaye və energetika şöbəsinin müdiri Elşən Hacızadənin təqdimatla çıxışı olub və fövqəladə hallar naziri Kəmaləddin Heydərovun, ekologiya və təbii sərvətlər nazirinin birinci müavini Rəşad İsmayılovun, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəfin və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Əfqan Cəlilovun məruzələri dinlənilib.

Eyni zamanda, Bakı buxtasının ekoloji vəziyyətinin yaxşılaşdırılması məsələləri ilə bağlı Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sədri Xanlar Ağalarovun və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılovun məruzələri və digər çıxışlar dinlənilib.

Hər iki məsələ ətrafında müzakirələr aparılaraq aidiyyəti dövlət qurumlarına Xəzər dənizində monitorinqlər aparmaqla interaktiv xəritə-sxemin hazırlanması, iş həcmlərinin müəyyənləşdirilməsi və prioritetləşdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və tədbirlərin dövlət-özəl tərəfdaşlığı prinsipi əsasında həyata keçirilməsi, habelə qəzalı və yararsız vəziyyətdə olan hidrotexniki qurğuların və quyuların demontajı, batmış və yarımbatmış gəmilərin çıxarılması, görülən tədbirlərin dənizətrafı mühitin yaxşılaşmasına təsirinin qiymətləndirilməsinin həyata keçirilməsi üzrə müvafiq tapşırıqlar verilib.

Həmçinin Bakı buxtasının (Dənizkənarı bulvarın) təmizlənməsi və ekoloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə dəniz suyunun çəkilməsi ilə sahilə yaxın hissələrdə üzə çıxmış metal konstruksiyaların ərazidən kənarlaşdırılması, hövzəyə çirkab suların axıdılmasının qarşısının alınması, suyun səthində üzən neft ləkələrinin və müxtəlif tullantıların, habelə ətrafda neftlə çirklənmiş torpaqların təmizlənməsi istiqamətində təxirəsalınmaz işləri özündə ehtiva edən Tədbirlər Planının hazırlanması tapşırığı verilib.

***XQ***

# Xarici ölkə səfirliyinə qarşı terrorun qarşısı alınıb

**Xarici ölkənin Azərbaycandakı səfirliyinə qarşı terror hücumu etməyə hazırlaşan şəxslər həbs edilmişlər.**

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri zamanı Azərbaycan Respublikasının vətəndaşları - 2000-ci il təvəllüdlü, "Abu Zər əl-Mühacir" dini ləqəbli Quliyev İlqar İlham oğlu, 2005-ci il təvəllüdlü, "Abduraşid" dini ləqəbli Piriyev Amin Elşad oğlu və 2005-ci il təvəllüdlü "Abdurrahman əl-Azəri" dini ləqəbli Əlizadə Elvin Sənan oğlunun dini düşmənçilik zəminində Bakı şəhərində xarici ölkənin səfirliyinə terror hücumu törətməyə hazırlıq görmələrinə əsaslı şübhələr yaranmışdır.

Adıçəkilən şəxslər İŞİD terror təşkilatının "Vilayəti-Xorasan" silahlı qruplaşmasının üzvləri ilə cinayət əlaqəsinə girərək, qabaqcadan əlbir olan bir qrup şəxs halında xarici dövlətin Azərbaycan Respublikasındakı səfirliyinə terror hucumu etmək üçün silah qismində istifadə edilən predmetlər əldə edib səfirliyin yerləşdiyi əraziyə yaxınlaşarkən DTX-nin əməkdaşları tərəfindən saxlanılmışlar.



Faktla bağlı İlqar Quliyev, Amin Piriyev və Elvin Əlizadə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28, 214.2.1, 28, 214.2.3 və 28, 214.2.6 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən, silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə, dini düşmənçilik zəminində terrorçuluğa hazırlıq) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilmiş, barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

***Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidməti***

# Azərbaycan Prokurorluğunun sorğusu əsasında konstitusiya işinə baxılıb

**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən bildirilib ki, məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 80-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 14.2 və 228.1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim F. Məmmədovun məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun sorğusunu və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmə, Bakı Apellyasiya Məhkəməsi, Vəkillər Kollegiyası tərəfindən təqdim olunmuş mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru M.Bayramovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 14.2-ci maddəsinin dispozisiyasında əks edilmiş "az əhəmiyyətlilik" xüsusiyyəti qiymətləndirici xarakter daşıdığından, həmin Məcəllənin 228.1-ci maddəsində göstərilən tərkib əlamətlərinin mövcud olduğu əməlin az əhəmiyyətli olub-olmaması bu Qərarın təsviri-əsaslandırıcı hissəsində ifadə olunmuş hüquqi mövqelər nəzərə alınmaqla hər bir işin faktiki hallarına əsasən hüquq tətbiqedən orqanlar tərəfindən müəyyən edilir. Bu zaman döyüş sursatının kəmiyyət göstəricisi (patronun sayı) hüquq pozuntusunun ictimai təhlükəliliyini müəyyənləşdirməyə imkan verən digər göstəricilərlə (motiv, məqsəd, əməlin törədildiyi məkan, zaman, şərait və s.) birlikdə qiymətləndirilməlidir.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

***XQ***

# Statistika Komitəsinin sədri Vyetnamda





**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti Vyetnam Milli Statistika İdarəsinin baş direktoru Nguyen Thi Hongun dəvəti ilə Vyetnam Sosialist Respublikasına səfər edib.**

Səfər çərçivəsində nümayəndə heyətinin Vyetnam xalqının öndəri Ho Şi Minin məqbərəsinə, muzeyinə və vaxtilə yaşadığı evinə ziyarəti təşkil olunub. Ho Şi Minin 1959-cu ildə Azərbaycana, Ümummilli Lider Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərinə dair şəkillər nümayiş olunmaq üçün nümayəndə heyəti adından muzeyə hədiyyə olunub.

Tahir Budaqov ilə Vyetnam Kommunist Partiyasının Baş katibi To Lam arasında görüş keçirilib. Görüşdə Azərbaycan-Vyetnam münasibətlərinin dərin tarixi köklərə malik olduğu vurğulanaraq xalqlarımız arasındakı dostluq əlaqələrinin hələ SSRİ dönəmində formalaşdığı, Vyetnam xalqının öndəri Ho Şi Minin 1959-cu ildə Azərbaycana, Ümummilli Lider Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərinin tarixi əhəmiyyət daşıdığı bildirilib.

To Lam ötən ilin may ayında ölkəmizə səfərini xatırladıb və Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi də Vyetnamda səbirsizliklə gözlədiklərini deyib. O, strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatın qəbul olunması ilə Azərbaycan-Vyetnam münasibətlərinin yeni inkişaf mərhələsinə yüksəldiyini qeyd edib.

Tahir Budaqov Azərbaycan ilə Vyetnam arasında münasibətlərin inkişafında liderlər arasında şəxsi dostluğun böyük rol oynadığını bildirərək müxtəlif sahələrdə, o cümlədən statistika qurumları arasında əməkdaşlığın genişləndirilməsinin diqqət mərkəzində olduğunu deyib.

Görüşdə hakim siyasi partiyalar arasında əlaqələrin Azərbaycan-Vyetnam münasibətlərinin inkişafı xüsusunda əhəmiyyəti vurğulanaraq 2023-cü ildə imzalanmış Əməkdaşlıq Sazişindən irəli gələn vəzifələrin müvəffəqiyyətlə həyata keçirildiyi qeyd olunub.

Nümayəndə heyətinin Vyetnamın Milli Statistika İdarəsinin baş direktoru Nguyen Thi Hong ilə görüşü zamanı isə Azərbaycan ilə Vyetnamın bir-birinin maraqlarına hörmət edən dost və tərəfdaş ölkə olduqları, dövlətlərarası münasibətlərin yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğu qeyd edilib. İki ölkənin iqtisadi-ticari, mədəni, humanitar, təhsil, turizm, enerji və digər sahələrdə işbirliyinin genişləndirilməsində maraqlı olduqları vurğulanaraq "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"ndan irəli gələn vəzifələrin həyata keçirilməsinin beynəlxalq səviyyədə müqayisə edilə bilən və hər iki ölkənin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik məlumatlar mübadiləsinin genişləndirilməsi və dövlətlərarası əməkdaşlığın möhkəmləndirilməsi baxımından önəmi qeyd olunub.

Görüş zamanı Anlaşma Memorandumu çərçivəsində statistika sahəsində 2026-2028-ci illər üçün İş Planı da imzalanıb. İş Planı əsasında görüləcək işlərin statistika sahəsində institusional əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcəyi vurğulanıb.

Vyetnam xarici işlər nazirinin müavini Nguyen Minh Vu ilə görüşdə isə iki ölkə arasında əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

***XQ***

# MEDİA cəmiyyəti rəsmi informasiyaya inanmağa səsləyir

**Sosial şəbəkə platformalarında fəaliyyət göstərən bir sıra hesablar vasitəsilə Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin adından "deepfake" texnologiyası tətbiq olunmaqla hazırlanmış, reallığı əks etdirməyən və saxta məzmunlu video yayılıb.**

Medianın İnkişafı Agentliyindən bildiriblər ki, süni intellektin köməyi ilə hazırlanmış, ictimai rəyi çaşdırmağa yönələn bu dezinformasiya nümunəsi Azərbaycan ilə Türkiyə arasındakı münasibətləri zədələməyə, iki qardaş ölkə arasında mövcud olan strateji müttəfiqliyə xələl gətirməyə və qarşılıqlı etimadı sarsıtmağa xidmət edir.

Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi informasiyaya inanmağa, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların, "deepfake" texnologiyaları ilə məzmunyaratma tendensiyasının vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik.

Eyni zamanda, sosial şəbəkə platformalarının sahiblərini və müvafiq qurumları zərərli və saxta məzmunun operativ şəkildə aradan qaldırılması, bu tip halların qarşısının alınması üçün effektiv mexanizmlərin tətbiqi istiqamətində tədbirlər görməyə dəvət edirik.

***XQ***

# İfşa olunmuşların "üsyanı"

## *Hakslinin distopiyası beynəlxalq mediaya da sirayət edib*

**Tanınmış ingilis yazıçı-filosofu Oldos Haksli "Yeni cəsur dünya" əsərində insanları rahatlıqla ram edilən bir sistemin içinə salırdı. Əsərdə azadlıq cəmiyyətin əlindən alınmasa da, lazımsız hesab olunurdu. İnsanlar isə idarə olunduqlarını hiss etmirdilər, çünki onlara alternativ fikirlər təqdim edilirdi.**

Bugünkü qlobal media mənzərəsində bəzi nümunələrə nəzəri baxış keçirəndə Hakslinin distopiyasını xatırlayırıq. Müxtəlif adlar, fərqli loqolar, ayrı-ayrı redaksiyalar, lakin vahid mərkəzdən formalaşdırılan ideyalar...

Ümumən, medianın həm də güc strukturlarının alətinə çevrildiyini deyə bilərik. Bu kontekstdə Donald Trampın yürütdüyü siyasət daha geniş təzahür kimi qiymətləndirilir. Daha dəqiq desək, siyasi kampaniyalar media vasitəsilə necə "satılır", hansı narativlər gücləndirilir və hansıları səsləndirildikdə güc strukturları tərəfindən qaralama taktikası ilə əvəzlənir, sözügedən nümunədə görmək mümkündür. Beynəlxalq media bu narrativlərlə ziddiyyət təşkil edən fikirlər ortaya qoyaraq hakimiyyətlərin mövqeyinə qarşı tənqidi güc formalaşdırır. Maraqlıdır ki, bir dövlət başçısının fikirləri əvvəlcə absurd, ardınca debat mövzusu, daha sonra isə strateji baxımdan müzakirə edilə bilən məsələ kimi təqdim edilir. ABŞ liderinin Qrenlandiya planı ətrafında media-debatlar daha çox diqqət çəkir.

Əvvəlcə "The Guardian"a nəzər yetirək. Donald Trampın hələ Qrenlandiyanı ABŞ-a birləşdirmək ideyasını gündəmə gətirdiyi vaxtdan etibarən bu fikir dünya mediasında geniş şəkildə tənqid olunmağa başladı. Bu təşəbbüs kolonializmə qayıdışın simvolu kimi dəyərləndirilirdi. Hətta "Greenland is not for sale" ("Qrenlandiya satılmır") başlıqlı reportajlar yayımlandı. Qrenlandiyanın daxili muxtariyyətə və demokratik institutlara malik olduğu, Trampın fikirləri isə strateji dividendlər üçün obyektləşdirmə kimi qəbul edilirdi. Ortadakı ironiya ondan ibarətdir ki, insan amili kənarda qalır, torpaq və resurslara istiqamətlənən baxış tənqid edilirdi. Bu nöqteyi-nəzərdən yanaşma əslində mövcud reallığı ortaya qoymuşdu.




Oxşar yanaşmaya "Financial Times"ın məqalələrində də rast gəlinir. Nəşr Qrenlandiya mövzusunu Qərb ölkələrinin enerji müstəqilliyi və geosiyasi strategiyası kontekstində işıqlandırmaqla Trampın yanaşmasını sual altına alır. Məsələn, "Qrenlandiyadakı gərginliklər Avropanın enerji müstəqilliyi hədəfini daha da möhkəmləndirir" (Greenland tensions harden Europe's push for energy independence) adlı məqalədə qeyd edilir ki, Avropa liderləri enerji və təhlükəsizlik sahəsində strateji müstəqil siyasətlərini gücləndirməkdə israrlıdırlar. Bununla yanaşı, ABŞ-a münasibət, strateji əməkdaşlıq ehtiyacı, suverenlik məsələləri ön plana çəkilir. Yəni, sözügedən gərginlikdən Avropa öz xeyrinə nə isə əldə etməyə çalışır. Nəşrin "Tramp və Rutte Qrenlandiya olmadan masada razılaşma əldə edə bilməzlər" (Trump and Rutte cannot make a deal without Greenland at the table) adlı məqaləsində isə Trampın yanaşmasının nadir hallarda kollektiv dialoqla aparıldığı vurğulanır.

"Reuters"in "Tramp Qrenlandiya uğrunda 8 Avropa ölkəsinə qarşı rüsumlar tətbiq edəcək" (Trump vows tariffs on eight European nations over Greenland) adlı məqaləsi də diqqət çəkir. Məqalədə proses Qrenlandiya məsələsinin müzakirə edilməsini tələb edən "ləngidici mexanizm" kimi təqdim olunur. Agentlik həmin məlumatı həm də Avropa ilə transatlantik ticarət əlaqələrinin gərginləşməsi riskinin bir hissəsi kimi işıqlandırır. Təsadüfi deyil ki, sözügedən yanaşma beynəlxalq ticarət qurumlarında narahatlığa və əks tədbirlər planına yol açır. Yəni, burda da dolayı yolla ABŞ-a qarşı tənqidlərin alovlandırıldığı görünür.

Qrenlandiya mövzusunu kənara qoysaq, məsələnin birbaşa Trampın yürütdüyü siyasətlə əlaqəli olduğunu açıq şəkildə görmək mümkündür. Deməkolar ki, onun hər addımı xarici kulislərdə müzakirələrə çıxarılır. Fransanın "Le Monde" qəzeti və Almaniyanın həftəlik "Der Spiegel" jurnalı Tramp administrasiyasının addımlarını tənqid edən analitik məqalələrlə məşhurdurlar. Onlar Avropa–ABŞ münasibətlərində yaranmış gərginliyi işıqlandırmaqla özlərinə tərəfdaş axtarırlar. Məsələn, "Le Monde" bir neçə məqaləsində ABŞ-ın beynəlxalq media institutlarına göstərdiyi dəstəyin kəsilməsini sərt tənqid etmişdi. Qəzetin fikrincə, bu addım Vaşinqtonun qlobal informasiya funksiyalarını zəiflətmək və demokratik dəyərlərə təsir göstərmək cəhdi idi. "Der Spiegel" isə Trampın "G-7" sammitindəki davranışını misilsiz qalmaqal kimi dəyərləndirmiş, buna Avropa ilə transatlantik əlaqələrdə ciddi gərginlik yaradan faktor "donu" geyindirmişdi. Jurnal Trampın diplomatik protokolu gözardı etməsini, Avropa liderləri ilə münasibətlərdəki sərt və bəzən kobud üslubunu vurğulamaqla onun siyasətinin regional və qlobal stabilliyə mənfi təsir göstərdiyini iddia etmişdi. Bütün bunlar maliyyədən məhrum edilmişlərin "üsyanına" bənzəyir.

Yazımızın əvvəlində qeyd etdiyimiz kimi, bugünkü reallıq Hakslinin "Yeni cəsur dünya" əsərindəki situasiya ilə oxşardır. Bir fərqli nüans var ki, orda insanların narahatlıq və emosional sarsıntısını aradan qaldırmaq üçün "soma" adlı rahatlaşdırıcı dərmandan istifadə olunurdu. Bugünkü qlobal mediada isə "soma"nın əlamətlərini görmürük. Oxucuların informasiya manipulyasiyası ilə bağlı narahatlığı isə hələ də mövcuddur.

***Nəzrin ELDARQIZI***
***XQ***

*Ekspert rəyi*



**Müşfiq ƏLƏSGƏRLİ,**
**media eksperti**

Qlobal ictimai rəyi formalaşdıran transmilli statuslu media şirkətlərinin hansısa dövlətin başçısını tənqid etməsi hadisəsi ənənəvi hal deyil. Yaxın tariximizdə bu cür nümunələr az görünüb və təsadüfi xarakter daşıyıb. Bu kontekstdən yanaşanda indi "The Guardian", "Financial Times", "Associated Press", "Le Monde" kimi qlobal media subyektlərinin ABŞ Prezidenti Donald Trampı hədəfə almaları, xüsusən onun Qəzza, Qrenlandiya, Venesuelaya yönəlik siyasətini sistemli şəkildə tənqid etmələri qeyri-adi görünə bilər. Amma son bir ildə baş verən proseslərə diqqət yetirsək görərik ki, burada "qeyri-adilik" yoxdur. Prosesləri təhlil edərkən, transmilli KİV-lərin Trampa qarşı radikal davranmalarının iki səbəbi görünür.

Birinci amil odur ki, Prezident Donald Tramp 2025-ci il yanvarın 24-də ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID), martın 14-də isə ABŞ Qlobal Media Agentliyinin (USAGM) fəaliyyətinin ləğv edilməsi barədə sərəncam imzalayıb. Məsələ ondadır ki, bizim transmilli media subyektləri kimi dəyərləndirdiyimiz və qlobal ictimai rəyi formalaşdıran transmilli statuslu media şirkətlərinin əksəriyyəti ləğv edilən bu qurumların benefisiarları sırasında olublar. Qrant, yardım adı altında həmin təşkilatlardan külli miqdarda vəsaitlər alıblar və informasiya siyasətlərində bu faktoru nəzərə alıblar. Sadə dildə desək, Prezident Donald Tramp sərəncamları ilə bu media qurumlarına həm "maddi ziyan vurub", həm də onların fəaliyyətini ifşa edib. Çünki, bu media subyektləri uzun illər ərzində müstəqil media subyektləri imici ilə tanınıblar, yaydıqları məlumatlara ictimai etimad olub. Tramp isə sübut etdi ki, onlar heç də tam müstəqil deyillər, fəaliyyətlərində donorlarının siyasi iddialarını təmin edirlər. Bu faktın dünya miqyasında ictimailəşməsi həmin media qurumlarının imiclərinə ciddi təsir edib. İndi onlar, sadə ifadə etsək, Trampdan qisas alırmış kimi görünürlər.

İkinci amil odur ki, ABŞ son 80 il ərzində özünün xarici maraqlarını və xarici siyasətini Avropa ilə uyğunlaşdırıb. Tramp bu siyasəti dəyişib. ABŞ indi Avropa ilə hesablaşmır, bəzən isə onların maraqlarını əzib keçir. Belə davranış Avropa ölkələrində narazılıq doğurur. Həmin narazılıq isə Avropa kökənli transmilli media subyektlərinin xəbər siyasıtində əks olunur.

Bu, bir daha sübut edir ki, qlobal ictimai rəyin uzun illər ərzində etimad göstərdiyi transmilli KİV-lər heç də etimadlı xəbər mənbəyi deyillər.

# Qafqazda sülhün nəqliyyat formulu




**(əvvəli 1-ci səhifədə)**

Yanvarın 26-da Ermənistan parlamentinin xarici əlaqələr üzrə daimi komitəsinin sədri Sarqis Xandanyan və ABŞ Konqresinin xarici əlaqələr komitəsinin nümayəndəsi Lens Kokonos TRIPP (Tramp Marşrutu) layihəsinin həyata keçirilməsi prosesini müzakirə ediblər, yaxın perspektivdə bu istiqamətdə daha sonrakı iş və praktiki addımlarla bağlı fikir mübadiləsi aparıblar. Həmçinin tərəflər Ermənistan–Azərbaycan və Ermənistan–Türkiyə münasibətlərinin normallaşması prosesində son hadisələrə, eləcə də qarşılıqlı maraq doğuran cari regional məsələlərə xüsusi diqqət ayırıblar. Görüş TRIPP marşrutu ətrafında aparılan danışıqların artıq siyasi bəyanat mərhələsini geridə qoyduğunu göstərir. Rəsmi açıqlamada diqqətçəkən əsas məqam TRIPP layihəsinin həyata keçirilməsi prosesi, yəni icra mexanizmləri və yaxın perspektivdə atılacaq praktik addımlar barədə müzakirələrin aparılmasıdır.

Xatırlatmaq yerinə düşər ki, yanvarın 14-də Vaşinqtonda Ermənistan xarici işlər naziri Ararat Mirzoyan və ABŞ dövlət katibi Marko Rubionun görüşündə “TRIPP Implementation Framework” (TIF) adlı çərçivə sənədini təsdiqləndi. Sənəd 8 avqust 2025-ci il tarixində əldə olunmuş siyasi razılaşmanı konkret fəaliyyət planına çevirməyə yönəlib. Çərçivə sənədində TRIPP-in icrası üçün yaradılması nəzərdə tutulan “TRIPP Development Company” şirkətinin strukturuna dair razılaşma da yer alıb.

Zəngəzur dəhlizi (TRIPP) ətrafında gedən danışıqlar Azərbaycan tərəfindən diqqətlə izlənilir. Prezident İlham Əliyev ötən həftə Davosda bildirdi ki, TRIPP vasitəsilə Asiya ilə Avropanı birləşdirən yeni dəhliz açılacaq. Ölkə başçısının sözlərinə görə, bu dəhliz Xəzər dənizi üzərindən Naxçıvana və oradan Türkiyəyə, Avropaya uzanacaq. Ölkə başçısı, həmçinin vurğuladı ki, Azərbaycan–Ermənistan sülhü və Türkiyə–Ermənistan diplomatik əlaqələri paralel olaraq qurulacaq. Ankara da bu nəqliyyat dəhlizində aktiv rol almağa başlayıb. Ötən ilin avqustunda Türkiyə 224 km-lik Qars–İğdır–Aralık–Dilucu dəmiryolu xəttinin təməlini qoyub. Layihənin açılış mərasimində Türkiyənin nəqliyyat naziri Abdulkadir Uraloğlu yeni marşrutu “Asiya ilə Avropanı birləşdirən beynəlxalq polad bağ” adlandıraraq, onun Türkiyə–Azərbaycan–Ermənistan iqtisadi əməkdaşlığını möhkəmləndirəcəyini, sərhədlərin açılmasını və diplomatik normalizasiyanı sürətləndirəcəyini bildirdi.

**Milli Məclisin deputatı Elşad Musayev** XQ-yə açıqlamasında bildirdi ki, 2025-ci ilin avqustunda Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Ermənistanın Baş naziri Nikol Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyev arasında Birgə Bəyannamə regionda yeni siyasi reallıqlar formalaşdırıb. Onun fikrincə, həmin sənəd Cənubi Qafqazda uzunmüddətli sabitliyin təmin olunması və kommunikasiya xətlərinin açılması baxımından mühüm mərhələ olub və hazırkı proseslər məhz bu razılaşmanın məntiqi davamıdır: “Zəngəzur dəhlizinin işə düşməsi, ilk növbədə, Azərbaycanın ərazi bütövlüyü və nəqliyyat təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıyır. Zəngəzur dəhlizi (TRIPP) Türk dünyası arasında əlaqələrin möhkəmlənməsinə, Orta Dəhlizin funksionallığının artmasına və Asiya–Avropa nəqliyyat xəttinin daha effektiv işləməsinə xidmət edir. Azərbaycan bu prosesdə əsas tranzit və logistika mərkəzlərindən birinə çevrilir”.



Deputat, eyni zamanda, qeyd etdi ki, hazırkı dinamika Azərbaycan–ABŞ münasibətlərində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Onun sözlərinə görə, Vaşinqton Azərbaycanın regional və qlobal enerji təhlükəsizliyində, xüsusilə Avropanın enerji təminatında oynadığı rolu nəzərə alaraq Bakıya yanaşmasını yenidən formalaşdırır. E.Musayev hesab edir ki, TRIPP ətrafında əsas siyasi razılaşmalar artıq əldə olunub və yaxın perspektivdə prosesin icra mərhələsinə keçməsi real görünür. Onun fikrincə, bu dəhlizin açılması Azərbaycanın geosiyasi çəkisini artırmaqla yanaşı, ölkənin beynəlxalq əlaqələrini daha möhkəm əsaslar üzərində qurmasına şərait yaradacaq.

*

Ermənistanla Türkiyə arasındakı münasibətlərin normallaşması da TRIPP layihəsi kontekstində müzakirə olunur. Yanvarın 26-da Ermənistanın iqtisadiyyat nazirinin müavini Anuşik Avetyan Marqara sərhəd məntəqəsini ziyarət edərək sərhədin üçüncü ölkə və diplomatik pasport sahibləri üçün açılmasının turizm və xidmət sektorunda böyük canlanmaya səbəb olacağını deyib. O qeyd edib ki, sərhədin açılması Azərbaycanın tranzit qadağalarının ləğvi fonunda ilk effektiv addım olacaq.

**Ankara Universitetinin professoru, politoloq Toğrul İsmayıl** qəzetimizə açıqlamasında dedi ki, bu gün Ermənistan–Türkiyə münasibətlərinin normallaşması Ermənistan–Azərbaycan münasibətlərindən əvvəlki dövrlərdən daha çox asılıdır. Politoloq qeyd etdi ki, Ankara ilə münasibətləri normallaşdırmaq xüsusilə Ermənistan iqtisadiyyatına hava-su kimi lazımdır: “Hazırda münasibətlərin normallaşması Türkiyənin müəyyən etdiyi “yol xəritəsi”nə uyğun olaraq aparılır.



Ermənistanın Rusiya ilə yeganə əsas quru bağlantısı olan Lars sərhəd-keçid məntəqəsindən yüksək dərəcədə asılılığı ölkənin iqtisadi təhlükəsizliyi baxımından ciddi risklər formalaşdırır. İqlim şəraiti, texniki nasazlıqlar və geosiyasi faktorlar səbəbindən Larsın tez-tez bağlanması Ermənistanın idxal-ixrac əməliyyatlarında fasilələr yaradır və ticarət dövriyyəsinə birbaşa mənfi təsir göstərir. Bu şəraitdə Marqara sərhəd-keçid məntəqəsinin açılması Ermənistan üçün alternativ nəqliyyat imkanlarının formalaşması baxımından strateji əhəmiyyət daşıyır. Sözügedən keçidin istifadəyə verilməsi nəqliyyat marşrutlarının diversifikasiyasına, logistik xərclərin azalmasına və Türkiyə ərazisi üzərindən Aralıq dənizi limanlarına çıxışın təmin olunmasına şərait yarada bilər.

Türkiyənin Avropa İttifaqı (Aİ) ilə Gömrük İttifaqına daxil olması faktoru da Ermənistan üçün potensial olaraq yeni ixrac imkanları yarada bilər. Kommunikasiyaların açılması və Türkiyə üzərindən Avropa bazarlarına çıxış, xüsusilə yüngül sənaye, kənd təsərrüfatı məhsulları və emal sektoru üçün Ermənistanın rəqabət qabiliyyətini artıra bilər. Lakin burada vacib məqam ondan ibarətdir ki, bu imkanlar yalnız sabit regional mühit və hüquqi-normativ uyğunlaşma fonunda reallaşa bilər. Bundan əlavə, Ermənistanın regional iqtisadi və nəqliyyat layihələrinə cəlb olunması onun revizionist siyasət imkanlarını obyektiv şəkildə məhdudlaşdırır ki, bu da Azərbaycan üçün daha proqnozlaşdırıla bilən, riskləri azaldılmış və rasional maraqlara əsaslanan qonşuluq mühitinin formalaşmasına şərait yaradır”.

Türkiyə rəsmiləri sərhədin açılmasını hələlik Azərbaycan və Ermənistan arasında sülh sazişi ilə bağlayır. Xarici işlər naziri Hakan Fidan xatırladıb ki, ABŞ-ın vasitəçiliyi ilə Vaşinqtonda imzalanmış Birgə Bəyannaməyə görə, Zəngəzur dəhlizi və Ermənistan konstitusiyasına dair iki məqam hələ aradan qaldırılmayıb. Eyni zamanda, Ermənistan XİN rəhbəri Ararat Mirzoyan parlamentdə bəyan edib ki, Ermənistan–Türkiyə və Ermənistan–Azərbaycan normallaşmaları ayrı-ayrı proseslərdir və İrəvan istədiyi halda Ankarayla müstəqil razılaşma apara bilər. Türkiyə–Ermənistan münasibətləri ilə bağlı fikir ayrılıqları olsa da, ümumi qənaət budur ki, proseslər Azərbaycanın sülh təşəbbüsləri ilə paritet inkişaf edir.

***Tacir SADIQOV***
***XQ***

# Gürcüstanın strateji seçimi regional inteqrasiyadır

**Dünyada qlobal ticarət yollarının yenidən formalaşdığı dövrdə Cənubi Qafqazın geostrateji əhəmiyyəti sürətlə artır. Bu tarixi fürsətdən yararlanmağa çalışan Gürcüstan regionun əsas logistika qovşağına çevrilmək hədəfini özünün strateji prioriteti sayır. Baş nazir İrakli Kobaxidzenin Azərbaycan və Ermənistanla birgə gömrük məntəqələri yaratmaq təşəbbüsü məhz bu məqsədə xidmət edir. O deyib: “Asiya İnkişaf Bankının dəstəyi ilə biz Azərbaycan və Ermənistanla birgə gömrük-keçid məntəqələri layihələri üzərində fəal işləyirik. Bu, regional əməkdaşlığın bariz nümunəsidir”.**



Gürcüstanın Baş naziri bildirib ki, ölkəsi artıq Avropa İttifaqı standartlarına tam uyğun olan Yeni Kompüterləşdirilmiş Tranzit Sistemini (NCTS) uğurla tətbiq edib. Eyni zamanda, Şərq–Qərb magistralı, Bakı–Tbilisi–Qars dəmir yolu, quru limanları və inşası planlaşdırılan Anakliya dərin su limanı layihələri Cənubi Qafqazda üçtərəfli iqtisadi əməkdaşlığı daha da dərinləşdirmək potensialına malikdir.

Bu əməkdaşlığın kağız üzərində deyil, real müstəvidə işlədiyini göstərən nümunə isə Azərbaycan neft məhsullarının Gürcüstan vasitəsilə Ermənistana daşınması prosesidir. İlkin mərhələdə tranzit və gömrük rüsumları ilə bağlı yaranmış çətinliklərin sürətli həlli tərəflərin praqmatik yanaşma sərgilədiyini sübut etdi. Rüsumlarda tətbiq olunan güzəştlər marşrutun iqtisadi cəlbediciliyini artırmaqla yanaşı, Azərbaycan və Ermənistan arasında Gürcüstanın vasitəçiliyi ilə praktiki iqtisadi bağların qurulmasına şərait yaratdı.

Birgə gömrük-keçid məntəqələri layihələri isə yalnız texniki yenilik deyil, həm də siyasi-iqtisadi etimad mühitinin bünövrəsidir. Belə mexanizmlər prosedurları sadələşdirməklə vaxt itkisini azaldır, tranzit xərclərini optimallaşdırır və Cənubi Qafqaz respublikalarının Orta Dəhliz sistemindəki rolunu möhkəmləndirir. Bu yeni əməkdaşlıq modelinin əsasını isə “tək dayanacaq” prinsipi təşkil edir. O, sərhəd-keçid müddətini orta hesabla 30–50 faiz azaldaraq bürokratik maneələri aradan qaldırır. Birgə gömrük məntəqələri gələcəkdə tariflərin şəffaf və əvvəlcədən bəlli olmasını təmin edərək “proqnozlaşdırılan logistika” mühiti yaradacaq.

Gürcüstanın “Strategic Analysis Center” və “Tbilisi School of Analysis” mərkəzlərinin ekspertləri Kobaxidzenin bu təşəbbüsünü müsbət dəyərləndirirlər. Onlar vurğulayıblar ki, Rusiyaya qarşı sanksiyalar və digər marşrutların qeyri-sabitliyi fonunda Gürcüstan Azərbaycanla birlikdə Orta Dəhlizin alternativsiz keçid nöqtəsinə çevrilib. Gömrük sisteminin Avropa standartlarına uyğunlaşdırılması tranziti qərb investorları üçün də cəlbedici edəcək. Artıq Gürcüstan yüksək tranzir haqqının zərərli olduğunu təcrübəsində sınaqdan keçirib.




Azərbaycan yanacağının Ermənistana Gürcüstan dəmir yolu ilə tranziti Tbilisi üçün sınaq rolunu oynadı. Bu zaman baş nazir Kobaxidzenin tarifin sıfırlanması qərarı göstərdi ki, rəsmi Tbilisi qısamüddətli mənfəəti qurban verərək regional sabitliyin təminatçısı olmağa hazırdır.

Gürcü ekspertlərin qənaətinə görə, Azərbaycan və Ermənistanla ortaq gömrük zonalarının yaradılması iqtisadi vasitələr ilə sülhü təşviq edən addımdır. Üç ölkənin gömrük əməkdaşlarının vahid rəqəmsal platformada işləməsi qaçaqmalçılıq və korrupsiya riskini azaldır, layihələrin tənqidçilərinin narahatlıqlarını minimuma endirir. Tranzit rüsumlarının rasional və bazar prinsiplərinə uyğun tənzimlənməsi isə ölkənin etibarlı tərəfdaş imicinin formalaşmasında həlledici rol oynayacaq. Bildirilir ki, yükdaşımalar üçün əsas meyar yalnız coğrafi üstünlüklər deyil, həm də proqnozlaşdırıla bilən tarif siyasəti, sabit qaydalar və inzibati maneələrin minimuma endirilməsidir. Bakı, Tbilisi və İrəvanın bu amilləri nəzərə alması Orta Dəhliz çərçivəsində rəqabət qabiliyyətini artırır və region üçün cəlbedici marşrut formalaşdırır. Baş nazirin təşəbbüsü məhz bu məqsədə xidmət edir.

Onu da qeyd edək ki, Asiya İnkişaf Bankı (AİB) Cənubi Qafqazda iqtisadi inteqrasiyanı və ticarəti inkişaf etdirmək üçün bir sıra layihələr həyata keçirir. Bank Azərbaycanın sərhəd-keçid məntəqələrinin modernləşdirilməsinə 50 milyon dollar kredit ayıracaq, texniki yardım layihələrinə isə 2 milyon dollar vəsait qoyub. AİB həmçinin Gürcüstanda yol infrastrukturuna 415 milyon dollar investisiya yatırıb. Bu təşəbbüslər regionun logistikasını gücləndirməklə ticarət xərclərini azaldır, beynəlxalq bazarlara çıxışı asanlaşdırır. Bank gələcək illərdə Azərbaycana əlavə olaraq 2,5 milyard dolları investisiya qoymağı planlaşdırır.

AİB-nin layihələri Cənubi Qafqaz üçün strateji əhəmiyyət daşıyır. Yalnız infrastruktur deyil, həm də rəqəmsal texnologiyalar və regional əməkdaşlıq dəstəklənir, bu da bölgənin beynəlxalq iqtisadi sistemə daha fəal inteqrasiyası üçün mühüm addımdır.

Məsələ ilə bağlı **gürcüstanlı politoloq Bəhram Mehtiyev** XQ-yə bildirdi ki, tranzit rüsumlarının balanslı və proqnozlaşdırılan



şəkildə tətbiqi yalnız iqtisadi səmərəliliyi artırmır, həm də tərəfdaş ölkələr arasında etimad mühitinin güclənməsinə xidmət edir: “Bu, xüsusilə Gürcüstanın Azərbaycan və Ermənistanla birgə həyata keçirdiyi gömrük-keçid məntəqələri layihələri kontekstində önə çıxır. Belə mexanizmlər gömrük prosedurlarını sadələşdirir, sərhəddə vaxt itkisini minimuma endirir və tranzit xərclərinin optimallaşdırılmasına imkan yaradır”.

Politoloqun sözlərinə görə, bu yanaşma Cənubi Qafqazda iqtisadi inteqrasiyanın dərinləşməsinə, yükdaşımaların effektivliyinin artırılmasına və Orta Dəhlizdə Gürcüstanın strateji mövqeyinin möhkəmlənməsinə birbaşa töhfə verir. Belə layihələr həm də regional əməkdaşlıq üçün institusional zəmin yaradır, qarşılıqlı anlaşılmazlıqların vaxtında həllinə imkan verir və gələcəkdə oxşar tranzit məsələlərində potensial gərginliklərin qarşısını ala bilər”.

Politoloq qeyd etdi ki, Gürcüstanın fiskal siyasət və kompromis balansını düzgün qurması Cənubi Qafqazda iqtisadi sabitlik və etimada əsaslanan yeni əməkdaşlıq formatlarının formalaşmasına zəmin yaradır: “Tbilisinin son addımı da buna xidmət edir. Təcrübə göstərir ki, tranzit sahəsində sərt fiskal yanaşma qısa müddətdə büdcə daxilolmalarını artırır, lakin uzunmüddətli perspektivdə yük axınlarının alternativ istiqamətlərə yönəlməsinə səbəb olur. Bu isə həm infrastrukturun səmərəsiz istifadəsinə, həm də tranzit ölkənin strateji mövqelərinin zəifləməsinə gətirib çıxarır. Azərbaycan neft məhsullarının Gürcüstan üzərindən Ermənistana daşınması ətrafında yaranmış vəziyyət bu risklərin real olduğunu nümayiş etdirdi.

Unudulmamalıdır ki, balanslaşdırılmış tranzit siyasəti təkcə iqtisadi alət deyil, həm də regional əməkdaşlıq və qarşılıqlı etimadın möhkəmləndirilməsi baxımından mühüm strateji vasitədir”.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Uzaq Mərakeş – yaxın dostumuz

## *Bakı və Rabat arasında davamlı inteqrasiya*



**Azərbaycan Respublikası ilə “Məğrib” coğrafiyasının aparıcı ölkəsi Mərakeş Krallığı arasında intensiv yaxınlaşma prosesi hər iki dövlətin milli maraqlarının uzlaşmasından qaynaqlanır. Azərbaycan Xarici İşlər Nazirliyində keçirilən siyasi məsləhətləşmələrin dördüncü raundu Avrasiya ilə Afrika qitəsi arasında dayanıqlı və strateji xarakterli geosiyasi körpünün inşasının mühüm mərhələsidir. Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və Mərakeş Krallığının Xarici İşlər, Afrika Əməkdaşlığı və Xaricdə Yaşayan Mərakeşlilər Nazirliyinin Asiya və Okeaniya məsələləri üzrə baş direktoru Ömər Kadirinin rəhbərlik etdiyi nümayəndə heyətləri arasındakı müzakirələrin məzmunu, miqyası və hədəfləri ikitərəfli münasibətlərin dərin strateji tərəfdaşlıq müstəvisinə keçid etdiyini nümayiş etdirir.**

Bakı və Rabat arasındakı siyasi dialoqun arxitekturası hər iki dövlətin ərazi bütövlüyü, suverenlik və sərhədlərin toxunulmazlığı məsələlərində nümayiş etdirdiyi prinsipial və qətiyyətli mövqeyə əsaslanır. Tarixi xronologiya və siyasi təcrübə sübut edir ki, beynəlxalq hüququn mühüm norma və prinsiplərinə sadiqlik Azərbaycan–Mərakeş əlaqələrinin sarsılmaz təməl daşıdır. Mərakeş Krallığı Azərbaycan torpaqlarının işğal altında olduğu otuz illik dövrdə, həmçinin 44 günlük Vətən müharibəsi və ondan sonrakı antiterror tədbirləri zamanı rəsmi Bakının haqq işini birmənalı şəkildə dəstəkləyib. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində, eləcə də BMT Təhlükəsizlik Şurasının müvəqqəti üzvü olduğu dönəmlərdə dövlətimizin mövqeyini müdafiə edən dost ölkələrdən biri olub. Buna adekvat olaraq, Azərbaycan dövləti Mərakeşin “Səhra” məsələsində suverenlik hüquqlarını tanımaqla yanaşı, Rabatın irəli sürdüyü sülh təşəbbüslərini və ərazi bütövlüyünün bərpası istiqamətindəki səylərini hər zaman dəstəkləyib.

Siyasi məsləhətləşmələr zamanı diqqət çəkən məqam, şübhəsiz ki, iqtisadi-ticari əlaqələrin intensivləşdirilməsi, mövcud potensialın reallaşdırılması və ticarət dövriyyəsinin həcminin artırılması zərurətidir. Etiraf edilməlidir ki, iki ölkə arasında mövcud ticarət dövriyyəsinin statistik göstəriciləri, tərəflərin malik olduğu real iqtisadi gücü və imkanları tam əks etdirmir. 2024-cü ilin avqust ayının 28-də ümumvətəndaş pasportu sahibləri üçün vizasız gediş-gəliş rejiminin tətbiq edilməsi barədə Sazişin qüvvəyə minməsi iqtisadi dinamikanın sürətlənməsinə, insan kapitalının hərəkətinə və işgüzar dairələr arasında birbaşa təmasların qurulmasına təkan verib.

***(ardı 6-cı səhifədə)***

# Uzaq Mərakeş – yaxın dostumuz



(əvvəli 5-ci səhifədə)

Nəqliyyat və logistika sahəsi Azərbaycan–Mərakeş əlaqələrinin gələcək arxitekturasında xüsusi, həlledici çəkiyə malikdir. Azərbaycanın Avrasiyanın əsas nəqliyyat qovşağına, xüsusilə Orta Dəhlizin kilid nöqtəsinə çevrilməsi Mərakeşin Şimali Afrikadakı logistik hab rolunu, Cəbəllütariq boğazındakı strateji mövqeyini mükəmməl şəkildə tamamlayır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə Mərakeşin dünya miqyaslı Tanjer-Med limanı arasında əməkdaşlığın qurulması, təcrübə mübadiləsi və yükdaşımaların koordinasiyası Avropa, Afrika və Asiya bazarlarına çıxış üçün alternativ imkanlar aça bilər.

Humanitar sahə, xüsusilə təhsil, elm, mədəniyyət və idman, xalqlararası ünsiyyətin dərinləşməsi cəmiyyətlərin yaxınlaşması baxımından strateji əhəmiyyət kəsb edir. Azərbaycan ali təhsil müəssisələrində təhsil alan mərakeşli tələbələrin sayının artırılması, diplomların qarşılıqlı tanınması, elmi-tədqiqat institutları arasında əlaqələrin genişləndirilməsi və tələbə-müəllim mübadiləsi proqramlarının aktivləşdirilməsi perspektivdə "yumşaq güc" diplomatiyasının ayrılmaz tərkib hissəsidir. Xatırladaq ki, Mərakeş milli futbol komandasının son Dünya Çempionatındakı tarixi uğuru və Azərbaycanın beynəlxalq idman tədbirlərinə (Formula 1, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları) ev sahibliyi etmək sahəsindəki təcrübəsi idman diplomatiyası sahəsində də səmərəli əməkdaşlıq üçün geniş üfüqlər açır.

Çoxtərəfli platformalarda, beynəlxalq təşkilatlarda əməkdaşlıq hər iki ölkənin xarici siyasətindəki sinxronlaşmanı, mövqelərin üst-üstə düşməsini nümayiş etdirir. Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində göstərilən qarşılıqlı dəstək siyasi məsləhətləşmələrin dördüncü raundunda xüsusilə qeyd edilib. Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi dövründə irəli sürdüyü qlobal təşəbbüslərin, xüsusilə peyvənd millətçiliyinə qarşı mübarizə və neokolonializm meyillərinin ifşası istiqamətindəki addımların Mərakeş tərəfindən dəstəklənməsi siyasi həmrəyliyin nümunəsidir. Mərakeşin Afrika İttifaqı daxilindəki nüfuzu və çəkisi, Azərbaycanın "Afrika açılımı" siyasəti üçün əvəzsiz vasitədir.

Budəfəki siyasi məsləhətləşmələr zamanı Azərbaycan tərəfinin postmünaqişə dövründə bölgədə yaranmış yeni reallıqlar, sülh gündəliyi, Ermənistanla münasibətlərin normallaşdırılması prosesi Qarabağ və Şərqi Zəngəzurda aparılan nəhəng bərpa-quruculuq işləri barədə qarşı tərəfi ətraflı məlumatlandırması, informasiya müharibəsində həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından vacibdir. Mina təhdidləri, urbisid və ekosid cinayətləri, həmçinin Ermənistanın destruktiv siyasəti barədə detallı fakt və sübutların Mərakeş rəsmisinə təqdim edilməsi, Rabatın beynəlxalq tribunalarda və diplomatik arenalarda Azərbaycanın mövqeyini daha arqumentli və qətiyyətlə müdafiə etməsinə şərait yaradacaq.

Yaxın gələcəkdə Azərbaycan Respublikası ilə Mərakeş Krallığı arasında İkitərəfli Əməkdaşlıq üzrə Birgə Komissiyanın növbəti iclasının keçirilməsi və komissiyanın işinin aktivləşdirilməsi gözlənilir. Komissiyanın fəaliyyətinin intensivləşməsi imzalanması nəzərdə tutulan yeni sənədlərin, sazişlərin və memorandumların hüquqi bazanı daha da möhkəmləndirməsinə xidmət edəcək. Ehtimal olunan ssenarilərdən biri də, müdafiə sənayesi və hərbi-texniki əməkdaşlıq sahəsində əlaqələrin dərinləşməsidir. Hərbi təhsil, təhlükəsizlik orqanları arasında informasiya mübadiləsi, kibertəhlükəsizlik və terrorizmlə mübarizədə birgə fəaliyyət, gələcək gündəliyin əsas maddələri ola bilər.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müstəqil, çoxvektorlu xarici siyasət strategiyası Azərbaycanın ənənəvi tərəfdaşları ilə yanaşı, İslam dünyasının, Ərəb Liqasının və Afrika qitəsinin nüfuzlu dövlətləri ilə də əlaqələri maksimum səviyyəyə çatdırmağı, yeni dostlar və müttəfiqlər qazanmağı hədəfləyir. Mərakeş Krallığı məhz belə etibarlı, nüfuzlu və strateji əhəmiyyətli tərəfdaşlardan biridir. Qarşıdakı dövrdə şahidi olacağımız yüksək səviyyəli qarşılıqlı səfərlər, parlament sədrlərinin təmasları və reallaşacaq irimiqyaslı iqtisadi layihələr bu proqnozun doğruluğunu əyani şəkildə nümayiş etdirəcək.

Mərakeş nümayəndə heyətinin səfər çərçivəsində keçirdiyi digər görüşlər "ASAN xidmət" mərkəzləri ilə tanışlıq və Azərbaycan brendi olan dövlət xidmətləri modelinin Mərakeşdə tətbiqi perspektivləri də xüsusi qeyd edilməlidir. İdarəetmə sahəsində innovasiyaların transferi, dövlət xidmətlərinin rəqəmsallaşdırılması istiqamətində əməkdaşlıq iki ölkəni texnoloji cəhətdən də yaxınlaşdırır. Mərakeş tərəfinin "ASAN xidmət" təcrübəsinə olan yüksək marağı yaxın gələcəkdə müvafiq anlaşma memorandumunun imzalanması ilə nəticələnə bilər ki, sözügedən sənəd institusional əməkdaşlığın yeni səhifəsi olacaq. Dini tolerantlıq, multikulturalizm ənənələrinin qorunması, radikalizmlə ideoloji mübarizə sahəsində din xadimlərinin, ilahiyyatçıların əməkdaşlığı, təcrübə mübadiləsi, cəmiyyətlərin sağlam inkişafı üçün vacibdir. Qafqaz Müsəlmanları İdarəsi və Mərakeşin müvafiq dini qurumları arasında əlaqələrin intensivləşməsi İslam dünyasında həmrəyliyin güclənməsinə töhfə verəcək.

Mərakeşlə qurulan körpülər Azərbaycanın qlobal nüfuzunun, artan gücünün və beynəlxalq aləmdəki etibarlı tərəfdaş imicinin göstəricisidir.

*Yusif ŞƏRİFZADƏ*
*XQ*

# Tərəfdaşlıqla təhlükəsizliyin qovuşduğu nöqtə



(əvvəli 1-ci səhifədə)

Hadisələrin kəskin dönüşlü inkişafını müşahidə etdiyimiz çağdaş reallıqlar kontekstində Azərbaycanın çoxvektorlu müstəqil diplomatiyası nadir nümunələrdən biri sayılmalıdır. Bu diplomatiyanın üstün cəhəti ondan ibarətdir ki, ölkəmiz özünün xarici siyasətində "böyük güclər"in hərbi-siyasi blokları ilə məsafəli davranır, onların iştirakı, yaxud yönləndirməsi ilə yaranan münaqişələrin bir hissəsinə çevrilmir. Rəsmi Bakı "ənənəvi tendensiyaların" tamamilə əksinə olaraq, özünün milli maraqlara söykənən tərəfdaşlıq modelini nümayiş etdirir. Tam əminliklə deyə bilərik ki, bu gün Azərbaycan müstəqil siyasət aparmağa qadir dünyanın azsaylı dövlətlərindən biridir.

Məhz qeyd etdiyimiz xarici diplomatiya kontekstindən yanaşsaq, çeşidli beynəlxalq aktorlarla bərabərhüquqlu, qarşılıqlı faydalılıq və etimad əsasında dialoqun qurulması məsələlərində Azərbaycan–İsrail münasibətlərini nümunə göstərmək olar. İsrail Dövlətinin xarici işlər naziri Gideon Saarın Bakıya səfəri, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü və burada apardığı danışıqlar, sadəcə, ikitərəfli münasibətlər kontekstində baş verən hadisə kimi önəmli deyildi. Bu səfər, eyni zamanda, Azərbaycanın regional və qlobal təhlükəsizlik sistemində artan nüfuzunun göstəricisi kimi qəbul olunmalıdır. İsrailli nazirin dövlət başçımızla görüşündə səsləndirdiyi "inkişaf etmiş iqtisadiyyatları olan İsrail və Azərbaycan regionlarımızda sabitliyin sütunlarıdır" sözləri yeni reallıqları əks etdirməklə yanaşı, iki fərqli bölgədə maraqları olan kənar aktorlara mesaj sayılmalıdır. Bəli, artıq dünənki bədxahlarımız da qəbul edirlər ki, bu gün Bakı Cənubi Qafqazda əsas güc və sabitlik mərkəzidir. Azərbaycan–İsrail əməkdaşlığı isə müstəqil xarici siyasətin real və konkret nəticələrə yönələn nümunədir.

*

Bakıya səfərində israilli nazirin nümayəndə heyətinin müşayiəti ilə iki ölkə arasındakı ənənəvi siyasi dialoqdan kənara çıxması, strateji və iqtisadi əlaqələri gücləndirmək, tərəfdaşlıq münasibətlərini keyfiyyətcə yeni səviyyəyə qaldırmaq istəyini nümayiş etdirməsi xüsusilə diqqətəlayiqdir. Heç kəsə sirr deyil ki, Azərbaycan və İsrail uzun müddətdir enerji, yüksək texnologiyalar, kənd təsərrüfatı, müdafiə sahələrində əməkdaşlıq edirlər. Amma bu gün iki ölkə arasında əlaqələr praqmatik əməkdaşlığın çərçivəsini aşaraq, daha geniş müstəvilərədək uzanıb və regional sabitlik arxitekturasının tərkib hissəsinə çevrilib. Məhz bu amili nəzərdə tutan İsrail Xarici İşlər Nazirliyinin rəhbəri Bakı görüşlərində Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında tərəfdaşlığın təkcə ikitərəfli məsələ deyil, həm də daha geniş geosiyasi kontekstdə davamlılıq amili kimi vurğuladı.

Nazir Gideon Saarın ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Vaşinqtonda əldə olunmuş Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində irəliləyişi, tərəflərin imzaladıqları Birgə Bəyanatı xüsusi qeyd etməsi diqqətdən yayınmadı. Bu zaman onun əldə olunan nəticənin Prezident İlham Əliyevin balanslaşdırılmış daxili və xarici siyasəti nəticəsində mümkün olduğunu vurğulaması, ardınca dövlət başçımızın müdrik siyasəti olmadan regionda əmin-amanlığın mümkünsüzlüyünü dilə gətirməsi Tel-Əvivin Azərbaycanla münasibətlərə böyük dəyər verdiyinin isbatı sayılmalıdır. Bu sözlər təkcə reallığın səmimi etirafı deyil, həm də bütün dünyaya ünvanlanan vacib mesajdır.

Siyasi məntiq onu deyir ki, İsrail xarici işlər nazirinin Bakıya səfəri Azərbaycan dövlətinin bu gün beynəlxalq siyasətin fəal subyekti kimi qəbul edildiyini, Cənubi Qafqazda yeni reallıqları formalaşdırdığını, öz milli maraqlarını bütünn müstəvilərdə və platformalarda müdafiə etməyə qadir olduğunu göstərdi. Bakı həm də sülh və inkişaf gündəminin carçısı imicini möhkənləndirmiş oldu.

Bakı görüşlərində Gideon Saarın toxunduğu vacib məsələlərdən biri Azərbaycanda yəhudi icmasının sabit və təhlükəsiz şəraitdə yaşaması ilə bağlı idi. Onun xüsusi olaraq dilə gətridiyi bu məqam diplomatik tərif deyil, daha çox Azərbaycanın unikal multikulturalizm və tolerantlıq modelinin etirafı kimi qəbul edilməlidir. Prezident İlham Əliyev müxtəlif tribunalardan dəfələrlə bəyan edib ki, Azərbaycan müsəlman dünyasında azsaylı ölkələrdən biridir ki, burada müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri əsrlər boyu sülh, əmin-amanlıq və qarşılıqlı anlaşma şəraitində yaşayıblar. Bu tarixi reallıq ölkəmizin dünyada formalaşmış sülhsevər imicini daha da yüksəldir, onu dini və ya etnik zəmində qarşıdurmalara məruz qalmış regionlar üçün nümunə kimi göstərir.

*

Onu da qeyd edək ki, Azərbaycan XİN başçısı Ceyhun Bayramov israilli həmkarı ilə birgə keçirdiyi mətbuat konfransında Fələstin–İsrail münaqişəsi ilə bağlı dövlətimizin dəyişməz mövqeyini bir daha təsdiqlədi: "Danışıqlar zamanı ənənəvi olaraq regional və beynəlxalq təhlükəsizlik məsələləri, Yaxın Şərqdəki vəziyyət, o cümlədən Qəzza zolağı ilə bağlı məsələləri də müzakirə etdik. Fələstin–İsrail münaqişəsi kontekstində Qəzzadakı vəziyyətlə bağlı Azərbaycanın mövqeyi məlumdur. Biz sülhün, münaqişənin danışıqlar yolu ilə həllinin tərəfdarıyıq".

Populizmdən, emosional şüarlardan uzaq, beynəlxalq hüquq normaları çərçivəsində fəaliyyət göstərməyə üstünlük verən bu yanaşma Azərbaycanın xarici siyasətinin yetkinliyinin əyani sübutudur. Bu baxımdan Prezident İlham Əliyevin bu yaxınlarda yerli televiziya kanallarına müsahibəsi zamanı verdiyi açıqlamanı xatırlatmaq yerinə düşər: "Bizim başımız bəlada olanda öz taleyimizin hökmünə buraxılmışdıq. Heç kim bizi müdafiə etmirdi. O cümlədən Fələstinə bütün hörmətimə və dərdlərinə şərik olmağıma rəğmən. Axı, Fələstin də bizi elə də müdafiə etmirdi. Bəli, İslam Əməkdaşlıq Təşkilatının hamının dəstəklədiyi qətnamələri var idi. Biz buna görə bütün ölkələrə minnətdarıq, eynilə Azərbaycan da həm BMT-də, həm Qoşulmama Hərəkatında, həm də İslam Əməkdaşlıq Təşkilatında həmişə Fələstini və Fələstin dövlətinin yaradılmasını dəstəkləyib. Azərbaycanda Fələstinin səfirliyi də fəaliyyət göstərir, həm də Azərbaycanın maliyyə yardımı sayəsində. Ona görə də mənim mövqeyim həmişə ondan ibarət olub ki, ərəb ölkələrinin məsələlərini ərəb dövlətlərinin özləri həll etməlidir. İndiyədək dərindən inanıram ki, qeyri-ərəb müsəlman ölkələr parovozun önündə qaçmamalıdır. Bu, heç bir yaxşı nəticə verməz. Ərəb Liqası var, Ərəb Liqasının mövqeyi mövcuddur, o, yetərincə aydındır və biz buna uyğun hərəkət edirik. İslam Əməkdaşlıq Təşkilatının qərarları var və biz də, o cümlədən bu qərarları qəbul etmişik və buna əməl edirik. Ona görə də lazımsız fəallıq göstərmək və yenə də parovozun önündə qaçmaq o qədər də yaxşı məşğuliyyət deyil".

Bu, Azərbaycanın ədalətli və praqmatik mövqeyidir. Azərbaycan–İsrail münasibətlərinin hazırkı durumunu isə tərəfdaşlıqla təhlükəsizliyin kəsişdiyi ortaq nöqtə kimi xarakterizə etmək daha doğru olar.

*İmran BƏDİRXANLI*
*XQ*

# Revanşist dairələrin son ümidi

## *Məğlub düşərgə miflərlə yaşayan diaspora bel bağlayır*

**Dünya erməniliyi hazırda ciddi parçalanma mərhələsini yaşayır və tərəddüd içindədir. Son ayların diqqəti cəlb edən cəhətlərindən biri ondan ibarətdir ki, Ermənistanda etiraz aksiyaları getdikcə öləziyir, ölkə hüdudlarından kənarda isə əksinə, daha da fəallaşır.**



Məsələn, bir neçə gün öncə Soçidə Erməni Apostol Kilsəsinə dəstək məqsədilə "Biz Eçmiədzinlə birlikdəyik!" adlı kütləvi aksiya keçirilib. Erməni KİV-lərinin məlumatına görə, Adlerdə yerləşən "Surb Sarkis" erməni kilsəsinin önünə 1500-dən çox adam toplaşaraq "Parçalanmaya yox!", "Kilsənin birliyi – xalqın birliyidir!", "Kilsə və xalq birdir!", "Bizim katolikosumuz II Qaregindir!" kimi şüarlar səsləndirib. Aksiyaya "Nuhun varisləri", "Xaç yürüşü azadlıq hərəkatı" və "Kuban Erməniləri İttifaqı" kimi ictimai hərəkatlar da qoşulub. Daha əvvəl Avropa və ABŞ-da fəaliyyət göstərən müxtəlif erməni təşkilatları tərəfindən də oxşar aksiyalar keçirilmişdi. Bu aksiyalar bir daha göstərir ki, erməni diasporu kilsə məsələsində daha sərt və kompromissiz mövqe tutur. Xaricdə formalaşan bu ictimai fəallıq, əslində, Ermənistan daxilində zəifləyən etiraz dalğasını kompensasiya etmək cəhdi kimi də qiymətləndirilə bilər. Diqqətçəkən məqam ondan ibarətdir ki, diaspor strukturları kilsəni təkcə dini institut deyil, həm də siyasi təsir aləti kimi təqdim etməyə çalışırlar. Bu yanaşma kilsə-dövlət münasibətlərinin daha da siyasiləşdirilməsinə və cəmiyyətdə yeni gərginlik ocaqlarının yaranmasına yol aça bilər. Kənardan idarə olunan bu aksiyalar Ermənistanın daxili sabitliyinə xidmət etmir və parçalanmanı daha da dərinləşdirir.

Beləliklə, biz hazırda Ermənistanda yaşayan ermənilərlə digər dövlətlərin vətəndaşı olan ermənilər arasında açıq parçalanmanın formalaşırdığı bir mərhələyə gəlib çatmışıq. Görünən odur ki, xaricdə yaşayan ermənilər Ermənistan vətəndaşları ilə müqayisədə illüziyalardan ayrılmaqda daha çox çətinlik çəkirlər. Əslində, burada paradoksal heç nə yoxdur. Çünki onların böyük hissəsi Azərbaycan torpaqlarının işğalı nəticəsində yaranmış qarşıdurma dövründə Ermənistanın yaşadığı bütün çətinlikləri, regional təcrid vəziyyətində olan bir ölkədəki sosial-iqtisadi tənəzzülü öz üzərlərində hiss etməyiblər. Məhz bu səbəbdən diaspor mühitində formalaşan təsəvvürlər reallıqdan daha çox miflər və keçmişin romantik obrazları üzərində qurulub. Ermənistan daxilində gündəlik həyatın ağırlığını yaşayan cəmiyyət isə bu illüziyaların bədəlini çoxdan ödəyib. Xaricdəki erməni dairələri üçün ideoloji şüarlar hələ də cəlbedici səslənsə də, İrəvanda artıq praqmatik yanaşma üstünlük qazanmağa başlayıb. Bu fərqli baxış bucaqları "erməni dünyasında" vahid mövqenin formalaşmasını mümkünsüz edir. Nəticədə isə daxili və xarici ermənilik arasında dərinləşən fikir ayrılığı siyasi proseslərə də birbaşa təsir göstərir.

Bununla belə Ermənistanın özündə də Azərbaycanla qarşıdurmanın davam etməsini, "miatsum" ideyalarına qayıdışı arzulayan qüvvələrin mövcudluğunu inkar etmək olmaz. VOMA və "Yerkrapa" kimi hərbiləşdirilmiş strukturlar məhz bu düşüncələrin yuvasına çevrilib. Onlar hətta, daha irəli gedərək gələcək diversant və terrorçuların hazırlandığı baza rolunu oynayır. Bu təşkilatların fəaliyyəti cəmiyyətin radikal ruhda saxlanılmasına və revanşist ovqatın diri tutulmasına xidmət edir. Formal olaraq "vətənpərvərlik" adı altında təqdim olunan bu fəaliyyət əslində regionda sülh perspektivlərini hədəfə alan təhlükəli bir kursdur. Gənclərin ideoloji zəhərlənməsindən tutmuş yarımhərbi hazırlıqlara qədər uzanan bu proseslər dövlət nəzarətindən kənarda qalmaqla ciddi risklər yaradır. Xüsusilə müharibədən sonrakı reallıqları qəbul etməyən bu çevrələr cəmiyyətdə nifrət dili və düşmən obrazını yenidən istehsal etməyə çalışırlar. Bu isə Ermənistanın beynəlxalq öhdəlikləri və sülh gündəliyi ilə açıq ziddiyyət təşkil edir. Faktiki olaraq, VOMA və "Yerkrapa" kimi strukturlar Ermənistanı keçmişin dalanına sürükləyən destruktiv mərkəzlərə çevrilib. Erməni cəmiyyətinin ayıq düşüncəli hissəsi millətçi paradiqmanın yenidən nəzərdən keçirilməsini və baş nazir Nikol Paşinyanın irəli sürdüyü "real Ermənistan" ideyasını dəstəklədiyi halda, VOMA və ona bənzər düşərgələrdə Azərbaycana və azərbaycanlılara qarşı nifrətin yeni mərhələsinin səssiz-səmirsiz başlənməsi prosesi gedir. Yalnız ümid qalır ki, Ermənistan hakimiyyəti bu təşkilatları diqqətlə izləyir və Bakı ilə İrəvan arasında sülh möhkəmləndikcə, onlar da tarixin zibilliyinə göndəriləcəklər. Hakimiyyətin bu qüvvələrə münasibəti yaxın dövrdə Ermənistanın hansı yolu seçəcəyini də aydın şəkildə göstərəcək.

Bu arada II Qareginin başçılıq etdiyi din xadimlərinə dəstək aksiyaları Ermənistanda getdikcə yeni çalarlar qazanr. Məsələn, yanvarın 25-də N.Paşinyan Talin şəhərində liturgiyada iştirak etmək üçün kilsəyə yaxınlaşarkən, şəhər sakinlərindən biri məşhur Azərbaycan ara mahnısı – "Nooldu Paşinyan"ı səsləndirib. Bu təxribatın təşkilatçıları hesab edirdilər ki, belə bir addım güclü ictimai rezonans doğuracaq və kütlə baş nazirin siyasətinin guya, "xəyanətkar mahiyyətini" qəfildən dərk edəcək. Lakin bu ümidlər puça çıxdı. Hadisə cəmiyyətdə gözlənilən effekti yaratmadı və daha çox ucuz təxribat kimi qəbul olundu. Sosial şəbəkələrdə bu epizodun geniş yayılmasına baxmayaraq, kütləvi dəstək dalğası formalaşmadı. Əksinə, bir çoxları bunu dini mərasimdən siyasi məqsədlər üçün istifadə cəhdi kimi dəyərləndirdi. Görünən odur ki, bu cür simvolik jestlər artıq ictimai şüuru səfərbər etmək gücünü itirib. Ermənistan cəmiyyəti emosional manipulyasiyalardan daha çox real gündəmin cavablarını gözləyir.

Müharibə və onunla bağlı hər şey artıq geridə qalıb. Doğrudur, Paşinyanın reytinqi çox da yüksək deyil, amma digər siyasətçilərin, o cümlədən Qarabağ klanının "qlavar"-larının və partiyaların reytinqi ondan da aşağıdır. Üstəlik, Paşinyan tədricən güclü piar kampaniyasına start verib. Bu kampaniya ilk növbədə cəmiyyətə sülh və sabitlik mesajları ötürməyə hesablanıb. Paşinyan özünü emosional, xalqdan biri obrazında təqdim etməklə siyasi potensial təlatümləri neytrallaşdırmağa çalışır. Sosial şəbəkələrdə fəallığın artırılması da təsadüfi deyil və gənc elektoratın diqqətini saxlamağa yönəlib. Eyni zamanda bu vizual və simvolik elementlər daxili auditoriya ilə yanaşı, xarici tərəfdaşlara da ünvanlanmış mesajlar ehtiva edir. Hakimiyyət sülh gündəliyini öz siyasi mövcudluğunun əsas dayaqlarından birinə çevirməyə cəhd göstərir. Alternativ siyasi qüvvələrin zəifliyi fonunda Paşinyan üçün əsas risk küçə siyasətinin yenidən aktivləşməsi ola bilər. Lakin mövcud sosial dinamika göstərir ki, cəmiyyət kütləvi qarşıdurmalara hazır deyil. Bu isə baş nazirə manevr imkanlarını qorumaq üçün müəyyən zaman qazandırır.

Yeri gəlmişkən, onu da bildirək ki, bu kampaniyanın qeyri-rəsmi simvolu ürək işarəsidir. Paşinyan musiqi dinlədiyi çoxsaylı videoların sonunda əlləri ilə məhz bu işarəni göstərir. Maraqlıdır ki, o, təkcə musiqi dinləməklə kifayətlənmir, həm də musiqi ifa edir – qrup tərkibində zərb alətlərində çalır. Bu da piar strategiyasının bir hissəsidir və baş nazirin təkcə oyun qaydalarını qəbul etmədiyini, həm də onları formalaşdırdığını göstərən mesaj kimi təqdim olunur. Bunun reallığı nə dərəcədə əks etdirməsi ayrıca araşdırma mövzusudur. Lakin faktdır ki, hazırkı hökumət başçısı və onun komandası Ermənistanın suverenliyinin möhkəmləndirilməsinə, böyük güclərin diktəsindən xilas olmağa və nəticə etibarilə öz gündəmini formalaşdırmaq imkanlarının genişlənməsinə çalışır.

Ermənistanın taleyi iyunun 7-də keçiriləcək parlament seçkilərində həll olunacaq. Erməni diasporunun bu prosesə təsiri birmənalı olaraq destruktiv olacaq, lakin qanun çərçivəsində onların imkanları olduqca məhduddur. Əgər xarici oyunçular seçkilər ərəfəsində vəziyyəti güc yolu ilə dəyişmək istəsələr, bu artıq tamamilə başqa bir tarixdir və hazıkı baş nazir belə bir ssenariyə qarşı hərtərəfli hazır olmalıdır.

*Səxavət HƏMİD*
*XQ*

# Xəzərin 8-ci “polad ada”sı

## *“Qərbi Çıraq” platformasının istismara verilməsindən 12 il ötür*

**“Əsrin müqaviləsi” çərçivəsində ilkin neftin hasilatına başlanıldığı “Çıraq” yatağı ehtiyatların zənginliyi ilə seçilir. 1997-ci ilin payızında istismarına başlanmış bu yatağın geniş bir ərazinin əhatə etməsi, eləcə də zəngin neft ehtiyatları burada daha bir hasilat platformasının inşasına zərurət yaradıb. Məhz bu səbəbdən yatağın qərb cinahında yerləşən ehtiyatların işlənməyə cəlb edilməsi məqsədilə 2010-cu ilin martın 9-da konsorsiumun rəhbər komitəsi tərəfindən yeni bir qərar qəbul edilib.**



“Qərbi Çıraq” layihəsi, həm də mövcud “Dərinsulu Günəşli” və “Çıraq” platformaları arasında yeni bir dəniz qurğusu quraşdırmaqla əvvəlki illərdə yaradılmış infrastrukturda müşahidə edilən boşluğu aradan qaldırmaq məqsədi daşıyıb. Bununla da, dəyəri 6 milyard dollar olan daha bir neft layihəsinin icrasına start verilib.

2010-cu il iyunun 21-də 20 qazma kəsiyi və 4 istiqamətləndirici dayağı olan 218 tonluq öncə qazma tavası dənizin dibində quraşdırılıb. 2012-ci il oktyabrın 20-də “Qərbi Çıraq” platformasının dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun tikinti-quraşdırma sahəsinin yanalma limanında təhlükəsiz şəkildə “STB-1” daşıma barjasına yüklənərək dənizə yola salınıb. Növbəti ildə isə üst modullar dənizə gətirilərək dənizdə quraşdırılmış dayaq blokunun üzərinə bərkidilib. Bununla yanaşı, layihə çərçivəsində sualtı boru kəmərləri çəkilib, “Dədə Qorqud” üzən yarımdalma qurğusu vasitəsilə ərazidə qabaqlayıcı quyular qazılıb.

“Azəri-Çıraq-Günəşli” yataqlar blokunda neft hasilatının sabitləşdirilməsinə və layların neft veriminin maksimuma çatdırılmasına imkan yaradan layihənin ümumi dəyərinin, təqribən, 4 milyard dolları qurğuların tikintisinə və qabaqlayıcı qazma proqramına xərclənib. Məbləğin qalan hissəsi isə istismar müddəti dövründə platformadan hasilat quyularının qazılmasına sərf olunur. Ölkə neft sənayesinin tarixində mühüm əhəmiyyətə malik olan bu qurğunun hazırlanması yerli mütəxəssislər tərəfindən həyata keçirilib.

“Qərbi Çıraq” bp şirkətinin “Azəri-Çıraq-Günəşli” layihəsinin operatoru qismində Xəzərdə inşa və istismar etdiyi dünya səviyyəli 8-ci dəniz platformasıdır. Platforma gündəlik 25 min ton neft və 6,5 milyon kubmetr qaz hasilatı üçün layihələndirilib. Bununla yanaşı, qurğu gün ərzində 8 milyon kubmetr səmt qazı ötürmək imkanına malikdir.

Yeri gəlmişkən, “Çıraq” neft layihəsi bp və tərəfdaşlarına Azərbaycanın yerli ehtiyatlarından istifadəni optimallaşdırmaq öhdəliyini yerinə yetirmək üçün daha bir imkan yaradıb. Belə ki, layihə çərçivəsində inşa olunmuş “Qərbi Çıraq” platformasının dayaq blokunun, üst modullarının inşasında, eləcə də sualtı boru kəmərlərinin çəkilməsində Azərbaycan Dövlət Neft Şirkətinin birgə müəssisələrindən, gəmilərindən, tikinti-quraşdırma meydançalarından və digər zəruri infrastrukturundan istifadə olunub. Bu da “Əsrin müqaviləsi” çərçivəsində ilk dəfə reallaşdırılan bir təşəbbüs kimi diqqət çəkir.

Tikinti-quraşdırma işləri yerli subpodratçıların imkanlarından maksimum istifadə edilməklə yerinə yetirilib. Qurğunun tikintisinə isə 5 min nəfər cəlb olunub. Ümumilikdə, subpodratçı və təchizatçı mütəxəssislərin də daxil olduğu işçi qüvvəsinin 96 faizini yerli Azərbaycan vətəndaşları təşkil edib. Layihə çərçivəsində 20 milyon adam-iş saatı sərf olunub, tikinti-quraşdırma işləri heç bir istehsalat qəzası baş vermədən yüksək səviyyədə həyata keçirilib.

“Qərbi Çıraq” platformasının dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda inşa olunub. “Bos Şelf” yerli Azərbaycan şirkətinin podratçısı olduğu dayaq bloku Xəzər dənizində həmin dövrədək inşa edilmiş ən ağır qurğudur. Blokun çəkisi 17 min 500 ton, hündürlüyü 185 metr təşkil edir. Qurğunun ümumi çəkisi 6700 ton olan 13 (üstəgəl bir ehtiyat) payası, 7 dikborusu, 8 “J” şəkilli və 10 qoruyucu borusu var.

“Çıraq” neft layihəsinin əsas qurğularından sayılan hasilat platformasının üst modulları isə AMEC-TEKFEN-AZFEN alyansının Bibiheybət tikinti-quraşdırma sahəsində inşa olunub. “Qərbi Çıraq” platformasının üst modullarının çəkisi 18 min 500 tondur. Platforma 200 nəfər işçinin çalışması üçün nəzərdə tutulub. Layihəyə 48 quyu gövdəsinə malik bir ədəd hasilat, qazma, yaşayış platforması, 14 düymlük qaz kəməri və 30 düymlük neft kəməri daxildir.

“Qərbi Çıraq” dənizin 170 metr dərinliyində “Çıraq-1” və “Dərinsulu Günəşli” platformaları arasında quraşdırılıb. “Qərbi Çıraq” platformasından hasilat 2014-cü il yanvarın 28-də J05 öncəqazma quyusunun istismara daxil edilməsi ilə başlanıb. Hazırda xam neft öncədən platformada quraşdırılmış texnoloji qurğulardan keçərək yeni yataqdaxili boru kəməri vasitəsilə mövcud 30 düymlük sualtı ixrac xətti ilə Səngəçal terminalına nəql olunur.

Ötən müddətdə “Qərbi Çıraq” platformasından 35 quyu qazılıb. Həmin quyuların 26-sı neft, 1-i qaz, 7-si su injektor, 1-isə şlamların yenidən laylara vurulması quyularıdır. Hasilata başlandığı vaxtdan indiyədək buradan 251 milyon barel (34 milyon ton) neft çıxarılıb. Platformada maksimal illik hasilat isə 2016-cı ildə qeydə alınıb. Həmin il buradan orta gündəlik hasilat 120 min barel olmaqla 6 milyon ton neft çıxarılıb. Bununla belə, “Azəri-Çıraq-Günəşli” yataqlar blokunda ehtiyatların azalması “Qərbi Çıraq” platformasına da təsirsiz ötüşməyib. 2025-ci ilin 9 ayının yekunlarına görə, burada gündəlik orta hasilatın səviyyəsi 24 min barel təşkil edib.

***Y.MİRBAĞIR***
***XQ***

# İxracyönümlü istehsalın yeni ünvanları

## *Sumqayıt Sənaye Parkının növbəti məhsulları*



**Azərbaycanda qeyri-neft sənayesinin gücləndirilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilib. Bu çərçivədə ölkənin mövcud təbii və iqtisadi potensialından daha səmərəli istifadə olunması, innovativ həllərin və qabaqcıl texnologiyaların sənaye istehsalına inteqrasiyası, yeni sənaye sahələrinin yaradılması və rəqabətədavamlı məhsul buraxılışının genişləndirilməsi məqsədilə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.**

Dövlət başçısı yanvarın 27-də Sumqayıt Sənaye Parkında olması da məhz bu strategiyanın davamıdır. Ölkə başçısı burada “Azermirror” MMC-nin güzgü vərəqələrin istehsalı zavodunun və “Bakı Karton və Qutu Fabriki” MMC-nin karton və qutu taralarının istehsalı müəssisəsinin açılışında iştirak edib, eləcə də “Nun” MMC-nin polipropilen və laminatlı kisə istehsalı müəssisəsinin təməlini qoyub.

Qeyd edək ki, ümumi sahəsi 640 hektar olan Sumqayıt Sənaye Parkında hazırda 40 rezident fəaliyyət göstərir, layihələrin ümumi dəyəri 6,7 milyard manat, faktiki investisiya həcmi isə 5,5 milyard manat təşkil edir. Layihələr çərçivəsində 8800-ə yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulur. Faktiki olaraq 6135 nəfər işlə təmin edilib. Rezidentlərin ümumi satış həcmi 15,4 milyard manata çatıb ki, bunun da 5,7 milyard manatı ixracın payına düşür.

Sənaye zonaları dedikdə, sənaye parkları və sənaye məhəllələri nəzərdə tutulur. Bu ərazilər xüsusi hüquqi və inzibati rejim əsasında fəaliyyət göstərir və investorlar üçün əlverişli biznes mühitinin yaradılmasını qarşıya məqsəd olaraq qoyur. Burada əsas prioritetlərdən biri istehsal proseslərinin mərkəzləşdirilməsi, infrastruktur problemlərinin aradan qaldırılması və sahibkarların operativ fəaliyyətinə şəraitin təmin olunmasıdır. Bu proseslərin əlaqələndirilməsi və vahid idarəetməsi İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən həyata keçirilir.

Qanunvericiliyin tələblərinə uyğun olaraq sənaye parklarında sahibkarlıq fəaliyyətinin təşviqi məqsədilə geniş stimullaşdırıcı tədbirlər paketi tətbiq olunur. Bu tədbirlər, ilk növbədə, vergi və gömrük sahəsini əhatə edir. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən azad edilirlər.

Eyni zamanda, istehsal məqsədilə idxal edilən texnika, texnoloji avadanlıqlar və qurğular üzrə ƏDV tutulmur, həmçinin bu malların idxalı zamanı 10 il müddətinə gömrük rüsumları tətbiq edilmir. Qeyd edək ki, gömrük rüsumlarından azadolma müddətinin 10 ilə çatdırılması 30 dekabr 2022-ci ildə “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişiklik əsasında 1 yanvar 2023-cü ildən qüvvəyə minib, əvvəlki illərdə bu müddət 7 il təşkil edirdi.

Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar üçün əlavə stimullaşdırıcı tədbirlər də nəzərdə tutulub. Belə ki, bu ərazilərdə layihə həyata keçirən sahibkarlara 90 faizə qədər dövlət zəmanəti və 10 faiz subsidiya ilə xüsusi güzəştli bank kreditləri təqdim olunur. Eyni zamanda, kommunal ödənişlər üzrə 20 faiz keşbek tətbiq edilir, dividend gəlirləri vergidən azad edilir, sosial sığorta ödənişləri üzrə dövlət subsidiyası verilir, mənfəətin və kapitalın repatriasiyası isə tam şəkildə vergidən azad olunur. Bundan başqa, Nazirlər Kabinetinin müəyyən etdiyi siyahıya uyğun olaraq xammal idxalı zamanı gömrük və ƏDV güzəştləri də tətbiq edilir.

Bütün bu stimullaşdırıcı mexanizmlər sənaye parklarında və işğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin genişlənməsinə, investisiya cəlbediciliyinin artmasına və dayanıqlı iqtisadi inkişafın təmin olunmasına xidmət edir.

Hazırda ölkəmizdə mövcud sənaye zonalarında 104 müəssisə istehsal fəaliyyətinə başlayıb. İndiyədək sənaye zonalarına 7 milyard manatdan çox investisiya yatırılıb və 11 mindən artıq daimi iş yeri yaradılıb. Növbəti mərhələdə mövcud layihələr üzrə 1,74 milyard manata yaxın investisiyanın cəlb edilməsi nəzərdə tutulur. Sənaye zonalarında indiyədək, ümumilikdə 19,4 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 6,1 milyard manatlıq hissəsi ixrac olunub. Hazırda bu zonalarda istehsal edilən məhsullar dünyanın 70 ölkəsinə ixrac edilir.

2025-ci ilin ilin birinci yarısında sənaye zonalarında 1,83 milyard manatlıq satış həyata keçirilib ki, bunun da 583,5 milyonluq hissəsi ixracın payına düşür. Bu göstərici ilə sənaye zonalarının qeyri-neft sənayesi məhsullarının istehsalında xüsusi çəkisi 18,7 faiz, qeyri-neft sənayesi məhsullarının ixracında isə 28,3 faiz olub. Sənaye zonaları üzrə məhsul satışı 2024-cü ilin eyni dövrünə nisbətən 28,7 faiz, ixracı 22,4 faiz artıb. Sənaye zonalarında istehsal edilən polimerlər, karbamid, polad və polietilen borular, tütün məmulatları, divar kağızları, müxtəlif təyinatlı ayaqqabılar, sürtkü yağları, ferroərintilər, müxtəlif növdə kabellər, şüşə lövhələr, tikinti kimyəviləri, ipliklər, elektrod və s. məhsullar Türkiyə, ABŞ, Kanada, Çin, Hindistan, İngiltərə, Almaniya, BƏƏ, Yunanıstan, İsrail, Avstriya, Norveç, Çexiya, İspaniya, Belçika və s. ölkələr daxil olmaqla ümumilikdə dünyanın 70-dən artıq ölkəsinə “Made In Azerbaijan” brendi adı altında ixrac olunub.

Hazırda ölkədə Sumqayıt, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Hacıqabul, Ağdam və Cəbrayıl rayonunda yerləşən “Araz Vadisi İqtisadi Zonası” daxil olmaqla 8 sənaye parkı fəaliyyət göstərir. Bununla yanaşı, Naxçıvan Sənaye Parkının, eləcə də Gəncə şəhəri və Şəmkir rayonu ərazisində yeni Qərb Sənaye Parkının yaradılması istiqamətində işlər aparılır. Eyni zamanda, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri də istehsal və sahibkarlıq fəaliyyətinin inkişafına mühüm töhfə verir.

Xatırladaq ki, yanvarın 15-də Qərb Sənaye Parkının yaradılması haqqında Prezident İlham Əliyev fərman imzalayıb. Qərb Sənaye Parkı Gəncə şəhəri və Şəmkir rayonu ərazisində fəaliyyət göstərəcək.

Sənaye zonaları Azərbaycanın uzunmüddətli inkişaf strategiyasında sistemli rol oynayır. Onlar iqtisadiyyatın şaxələndirilməsi, sənaye potensialının genişləndirilməsi və dayanıqlı istehsal zəncirlərinin formalaşdırılması baxımından vacib mexanizm hesab olunur. Xüsusilə qlobal iqtisadi dəyişikliklər fonunda sənaye zonalarının mövcudluğu ölkə iqtisadiyyatının çevikliyini və davamlılığını artırır.

***Musa BAĞIRLI***
***XQ***

# Az vaxtda böyük fayda modeli

## *“Rəqəmsal dövlət maliyyəsi” şəffaflıq, çeviklik, səmərə deməkdir*

**Azərbaycanda dövlət maliyyəsinin idarə edilməsinin səmərəliliyini artırmaq məqsədilə “Rəqəmsal dövlət maliyyəsi” adlı yeni informasiya sistemi yaradılır. Bu sistem Maliyyə Nazirliyinin fəaliyyət dairəsinə aid bir çox sahələri əhatə edəcək genişmiqyaslı bir layihədir. Məqsəd ölkənin büdcə planlaşdırılması və icrası, gəlir və xərclərin uçotu, dövlət borcu və xəzinədarlıq əməliyyatları kimi mühüm maliyyə proseslərinin vahid rəqəmsal platforma üzərindən inteqrə və effektiv idarə olunmasını təmin etməkdir.**

### Sistemin məqsədi və əhatə sahəsi

“Rəqəmsal dövlət maliyyəsi” informasiya sisteminin yaradılmasında əsas məqsədlərdən biri maliyyə məlumatlarının və proseslərinin bir mərkəzdə cəmlənməsidir. Büdcə planlaşdırılması, vergi və gömrük daxilolmaları, dövlət rüsumları, dövlət şirkətlərinin dividendləri kimi gəlir mənbələri ilə yanaşı, audit və mühasibat uçotu, maliyyə nəzarəti, xəzinədarlıq, dövlət borcu və maliyyə öhdəlikləri kimi sahələrin səmərəli idarə edilməsi məhz bu yeni sistem vasitəsilə həyata keçiriləcək. Yəni dövlət maliyyəsinin idarə edilməsinə dair bütün kritik funksiyalar vahid platformada birləşəcək. Nəticədə, məlumatlar arasındakı uyğunsuzluqların aradan qaldırılması, təkrarlanan əməliyyatların minimuma endirilməsi və resurslardan səmərəli istifadə əldə olunacaq.



Maliyyə Nazirliyi bu sistemin formalaşdırılması, fəaliyyəti və inkişaf etdirilməsi üzrə zəruri tədbirləri görəcək və onun fasiləsiz işləməsini təmin edəcək. Eyni zamanda, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi sistemin texnoloji infrastrukturu ilə bağlı vacib rol oynayacaq – yeni maliyyə sistemi hökumətin rəqəmsal mühitində, xüsusən “Hökumət buludu” (G-cloud) adlanan infrastruktur üzərində yerləşdiriləcək və digər dövlət informasiya resursları reyestrinə inteqrasiya ediləcək. Bu, informasiya sisteminin təhlükəsiz və genişlənə bilən bir infrastruktura malik olacağını göstərir. Beləliklə, sözügedən sistem hökumətin rəqəmsal ekosistemində mühüm bir halqa kimi formalaşır.

### Texnoloji özəllik və üstünlüklər

Yeni sistemin ən önəmli xüsusiyyətlərindən biri onun tam inteqrasiya olunmuş vahid ekosistem şəklində qurulmasıdır. Xatırladaq ki, yanvarın 9-u Maliyyə Nazirliyində keçirilən rəqəmsal idarəetmə və elektron informasiya sistemləri üzrə fəaliyyətin təkmilləşdirilməsi üzrə yaradılmış İşçi Qrupun növbəti iclası zamanı maliyyə naziri Sahil Babayev qeyd etmişdi ki, bu informasiya sistemi ayrı-ayrı platformalar toplusu deyil, bütün alt-sistemləri bir çətir altında birləşdirən vahid bir ekosistem kimi formalaşdırır. Yəni əvvəllər müxtəlif funksiyalar üçün fərqli proqram təminatları mövcud idisə, indi onlar vahid yanaşma ilə birləşdirilir.

Sistemin texnoloji infrastrukturu “Hökumət buludu” konsepsiyasına uyğun qurulur. Bu, o deməkdir ki, “Rəqəmsal dövlət maliyyəsi” informasiya sistemi dövlətin müasir bulud texnologiyaları platformasında yerləşəcək, bu da təhlükəsizlik standartlarına tam cavab verən, yüksək sürətli və fasiləsiz xidmət göstərən bir mühit təmin edir.

Prezident İlham Əliyevin müvafiq fərmanına əsasən, sistemin dövlətin Elektron Hökumət İnformasiya Sistemi (e-hökumət portalı) vasitəsilə müxtəlif qurumların məlumat bazalarına qoşulması və oradan avtomatik məlumat alması nəzərdə tutulur. Bu yenilik sayəsində vergi orqanları, gömrük xidməti, dövlət xəzinədarlığı kimi qurumların məlumatları “Rəqəmsal dövlət maliyyəsi” platformasına birbaşa ötürüləcək.

Sistemin tərkibində bir sıra alt-modullar və rəqəmsal platformalar da yer alacaq ki, onlar maliyyə idarəçiliyinin müxtəlif aspektlərini rəqəmsallaşdırır və avtomatlaşdırır. Onların inteqrasiyası sayəsində, məsələn, e-müqavilə sistemində yaradılan məlumat eyni anda e-mühasibat və data anbarı sisteminə ötürülə biləcək, yaxud büdcə portalında göstərilən rəqəmlər birbaşa vahid data bazasından gələcək. Bütün bunlar texnoloji baxımdan dövlət maliyyəsinin idarə edilməsində tam yeni bir səviyyə yaratmağı vəd edir.

### İstifadə imkanları və gözlənilən faydalar

Məsələn, Maliyyə Nazirliyinin əməkdaşları büdcənin icrası barədə məlumatları vergi və ya gömrük orqanlarının mədaxil göstəricilərini, eləcə də xəzinədarlıq əməliyyatlarını eyni sistem üzərindən görüb analiz edə biləcək. Bu cür mərkəzləşmiş məlumat mühiti sayəsində qərarvermə prosesi sürətlənəcək.

Bundan əlavə, sözügedən sistemin təşkilində süni intellekt əsaslı funksiyaların əlçatan olması da gözlənilir. Müasir və rəqabətqabiliyyətli infrastruktur baxımından Aİ bazalı sistemin fəaliyyəti nəticəsində təkrarlanan funksiyalar aradan qaldırılaraq vaxta qənaət etməyə imkan verəcək. Məsələn, eyni məlumatın müxtəlif qurumlar tərəfindən ayrı-ayrılıqda toplanmasına ehtiyac qalmayacaq – sistem məlumatları bir dəfə toplayıb hamı üçün əlçatan edir. Kağız daşıyıcılardan imtina edilməsi də həm büdcə vəsaitinə (çap, arxiv xərclərinə) qənaət, həm də ekoloji olaraq fayda deməkdir.

Vahid data anbarı və analitika alətləri sayəsində Maliyyə Nazirliyi ölkənin makroiqtisadi göstəricilərini, büdcə tendensiyalarını daha dərindən təhlil edə biləcək. Məlumatların inteqrasiyası keçmiş dövrlərlə müqayisəli təhlil, risklərin proqnozlaşdırılmasına şərait yaradacaq. Bu da dövlət maliyyəsinin planlaşdırılması və idarə edilməsində daha elmi əsaslı qərarlar qəbul etməyə yardım edəcək.

Nəticə etibarilə, “Rəqəmsal dövlət maliyyəsi” informasiya sistemi Azərbaycan dövlətinin maliyyə idarəçiliyində mühüm bir transformasiyanın başlanğıcıdır. Bu sistem tam tətbiq olunduqdan sonra, dövlət orqanları maliyyə əməliyyatlarını daha çevik, şəffaf və əlaqəli şəkildə həyata keçirəcək, vətəndaşlar isə dolayısı ilə dövlət vəsaitlərinin idarə olunmasında artan səmərəliliyin faydasını görəcəklər. Yeni platforma rəqəmsal texnologiyaların imkanlarından maksimum yararlanaraq ölkəmizin maliyyə sistemini müasirləşdirir və növbəti illərdə dövlət maliyyə informasiya sisteminin dünya standartlarına uyğun bir səviyyəyə yüksələcəyini vəd edir.

***Nurlan ABDALOV***
***XQ***

### *Ekspert rəyi*



**Fərid KAZIMOV,**
**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi İctimai Şurasının üzvü**

Azərbaycanda dövlət maliyyəsinin idarə edilməsində yeni bir mərhələnin başlanğıcı olan “Rəqəmsal dövlət maliyyəsi” informasiya sistemi yaradılır. Bu sahədə uzun illərdir hiss olunan ehtiyacın nəticəsi olaraq, sistemin Əsasnaməsi artıq təsdiqlənmişdir. Layihənin indiki dövrdə həyata keçirilməsi onun ən müasir texnoloji tendensiyalara əsaslanaraq qurulmasına şərait yaradacaq. 2026–2027-ci illərdə tam formalaşdırılması nəzərdə tutulan bu sistem süni intellekt texnologiyalarını da özündə ehtiva edəcək. Bu isə hazırkı strukturlardan fərqli olaraq əlavə uyğunlaşdırma xərclərinə yol vermədən daha operativ və səmərəli idarəetmə modeli təqdim edəcək.

Yeni sistem dövlət gəlir və xərclərinin daha dəqiq şəkildə proqnozlaşdırılmasını təmin edəcək. Hazırda qəbul edilən tarif və iqtisadi qərarların təkcə konkret sahələrə deyil, dolayısı ilə digər sektorlar üzərində də təsiri mövcuddur. RDMİS bu qarşılıqlı əlaqələri real vaxtda təhlil etməyə və nəticələrin əvvəlcədən müəyyən edilməsinə imkan yaradacaq. Vahid platforma vasitəsilə dövlət qurumlarının maliyyə axınları şəffaf şəkildə izləniləcək, mümkün risklər və plan dəyişiklikləri isə vaxtında aşkar olunacaq.

Süni intellektin tətbiqi də dövlət maliyyə analitikasında ciddi keyfiyyət dəyişikliyi yaradacaq. Bu texnologiyalar vasitəsilə müxtəlif ssenarilər əsasında, məsələn, 2026–2030-cu illər ərzində gəlir və xərclərin iqtisadi təsirləri qabaqcadan modelləşdirilə biləcək. Bu isə daha dəqiq, əsaslandırılmış və strateji qərarların qəbul olunmasına dəstək verəcək.

“Rəqəmsal dövlət maliyyəsi” sistemi dövlət maliyyəsinin idarəsində vaxtında atılmış strateji addımdır və Azərbaycanın iqtisadi sabitliyini möhkəmləndirmək istiqamətində mühüm rol oynayacaq.

# Yeraltı nəqliyyatın önəmi daim yüksəlir

## *Bəs metrodan istifadə edən sərnişinlərin sayı niyə azalıb?*

**Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ildə metro nəqliyyatının xidmətlərindən istifadə edən sərnişinlərin sayı 1,4 faiz azalaraq 2 milyard 27 milyon nəfər olub. Avtomobil nəqliyyatı ilə 1 milyard 974 milyon sərnişin daşınaraq əvvəlki illə müqayisədə 6,9 faiz artım qeydə alınıb. Avtobuslarla daşınan sərnişinlərin sayı 1 milyard 890 milyon nəfərə çatmaqla əvvəlki ilə nisbətən 7,1 faiz çoxalıb. Taksi xidmətlərindən istifadə edən sərnişinlərin sayı isə 94 milyon nəfərə (2024-cü illə müqayisədə 3,5 faiz çox) yüksəlib.**



Rəqəmlərdən hesabat dövründə sərnişin daşımalarında metroya üstünlük verənlərin payının müəyyən qədər azalması aydın görünür. Nəqliyyat sahəsi üzrə ekspertlərin qənaətinə görə, bu tendensiya son illər alternativ ictimai nəqliyyat növlərinin, xüsusilə avtobus və taksi xidmətlərinin keyfiyyət, eləcə də kəmiyyət baxımından əhəmiyyətli dərəcədə inkişafı ilə sıx bağlıdır. Avtobus parklarının müasirləşdirilməsi, marşrut şəbəkəsinin genişləndirilməsi və interval problemlərinin aradan qaldırılması ictimai nəqliyyatda seçim balansını dəyişib.

Son illər ölkəyə gətirilən yeni avtobusların sayı nəzərəçarpacaq dərəcədə artıb, həm paytaxtdaxili, həm də şəhərlərarası marşrutlarda daha müasir, komfortlu və ekoloji cəhətdən təmiz nəqliyyat vasitələri istifadəyə verilib. Xüsusilə Bakı Beynəlxalq Avtovağzal Kompleksində əsaslı islahatların aparılması, bu qurumda özbaşınalıqların aradan qaldırılması, ciddi nizam-intizamın yaradılması və xidmət keyfiyyətinin yüksəldilməsi şəhərlərarası sərnişin axınının böyük hissəsinin avtobus nəqliyyatına yönəlməsinə səbəb olub. Bu da fərdi minik avtomobillərindən və dəmir yolu nəqliyyatından istifadənin müəyyən qədər azalması ilə nəticələnib.

Eyni zamanda, paytaxtın daxilində və Bakıətrafı yaşayış massivlərində xidmət göstərən marşrutlarda köhnə avtobusların mərhələli şəkildə müasir nəqliyyat vasitələri ilə əvəzlənməsi nəticəsində ictimai nəqliyyata olan etimad güclənib. Artıq 2 ildən çoxdur ki, xətlərə buraxılan yeni avtobusların sayı artırılıb, interval problemləri minimuma endirilib. Xüsusilə ekoloji baxımdan üstünlük təşkil edən elektrobusların, eləcə də sıxılmış təbii qazla işləyən avtobusların istismarı ilə şəhər nəqliyyatında yeni mərhələnin əsası qoyulub. Dövlət xəttilə və özəl şirkətlər tərəfindən gətirilən bu avtobusların marşrutlara buraxılması sərnişinlərin daha çevik və rahat nəqliyyat növünə üstünlük vermələri ilə nəticələnib.

Ekspertlərin ümumi qənaətinə görə, metroda sərnişin daşınmasının azalmasının əsas səbəbləri sırasında alternativ nəqliyyat vasitələrinin sayının artması ilə yanaşı, avtobus zolaqlarının yaradılması, taksi xidmətlərinin daha əlçatan olması da yer alır. Bundan başqa, iş və təhsil rejimində tətbiq edilən müəyyən dəyişikliklər, distant iş modellərinin getdikcə genişlənməsi və sərnişinlərin daha komfortlu, bəzən isə daha bahalı nəqliyyat növlərinə üstünlük verməsi metroya üz tutan sərnişin sayının azalması ilə nəticələnir.

Nəqliyyat sahəsi üzrə ekspert Eldəniz Cəfərovun fikrincə, ötən il metro nəqliyyatının xidmətlərindən istifadə edən sərnişinlərin sayının azalması isə bir sıra səbəblərlə bağlı olub. Məsələn, Bakı metrosu istifadəyə verilərkən indiki həcmdə sərnişin axını nəzərdə tutulmayıb. Metropoliten infrastrukturu müəyyən dövrün şəhərsalma və nəqliyyat tələblərinə uyğun şəkildə inşa edilib və uzun illər maksimum potensialla fəaliyyət göstərib. Zaman keçdikcə paytaxtın əhalisi artıb, yeni yaşayış massivlərinin salınması ilə şəhər ərazisi genişlənib və mövcud metro xətləri bu genişlənməni tam əhatə etməkdə çətinlik çəkib. Nəticədə Bakı metrosunun potensial imkanları sərnişin tələbatını tam ödəmək baxımından məhdudlaşıb.

Hazırda bu problemin aradan qaldırılması məqsədilə metropolitendə yeni layihələr əsasında depoların, tunellərin və stansiyaların tikintisinə start verilib. Xətlərin ayrılması, köməkçi depo və stansiyaların inşası, qatarların sərbəst dövriyyəsinin təmin olunması və intervalın azaldılması ilə bağlı müəyyən layihələrin icrasına başlanılıb. Eyni zamanda, qatar parkının genişləndirilməsi və müasir texnologiyaların tətbiqi də nəzərdə tutulub. Bununla belə, rəsmi statistik məlumatlar göstərir ki, 2025-ci ilin yanvar-sentyabr aylarında Cənubi Qafqaz regionunda daha çox – 1 milyard 63 milyon nəfər sərnişin daşınması məhz Bakı metrosunda qeydə alınıb. Bu faktla metropolitenin hələ də paytaxtın əsas və strateji nəqliyyat infrastrukturlarından biri olması təsdiqlənib.

Onu da deyək ki, indiki vəziyyətdə müəyyən qisim sərnişinlər taksi ilə hərəkət etməyə maraq göstərirlərsə, bu, dəyişən prosesdir. Növbəti illərdə yeni infrastruktur tikiləndən, interval dəyişikliyi olandan sonra insanların prioriteti ictimai nəqliyyata doğru daha da artacaq. Xətlərin şəhər mərkəzinə çatdırılması, paytaxtın digər hissələri ilə əlaqələndirilməsi ümumi dövriyyənin artımına zəmin yaradacaq. Bu gün metroda günlük 640 min sərnişin daşınırsa, 2030-cu ilə qədər bu rəqəmin 800 min – 1 milyon günlük trafikə yüksəlməsi gözlənilir.

Yeri gəlmişkən, bu inkişaf dinamikası barədə dövlətimizin başçısı çıxışlarının birində deyib: "Vaxtilə Bakı şəhərinə gedən yolun necə olduğunu çox yaxşı xatırlayırıq. O zaman cəmi bir yol var idi. Bu sahədə görüləcək işlər hələ çoxdur. Biz artıq Bakıda əlavə 10 metro stansiyasının tikintisini nəzərdə tutan proqram qəbul etmişik. Mənim səlahiyyət müddətim ərzində 7 stansiya tikilib, lakin bu, kifayət deyil. Buna görə də daha 10 metro stansiyası, eləcə də yeni körpülər və tunellər tikiləcək. Bütün bunlar üçün vəsait cəlb etməliyik, çünki bu, bizə xeyli maliyyə qənaəti edəcək və həmin vəsaiti Qarabağ üçün istifadə edə biləcəyik".

Bu məqamda "Bakı Metropoliteni" QSC-dən aldığımız bir məlumatı da diqqətə çatdırmaq istərdik. Bildirilir ki, səhmdar cəmiyyətdə həyata keçirilən layihələrin icrasının daha da sürətlənməsi məqsədilə qurumda statistik məlumatlar əsasında mütəmadi müqayisəli təhlillər aparılması daim diqqətdə saxlanılıb, monitorinqlərin nəticələrinə uyğun olaraq operativ tədbirlərə üstünlük verilib. Məsələn, "Həzi Aslanov" stansiyasının dalanında aparılan təmir işləri sayəsində "Həzi Aslanov – Əhmədli" mənzili üzrə hərəkətin xüsusi rejimdə təşkil edilməsi sərnişindaşımaya müsbət göstərən əsas amillər sırasında yer alıb. Eyni zamanda, 2024-cü ildə Bakıda keçirilmiş COP29 tədbiri ilə əlaqədar aparılan genişmiqyaslı yenidənqurma və abadlıq işləri bəzi dövrlərdə metroya olan tələbatın müvəqqəti artmasına səbəb olub.

Qurumdan, həmçinin bildirilib ki, hazırda müvafiq Dövlət Proqramına uyğun olaraq metropolitenin inkişafı istiqamətində tikinti və yenidənqurma işləri davam etdirilir. 10 yeni stansiyanın inşası, xətlərin ayrılması və bunun nəticəsində əlavə 88 milyon sərnişinin daşınması imkanının yaradılması proqnozlaşdırılır. Metro xətlərinin bir-biri ilə daha sıx kəsişərək şəbəkələşməsi və bunun şəhər mərkəzini daha geniş əhatə etməsi ilə yaxın illərdə metroya olan tələbatın yenidən artacağı gözlənilir.

Bundan əlavə, mövcud texniki imkanların optimallaşdırılması hesabına son 16 ildə ilk dəfə olaraq "yaşıl" və "qırmızı" xətlərin müştərək hərəkət sahəsində qatarlararası interval 2 dəqiqədən, digər sahələrdə isə 4 dəqiqədən aşağı salınıb. Ötən ilin may ayında aparılan texniki təkmilləşdirmələr nəticəsində pik saatlarda interval əvvəlcə 1 dəqiqə 52 saniyəyə, sentyabr ayında isə 1 dəqiqə 45 saniyəyə endirilib. Pik saatlarda xətlərdə 34 cüt qatarın hərəkəti təmin olunmaqla əlavə 8 mindən artıq sərnişinə xidmət imkanı yaradılıb. Mütəmadi monitorinqlər nəticəsində "Həzi Aslanov – Əhmədli" və "Cəfər Cabbarlı – Xətai" mənzillərində də qatarların hərəkət intervalı əhəmiyyətli dərəcədə azaldılıb.

Beləliklə, statistik azalma fonunda həyata keçirilən bu kompleks layihələr göstərir ki, Bakı metrosu yaxın perspektivdə yenidən sərnişin daşımalarında aparıcı rolunu gücləndirmək potensialına malikdir.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Akif NƏSİRLİ,**
**Liberal İqtisadçılar Mərkəzinin sədri**

"Bakı Metropoliteni" QSC kommersiya strukturu deyil, bu, sosial layihələrin icrasını gerçəkləşdirən və şəhərdə əhalinin daşınmasını asanlaşdırmağı qarşıya prioritet vəzifə kimi qoyan bir dövlət qurumudur. Əgər metro bağlanarsa, Bakı şəhərinin yerüstü nəqliyyatı sərnişinlərin daşınmasında çox böyük çətinliklərlə üzləşə bilər.

Yeri gəlmişkən, 10-15 il bundan öncə Parisdən Londona yeraltı tunel çəkildi və sərnişin, eləcə də nəqliyyat vasitələrinin daşınmasına başlandı. "Eurotunel" adlandırılan həmin nəqliyyat infrastrukturunun yaradılması ideyası 1910-cu ildə qeydə alınmışdı. Lakin kommersiya baxımından mənfəətli olmadığı üçün 100 il sonra reallaşdı. Bu layihənin əsas məqsədi də elə pul qazanmaq, gəlir götürmək idi.

Bakı metrosunun məqsədi isə ilk vaxtlardan fərqli olub, sosial xarakter daşıyıb. Lakin sirr deyil ki, nə vaxtsa kommersiya layihəsinə də çevrilə bilər. Bu, metro stansiyalarının sayının 50-dən çox olduğu bir dövrə təsadüf edər. Amma hazırda Bakıda stansiyaların sayı hələ heç 30-a da çatmır. "Bakı Metropoliteni"nin mənfəətlə fəaliyyət göstərməsi üçün stansiyaların sayı iki dəfə çoxalmalıdır. Digər bir məqam isə odur ki, Bakı metrosu 70-80 il əvvəl tikilib və köhnəlmə açıq-aydın nəzərə çarpır. Ona görə də son dövrlərdə metronun müasirləşməsinə xüsusi diqqət yetirilir.

Bakı metrosunun son illər reklam, parkinq gəlirləri də azalıb. Bundan başqa, infrastruktur ətrafında, ona aid ərazilərdə əvvəllər mağazalar, qəzet köşkləri var idi. İndi isə onlar yoxdur. Bu da "Bakı Metropoliteni"nin gəlirlərinin azalmasına səbəb olub. Qiyməti 60 qəpik qaldırılanda isə hədəf metronun xərclərinin tamamilə qapadılması demək deyildi. Bu, sadəcə olaraq, müəyyən xərcləri "Bakı Metropoliteni"nin özünün ödəməsi məqsədi daşıyırdı. Bir sözlə, "Bakı Metropoliteni" sosial layihədir, onun kommersiya hədəfləri mövcud deyil, dövlət müəssisəsidir və xərclərin böyük qismini dövlət ödəyir.

Sonda vurğulayım ki, metronun modernləşdirilməsi yerli inkişaf sənədlərində yer almır, eyni zamanda, dünya şəhərlərinin müasir planlaşdırma təcrübələri ilə paralel strategiyalar kimi çıxış edir. Beləliklə, Bakının bu yöndə inkişaf modeli qısamüddətli kosmetik dəyişikliklərə deyil, həm də uzunmüddətli, dayanıqlı və insanyönümlü şəhər konsepsiyasına əsaslanır. Bu yanaşma paytaxtı rahat yaşayış məkanı olmaqla bərabər, eyni zamanda, iqtisadi, mədəni və sosial baxımdan cəlbedici qlobal şəhərə çevirməyi hədəfləyir.

# Dünya Bankının Xəzərin biomüxtəlifliyinə töhfəsi

**Dünya Bankı "Xəzər dənizi ekosisteminin bərpası: çirklənmənin idarə olunması və bioloji müxtəlifliyin qorunması sahəsində potensialın yaradılması" adlı genişmiqyaslı ekoloji təşəbbüsün maliyyələşdirilməsini nəzərdə tutur. Qurum 2026-cı il martın 25-də bu məqsədlə maliyyələşmə paketini təsdiq edəcəyi ilə bağlı açıqlama yayıb. Əvvəllər isə maliyyələşmənin fevralın 25-də qəbul olunacağı nəzərdə tutulurdu.**

Dünya Bankının məlumatına əsasən, Azərbaycan və Mərkəzi Asiyadan iki ölkənin iştirak etdiyi layihə çirklənməyə qarşı mübarizə və Xəzər dənizində biomüxtəlifliyin mühafizəsində regional əməkdaşlığın möhkəmləndirilməsinə hədəflənib. Qeyd edək ki, Qlobal Ekoloji Fond Dünya Bankına və BMT-nin Ətraf Mühit Proqramına qurumun icraedici agentlikləri qismində 11 milyon 743 min 120 ABŞ dolları məbləğində qrant maliyyələşməsi ayırır. Həmin vəsait isə layihənin Azərbaycan, Qazaxıstan və Türkmənistanda həyata keçirilməsinə yönəldilib.

Yeri gəlmişkən, Dünya Bankı İdarə Heyətinin təsdiqinə 8 milyon 243 min 120 ABŞ dolları məbləğində layihə təqdim ediləcək. Layihənin icraedici agentliyi qismində BMT-nin Layihələrə Xidmət Ofisi çıxış edəcək. Bundan əlavə, BMT-nin Layihələrə Xidmət Ofisi müvafiq ekoloji və sosial standartlar alətlərinin hazırlanması



və üç iştirakçı ölkə ilə qarşılıqlı fəaliyyətin qurulması məqsədilə 183 min 489 dollar məbləğində Qlobal Ekoloji Fondun hazırlıq qrantı alacaq.

Layihənin məqsədi ölkələrə çirklənmənin idarə olunmasında və bioloji müxtəlifliyin qorunması üzrə tədbirlərin gücləndirilməsində dəstək göstərməkdir. Bu, Azərbaycan, Qazaxıstan və Türkmənistanın institusional potensialının artırılması hesabına təmin ediləcək. Təşəbbüs dövlətlərin Tehran Konvensiyası və müvafiq protokollar üzrə öhdəliklərinin icrasına dair mövcud səylərini tamamlayır.

Xatırladaq ki, layihə üç komponentdən ibarətdir. Çirklənmənin və xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə olunmasının gücləndirilməsi məqsədlərinin hər birinə müfaviq olaraq 3 milyon 900 min dollar, layihənin idarə edilməsinə isə 443 min 120 dollar vəsaitin xərclənməsi nəzərdə tutulur.

Xatırladaq ki, Xəzər dənizi biomüxtəlifliyi ilə seçilən qapalı su hövzəsidir. Planetimizin ən böyük qapalı su hövzəsi zəngin endemik növ tərkibinə malik özünəməxsus ekosistemdir. Təkcə onu qeyd etmək kifayətdir ki, nərəkimilərin dünya üzrə mövcud ehtiyatının 80 faizi məhz planetimizin ən böyük qapalı su hövzəsi olan Xəzər dənizində cəmləşib. Ümumilikdə isə, Xəzər hövzəsində 153 balıq növü var ki, bunların da 81-i endemikdir. Xəzərin Azərbaycan sektorunda isə 90-a qədər balıq növü mövcuddur.

Bununla belə, iqlim dəyişikliyi, dəniz səviyyəsinin kəskin enməsi və antropogen amillər səbəbindən bu zəngin biomüxtəliflik ciddi risk altındadır. Ekoloqların fikrincə, son 15-20 ildə Xəzər dənizində nərəkimilərin ehtiyatı ötən əsrin 80-ci illəri ilə müqayisədə 30 dəfə azalaraq vətəgə əhəmiyyətini itirmək həddinə çatıb. Nərələrin ehtiyatının kəskin aşağı düşməsinin əsas səbəblərindən biri də Xəzər dənizinin çirkləndirilməsi ilə bağlıdır. Bu səbəbdən də hazırda Xəzər ekosisteminin qorunması üçün beynəlxalq və yerli səviyyədə balıqartırma, eləcə də çirklənmənin qarşısının alınması istiqamətində ciddi tədbirlər görülür.

***M.YAQUBZADƏ***
***XQ***

### *Ekspert rəyi*



**Rövşən ABBASOV,**
**ekoloq**

Son illər Xəzər dənizinin çirkləndirilməsi ciddi narahatlıq doğurur. Belə ki, kənd təsərrüfatında istifadə edilən gübrə və pestisidlər çaylar vasitəsilə dənizə axıdılır. Bu, əsasən, azot və fosfat gübrələridir ki, dənizdə ekosistem zəncirinə çox mənfi təsir göstərir. Dənizin müxtəlif tullantılarla çirkləndirilməsi isə suda həll olmuş oksigeni azaltmaqla canlıların nəfəs almasını çətinləşdirir. Xəzər ekosisteminin uğradığı mənfi təsirlərlə əlaqədar son illər dənizdə kilkə ovu 10 dəfə azalaraq 1999-cu ildəki 271 min tondan 27 min tona düşüb. Balıq ehtiyatlarının azalması bütün Xəzər dənizi üçün səciyyəvi olan ümumi tendensiyadır.

Göründüyü kimi, dənizin çirklənməsinin onun bioloji ehtiyatlarına mənfi təsiri getdikcə artır. Bu, ilk növbədə, nərə balıqları populyasiyalarına ciddi təsir edir. Artıq Xəzər dənizində nərəkimilərin ehtiyatı azalaraq vətəgə əhəmiyyətini itirmək həddinə çatıb. Təkcə onu qeyd etmək kifayətdir ki, 1980-ci illərlə müqayisədə 2009-2010-cu illərdə nərə balıqlarının ov həcmi 30 dəfə azalıb. Hazırda sahilyanı ölkələrin razılığı əsasında Xəzərdə nərə balıqlarının ovu qadağan edilib.

Çirklənmə dəniz suitilərinə də mənfi təsir edir. Yeri gəlmişkən, Xəzər suitisi yeganə dəniz məməlisi və endemikidir. XX əsrin əvvəllərində Xəzər suitilərinin sayı, təqribən, 1 milyon olduğu halda, hazırda onun populyasiyası 100 min fərd təşkil edir. Eyni zamanda, gətirilən növlər də Xəzərin bioloji ehtiyatlarına mənfi təsir edir. Belə ki, gəlmə növlər dənizin heyvanat aləminin yem bazasına çox mənfi təsir edir. Məsələn, Mnemiopsis leidyi adlı bir növün Xəzər dənizinə gəlməsi nəticəsində kilkə balıqlarının yem ehtiyatları azalıb ki, bu da onların sayına mənfi təsir etməkdədir.

Dünya Bankının "Xəzər dənizi ekosisteminin bərpası: çirklənmənin idarə olunması və bioloji müxtəlifliyin qorunması sahəsində potensialın yaradılması" adlı genişmiqyaslı ekoloji təşəbbüsün maliyyələşdirilməsi ilə bağlı layihəsi yalnız ətraf mühitin qorunması baxımından deyil, həm də regional əməkdaşlığın gücləndirilməsi mənasında mühüm əhəmiyyət kəsb edir. Xəzər dənizinin unikal ekosisteminin qorunması və çirklənmənin effektiv idarə olunması üçün Dünya Bankı ilə birgə işin davam etdirilməsi, Azərbaycan üçündə strateji üstünlüklər yaradır. Layihəyə ayrılacaq qrantların həm institutlararası potensialın artırılmasına, həm də xüsusi mühafizə olunan təbiət ərazilərinin qorunmasına yönəlməsi bu təşəbbüsü yalnız ekoloji deyil, eyni zamanda, sosial və iqtisadi baxımdan da dəyərli edir. Belə təşəbbüslər regional ölkələrin birgə çevik reaksiyası və davamlı inkişaf məqsədlərinə çatmaq üçün vacib addımdır.

# Qarabağ və Şərqi Zəngəzur sahibkarlıq meydanıdır

**Bu ilin yanvarın 1-dək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 5 min 591 mikro, kiçik, orta və iri sahibkarlıq subyekti, eləcə də 99 min 913 fərdi sahibkar fəaliyyət göstərib. Bu da 2024-cü ildəki göstərici ilə müqayisədə müvafiq olaraq 351 (6,7 faiz) və 5 min 114 subyekt (5,4 faiz) artım deməkdir.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, hesabat ilində mikro sahibkarlıq subyektlərinin sayı Qarabağ iqtisadi rayonu üzrə 4 min 174, Şərqi Zəngəzur iqtisadi rayonu üzrə 968 nəfər olub. Bu da ölkə üzrə ümumi sahibkarlıq subyektlərinin müvafiq olaraq 2,2 faizi və 0,5 faizi deməkdir.

Kiçik sahibkarlıq subyektlərinin sayı Qarabağ iqtisadi rayonunda 248, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 56 təşkil edib. Orta sahibkarlıq subyektlərinin sayı Qarabağ iqtisadi rayonunda 107, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 20 olub. Eyni zamanda, hesabat dövründə Qarabağ iqtisadi rayonunda 13, Şərqi Zəngəzur iqtisadi rayonunda 5 iri sahibkarlıq subyekti qeydə alınıb.

1 yanvar 2026-cı il tarixinə Qarabağ iqtisadi rayonunda 92 min 276, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 7 min 637 fərdi sahibkar fəaliyyət göstərib.

***XQ***



# Türk dünyasının dostluq, sülh və əməkdaşlıq mesajları




**Bu gün planetimiz tufana düşmüş gəmiyə bənzəyir. Bu, təlatümlü vaxtda qardaş türk xalqlarının bir-birilərinə dəstək, həyan olmaları çox vacibdir. Həyat özü bunu bizə israrla diktə edir: Biz birlikdə güclüyük!**

Əsrlər boyu qara, şər qüvvələr bizim birliyimizə qənim kəsiliblər. Onlar hələ də öz məkr və hikkələrindən əl çəkmir, türk xalqlarına qarşı hər cür fitnə və fəsad törətməyə çalışırlar. Lakin bu düşmənçilik onlara fayda gətirməz. Axı, bu dəfə qarşılarında güclü, qüdrətli Böyük Turan var!

Dünya bu gün yalnız güc tanıyırsa, bizim də gücümüz yetərlidir! Qoy dünya eşitsin: Turanın heç bir xalqın, dövlətin varında, sərvətində, torpağında gözü yoxdur. Eyni zamanda, türk xalqları öz milli heysiyyatını, ləyaqət və şərəflərini qorumaq gücündədir!

Bu gün zaman türkün xeyrinə işləyir. Türk dövlətləri bir qardaşlıq bayrağı altında birləşiblər, yaxın və uzaq ölkələrə, onların xalqlarına sülh və dostluq əli uzadırlar. Türkdən heç kimə zərər gəlməyib və gəlməz!

Öz keçmişinə hörmət edən, elm və tərəqqi yolunda zəhmətə qatlaşan, ağıllı idarəçilik yolu seçən, haqqa və ədalətə tapınan xalqların işıqlı gələcəyi olur. Türklər qeyrət və hünərlə ulu babalarının milli-mənəvi, əxlaqi dəyərlərini qoruyub gələcəyə daşıyırlar. Biz ədaləti təkcə özümüz üçün deyil, bütün dünya üçün arzulayırıq! Axı kainatın ruhu ədalətdir!

Türklər tarix boyu dosta dost, düşmənə düşmən olan toplumlar olublar. Onlar onlarla güclü dövlət və böyük imperiyalar qurublar. Bundan daha önəmlisi isə odur ki, bəşəri, humanist sivilizasiyalar yaradıblar.

Akademik Lev Qumilyov türkləri gənc və passionar xalq adlandırmışdı! Böyük dövlət adamı Turqut Ozal isə XXI əsri türklərin Zəfər əsri kimi tarixdə qalacağına əmin idi. 2020-ci ilin 8 noyabrında Şuşanın fəthi bu qaçılmaz tarixi prosesi sürətləndirdi!

Xoşbəxtlikdən bu gün nəhəng coğrafi məkanda Böyük Turanın inamlı addım səsləri eşidilir! Üfüqdən yeni türk sivilizasiyası boylanır. Böyük Atatürkün qürurla dediyi kimi, “Nə mutluyam, türkəm deyənə!”.

# Qardaşlığın Oljas Süleymenov zirvəsi

## *Şair-tərcüməçi Akif Əhmədgil ilə “Az i YA” müəllifinin poeziyasının cazibəsi barədə söhbət*

***– Akif müəllim, gəlin söhbətə “Az i Ya”dan başlayaq. Axı, Oljas Süleymenovun adı gələndə ilk yada düşən bu məşhur kitab olur. Siz bu əsərdəki nəzm parçalarını dilimizə tərcümə edibsiniz. Necə oldu ki, bunu məhz sizə həvalə etdilər?***

– Mən görkəmli türkoloq, tənqidçi Aydın Məmmədovun təklifi ilə bunu öz öhdəmə götürdüm. Amma bu suala müfəssəl cavab verməzdən əvvəl tələbəlik illərimə dönməli olacağam. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində I kursda oxuyurdum. Abuzər İsmayılov adlı bir qocaman müəllimimiz vardı, bizə “Qədim rus ədəbiyyatı” fənnindən dərs deyirdi. Bir dəfə onun dərsində söz Oljas Süleymenovun o illərdə yenicə işıq üzü görən və dərhal millətçilik damğası ilə yasaq edilən “Az i Ya” kitabından düşdü. Heç yadımdan çıxmır, Abuzər müəllim auditoriyada bir qədər ehtiyatla, bir o qədər də qürur hissilə kitabı tapıb mütaliə etməyimizi tövsiyə etdi.



Qısa müddət sonra “Az i Ya” kitabı BDU-nun yataqxanasındakı tələbələr arasında əl-əl gəzirdi. Əlbəttə, bu çox dəyərli əsəri mən də diqqətlə oxudum. Çüx qürurlandım. Amma o vaxt heç cür ağlıma gəlməzdi ki, üstündən 10-15 il keçəcək, respublikamızda Tərcümə Mərkəzi yaranacaq, ora Aydın Məmmədov kimi milli ruhlu, işıqlı insan, istedadlı tənqidçi rəhbərlik edəcək və o “Az i Ya”dakı şeirləri dilimizə çevirməyi mənə həvalə edəcək. Aydın müəllim tərcüməmdən razı qalmışdı, mənə yüksək qonorar da yazmışdı. Xeyli pul idi, həmin pula nişan üzüyü almışdım.

Aydınlıq gətirmək üçün xatırladım ki, mən yalnız oradakı şeirləri tərcümə etmişəm, kitabı, bütövlükdə, Azərbaycan dilinə ustad tərcüməçi Natiq Səfərov çevirib.

***–Sizin böyük şairlə tanışlığınız nə vaxt və necə başladı?***

– 1987-ci ilin yayında Alma-Ata şəhərində Ümumittifaq Poeziya Festivalı keçirilirdi. Ora keçmiş ittifaqın, demək olar ki, bütün respublikalarından çox sayda gənc istedadlı şair və tərcüməçini dəvət etmişdilər. Respublikamızı festivalda mən təmsil edirdim. O vaxt görkəmli şair Məmməd İsmayılın baş redaktoru olduğu “Gənclik” jurnalında çalışırdım.

Qeyd etmək lazımdır ki, festivalın məhz Qazaxıstan paytaxtında keçirilməsi heç də təsadüfi deyildi. Yəqin ki, yadınızdadır, 1986-cı ilin dekabrında keçmiş SSRİ-nin başçısı Mixail Qorbaçov gözlənilmədən milliyyətcə qeyri-qazax olan bir nəfər partiya funksionerini (Kolbin nəzərdə tutulur-red.) Qazaxıstanda xalqın sevimlisi, akademik Dinməhəmməd Kunayevin yerinə birinci katib təyin etmişdi.

Qazax xalqı, xüsusilə də vətənpərvər gənclər buna kəskin etiraz etmişdilər. Paytaxtın mərkəzi meydanına izdihamlı mitiqnlər başlanmış, Kremlin əmrilə etirazçılara qarşı odlu silahlardan atəş açılmışdı. Xeyli ölən və yaralananlar olmuşdu. Hətta qazaxıstanlı bir gənc şairə kütlə qarşısında milli ruhda şeir oxuduğuna görə ölüm hökmü kəsilmişdi.

Alma-Atada poeziya festivalında iştirak edən gənc şairlər bu ədalətsiz hökmün ləğv olunması üçün etiraz aksiyası keçirdilər. Moskvanın və Alma–Atanın rəsmi şəxslərinə festival iştirakçıları adından müraciət ünvanlandı. Sənədə ilk imza atanlardan biri də mən idim. Festival iştirakçılarının bu addımı o vaxt ittifaq mətbuatında geniş əks-səda doğurmuşdu. Yadımdadır, Qazaxıstan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideoloji məsələlər üzrə katibi Nursultan Nazarbayev (sonradan uzun illər Qazaxıstan dövlətinə başçılıq etmişdir-müəllif) kabinetində bizi qəbul edib xeyli söhbət etdi.

O dövrdə Oljas Süleymenov Qazaxıstan Yazıçılar İttifaqının birinci katibi vəzifəsinə yenicə seçilmişdi. O, festival iştirakçılarını çox səmimi qarşıladı, bizimlə bir neçə dəfə görüşdü. Hətta yaxşı bir qonaqlıq verdi. Şairlə ünsiyyət zamanı onun həyatda çox sadə, mehriban və xeyirxah bir insan olduğunun şahidi oldum. O, mənim Bakıdan gəldiyimi biləndə buna çox sevindi. Ayrılanda Azərbaycandakı dostlara, xüsusilə dostu Aydın Məmmədova onun səmimi salamlarını çatdırmağımı xahiş etdi. Qeyd etməliyəm ki, Oljas Süleymenovun Azərbaycanda dostları əvvəllər də olub, indi də çoxdur, amma qazaxıstanlı şairin rəhmətlik Aydın Məmmədova xüsusi rəğbəti vardı.

Oljas Süleymenovla ünsiyyət məndə onun poeziyasına marağımı daha da artırmışdı. O vaxtdan şairin çox sayda şeirlərini dilimizə tərcümə etməyə başladım. Oljas Süleymenevun “Kuban nəğməsi” adlı məşhur şeirlər kitabı var. O əsəri şair dostum Elxan Zal ilə dilimizə çevirmişik. Bu nəşrə görə hər ikimiz nüfuzlu “Qızıl Kəlmə” mükafatına layiq görülmüşük.

**– Siz bu gün şairin ən yaxşı tərcüməçilərindən biri sayılırsınız. Sizcə, Oljas Süleymenov poeziyasını milyonlarla oxucu üçün bu qədər cazibəli edən nədir?**

– Bu, yaxşı sualdır. Dərhal fikrimi bildirmək istəyirəm. Oljas Süleymenov şeiriyyatının gücü qazax xalqının azad, müstəqil, xoşbəxt yaşamaq arzusundan qaynaqlanır.

Oljas Süleymenov şeirləri tərcüməyə rahat gələn şairlərdən deyil. Ona görə ki, bu şeirlər ağır məna yükü daşıyır, onların dərin sətiraltı mənaları var, məzmunu çox dolğundur. Bir daha vurğulamaq istəyirəm ki, Oljasın poeziyasında, ilk növbədə, qazax xalqının azadlıq ruhu təcəssüm olunur.

Yeri gəlmişkən, Oljasın şeirlərinin tərcüməsi ilə bağlı dəfələrlə qardaş ölkəyə səfər etməli olmuşam və hər dəfə də müəlliflə görüşərək onunla bir çox məqamları dəqiqləşdirmişəm. Şairin təklifilə Qazaxıstanın ayrı-ayrı bölgələrinə səfərlər etmişəm, hər dəfə də sadə insanlarla görüşüb onların arzu və düşüncələri ilə yaxından tanış olmuşam. Qazaxıstana səfərlərim zamanı yurtalarda kımıs, şubat içə-içə, qazax dilində əzizləmə mənasında işlənən “ayçalayn” (yəni “dərdin alım, başına dönüm” ifadələrini eşidə-eşidə, qazax şeirinin, Oljas misrasının istisinə tapınmışam.

Böyük şair dəfələrlə məndən onun şeirlərinin Azərbaycan dilində səsləndirməyimi xahiş edib. Bu zaman o, demək olar ki, hər dəfə belə bir fikri vurğulayırdı ki,



Azərbaycan şeirinin dili böyük İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin, Mirzə Ələkbər Sabirin, Səməd Vurğunun, Bəxtiyar Vahabzadənin yüksək poetik təfəkkürünün qüdrəti ilə cilalanıb. Ona görə belə səlis və musiqilidir. Oljas Süleymenov, həqiqətən, Azərbaycan poeziyasının vurğunudur.

Bu yerdə belə bir məqamı qeyd etməmək ədalətsizlik olardı. Oljas Süleymenov çağdaş qazax şeirinin və poetik dilinin yaradıcılarındandır. Bu sahədə onun xidmətləri danılmazdır. Bir qüdrətli yaradıcı insan kimi onun taleyinə qazax şeirini dünya poeziyasının zirvələrinə daşımaq missiyası düşüb. Oljas bu missiyasını böyük şərəflə yerinə yetirir!

***– Oljas Süleymenov xalqımızın ən yaxın, etibarlı dostlarındandır. Onun 20 Yanvar faciəsinin ilk saatlarında təcili surətdə Bakıya gəlişi, istiqlal savaşına qalxan xalqımıza birmənalı dəstək verməsi heç vaxt yaddaşlardan silinməyəcək...***

– Bakıda zamanın komendant saatı ilə ölçüldüyü həmin dar macalda Oljas Azərbaycana gəlişinin nə demək olduğunu düşünəndə bu günün özündə belə qəlbimiz qürur hissilə çırpınır! Yeri gəlmişkən, o zaman yenicə çapdan çıxan, əl-əl gəzən “Qara Yanvar” kitabının nəşrində də Oljas Süleymenovun da zəhməti vardı. Təəssüf ki, bu faktı hələ də çoxları bilmir.

Oljas Süleymenovun bu addımı türk qardaşlığı, qeyrət və fədakarlığının həqiqi nümunəsi idi. Az qala, bütün dünyadan təcrid olunduğumuz, informasiya blokadasına məruz qaldığımız o ağır günlərdə, böyük şair azadlıqsevər xalqımızla həmrəy olduğunu bütün dünyaya nümayiş etdirdi.

Xatirimdədir, Oljas Süleymenovun partlayışdan bir müddət sonra bərpa olunmuş Azərbaycan televiziyası ilə çıxışını ölkəmizin ən ucqar kəndlərində belə diqqətlə izləmişdilər. Mən o günlərdə Tovuza, kəndimizə baş çəkməyə getmişdim. Rəhmətlik anam fəxrlə Oljasın televiziyadakı çıxışını dinlədiyini söylədi. Çox həyəcanlı idi, tez-tez üzünü yana çevirib göz yaşlarını məndən gizlətməyə çalışırdı. Bakıya qayıdarkən öz əli ilə bişirdiyi isti təndir çörəyini böyük şairə çatdırmağımı xahiş etdi.

Mən Bakıya qayıdıb 20 Yanvar günlərində telefon zəngindən tutmuş atdığı hər bir addımı qarış-qarış izlənilən bir vaxtda “İnturist” mehmanxanasına Oljas Süleymenova zəng etdim. Oljas Aydın Məmmədovun da onun otağında olduğunu söylədi. Razılaşdıq ki, ertəsi gün səhər tezdən mehmanxananın qarşısında görüşüb bir yerdə səhər yeməyinə gedəcək.

Lakin səhərisi gün məni mehmanxananın qarşısında Aydın Məmmədovun sürücüsü qarşıladı və Oljas Süleymenovun təcili olaraq Mərkəzi Komitəyə çağırıldığını bildirdi. Beləcə, Oljas Süleymenovla o gün görüşə bilmədim.

***–Ananızın bişirdiyi həmin təndir çörəyini Oljas Süleymenova çatdıra bildinizmi?***

– Təəssüf edirəm ki, çatdıra bilmədim. Yaxşı ki, anam bunu bilmədi. O, çox istəyirdi ki, Oljas Süleymenov kəndimizin çörəyindən dadsın!

# Danatar Ovezovun ürəkoxşayan mahnıları



**Türk xalqlarını bir-birilə yaxınlaşdıran, bir-birinə doğma edən mühüm vasitələrdən biri də musiqidir. Yaxşı haldır ki, son illər xalqlarımız bir-birilərinin həm milli, həm də klassik musiqiləri ilə yaxından tanış olmaq imkanı qazanıblar.**

Bu günlərdə Maya Kuliyeva adına Türkmən Milli Konservatoriyasının kitabxanasında görkəmli türkmən bəstəkarı Danatar Ovezovun anadan olmasının 115-ci ildönümünə həsr olunmuş toplantı keçirilib.

Türkmənistan Mədəniyyət Nazirliyinin saytı xəbər verib ki, görüş çərçivəsində bəstəkarın yaradıcılığına və çap olunmuş musiqisinə dair kitabların sərgisi təşkil olunub. Görüşdə alim və tədqiqatçılar Danatar Övəzoun mənalı yaradıcılıq yolundan, sənət aləmindəki böyük uğurlarından danışıblar.

Qeyd edək ki, Danatar Ovezov 1911-ci il yanvarın 1-də Marı vilayətinin Vəkilbazar rayonunun Mülk-Yusup kəndində anadan olub. Onun musiqiləri janr müxtəlifliyi, aydınlığı, musiqi dilinin orijinallığı ilə seçilir. Bəstəkarın yaradıcılığında vokal musiqisi mühüm yer tutur. D.Ovezov 4 operanın, 150-dən çox mahnı və romansın müəllifidir.

Onların arasında Q. Seyitliyevin şeirləri əsasında hazırlanmış “Təzəgül”, “Aşqabad”, “Xallı gözəl”, “Qızlar” kompozisiyaları, Məhtimqulu Fəraqinin “Həlimə”, “Bu dərdi”; G.Burunovun “Yox, yox”, “Aynabənd”, B.Caparovun “Keyfim kök”, “O qız mənə baxmadı”, “Dostluq” və s. tanınmış şairlərin şeirlərinə bəstələnmiş lirik mahnılar dillər zəbəridir.

Danatar Ovezov 1961-ci ildə bəstəkar “Türkmənistanın xalq artisti” adına layiq görülüb. Ölümündən sonra Məhtimqulu Fəraqi adına Dövlət Mükafatı laureatı olub.

# Tyan-Şan dağları gəl-gəl deyir...



**“Nyu York tayms” qəzeti 2026-cı il üçün Yer kürəsinin ən yaxşı 52 səyahət istiqamətləri üzrə siyahını dərc edib. Bu siyahıya Qırğızıstanın Tyan-Şan dağları da daxil edilib.**

Qeyd edək ki, Tyan-Şan dağları həmin siyahıda sayca 31-ci yerdədir. Siyahıya ölkənin şərqindən qərbinə qədər uzanan, yüksək dağ keçidlərini, çay və gölləri, bir-birindən mənzərəli kəndləri və mövsümi yurd düşərgələrini birləşdirən Qırğızıstan Köçəri Qurşağı daxildir.

Tyan-Şan dağları macəra axtaranlar üçün geniş fürsətlər açır. Belə ki, onlar marşrut boyu sıldırım qayalar ilə müşayiət olunan yollardan keçəcək, firuzəyi Kel-Suu gölündən zövq alacaq, XV əsrə aid Taş-Rabat karvansarayı ilə tanış olacaqlar.

Mütəxəssislər qeyd edirlər ki, Tyan-Şanın beynəlxalq turizm reytinqinə daxil edilməsi Qırğızıstana marağın artmasına, yerli turizmin inkişafına, xarici səyahətçilərin cəlb olunmasına kömək edəcək.

Məlumat üçün bildirək ki, Tyan-Şan (Tanrı Dağları) Orta Asiyada yerləşən böyük dağ sistemidir. Qırğızıstan, Qazaxıstan, Özbəkistan və Çinin Sincan-Uyğur Muxtar rayonuna qədər uzanır. Dünya şöhrətli İssık gölü Tyan-Şanın ətəklərində yerləşir.

*Səhifəni hazırladı:*
*Məsaim ABDULLAYEV*
*XQ*

Elmlər Akademiyası – zəka xəzinəsi





# Heydər Əliyevin elm və təhsil strategiyası

## *Milli intellektual potensialın gücləndirilməsi*



*Arif HƏŞİMOV,*
*akademik*

*(əvvəli ötən sayımızda)*

**Ümummilli lider Heydər Əliyevin ölkənin görkəmli elm xadimlərinin yubileylərinin təntənə ilə qeyd edilməsi üçün sərəncamlar verməsi, onlara təbrik məktubları ünvanlaması da Ulu öndərin elm adamlarına verdiyi qiymətin parlaq göstəriciləri kimi milli elm tariximizin şərəf səhifələrini təşkil edir.**

### 28 sentyabr 1993-cü il: akademik Azad Mirzəcanzadəyə təbrik

Həmin gün Azərbaycanın dünyaşöhrətli elm xadimini yubileyi münasibtilə təbrik edən Azərbaycan lideri bildirmişdi: "Hörmətli Azad Xəlil oğlu! Sizi 65 illiyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Sizi Azərbaycanın elm, təhsil və iqtisadiyyatının, xüsusən də neft sənayesinin inkişafında elmi istiqamətlərin əvəzsiz banilərindən biri kimi tanıyır və bu sahədə Azərbaycanın dünya şöhrəti qazanmasında misilsiz xidmətlərinizi yüksək qiymətləndirirəm. Ümidvaram ki, Azərbaycan elminin inkişafında xalqın rifahı naminə atdığınız addımlar bundan sonra da səmərəli və uğurlu olacaq və siz vətənimizin tərəqqisi yolunda istedadınızı, zəkanızı, bacarığınızı əsirgəməyəcəksiniz.

Ömrünüzün kamillik çağında sizə xoş diləklərimi bildirirəm".

### 20 dekabr 1993-cü il: Elmlər Akademiyasının vitse-prezidenti, akademik Ziya Bünyadova təbrik

Prezident Heydər Əliyev görkəmli şərqşünas, akademik Ziya Bünyadovu da yubileyi münasibətilə səmimi təbrik etmişdi: "Hörmətli Ziya müəllim! Anadan olmağınızın yetmiş illiyi münasibətilə Sizi ürəkdən təbrik edirəm, müdriklik yaşınızda möhkəm cansağlığı və yeni-yeni uğurlar arzulayıram.

Siz uzun illər boyu tarix elmimizin inkişafı yolunla gərgin axtarışlar aparmağı ömrünüzün mənasına çevirmisiniz. Orta əsrlər Azərbaycanının açılmamış səhifələrinin araşdırılmasına, öyrənilməsinə həsr edilən onlarca kitabınızla, yüzlərcə məqalənizlə şərqşünaslıq və tarix elmimizə beynəlxalq nüfuz qazandırmağa çalışmısınız. Alim səbriniz və işgüzarlığınız sayəsində Şərq tarixinin əvəzsiz örnəkləri dilimizə tərcümə edilmişdir. Müqəddəs "Qurani-Kərim"i son yetmiş ildə yenidən tərcümə edənlərdən və nəşrə hazırlayanlardan biri kimi böyük savab iş görmüsünüz.

Azərbaycan Respublikası Elmlər Akademiyasının vitse-prezidenti, akademik kimi siz indi də elmi fəaliyyətinizi davam etdirərək xalqımızın tarixi sınağa çəkildiyi bir zamanda əlinizdən gələni əsirgəmirsiniz.

Ümidvaram ki, müstəqil Azərbaycanımız naminə bundan sonra da yorulmadan çalışacaq, bizi elm cəbhəsindəki uğurlarınızla sevindirəcəksiniz".

### 23 fevral 1995-ci il: görkəmli ictimai-siyasi xadim, akademik İmam Mustafayevə təbrik

Müstəqil Azərbaycanın dövlət başçısı sovet dövründə respublikanın siyasi rəhbəri olmuş görkəmli seleksiyaçı alimə təbrikində daha bir elm xadiminin xidmətlərini yüksək dəyərləndirmişdi: "Hörmətli İmam Mustafayev! Sizi 85 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan xalqı sizi həyatını kənd təsərrüfatının müxtəlif sahələrinin inkişaf etdirilməsinə sərf etmiş görkəmli alim, tanınmış ictimai xadim, fəaliyyətini Vətəninə, xalqına xidmətə həsr etmiş böyük vətəndaş kimi tanıyır.

Siz 65 illik yorulmaz, məhsuldar fəaliyyətiniz sayəsində geniş xalq kütlələrinin məhəbbət və ehtiramını qazanmışsınız. İnanıram ki, siz bundan sonra da elmi və ictimai fəaliyyətinizi davam etdirəcək, yeni-yeni nailiyyətlər əldə edəcəksiniz. Sizə bu şərəfli yolda uzun ömür, möhkəm cansağlığı, xoşbəxtlik arzulayıram".

### 21 aprel 1996-cı il: akademik Mark Dalinə təbrik

Ölkə rəhbəri neft kimyası sahəsində görkəmli alimin də yubileyini yaddan



çıxarmamışdı: "Hörmətli Mark Aleksandroviç!

Sizi – Azərbaycanın qocaman alimini, Əməkdar elm xadimini anadan olmağınızın 90 illiyi münasibətilə təbrik edirəm.

Siz bütün ömrünüzü Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən neft-kimya məhsullarının sənaye istehsalının elmi əsaslarının işlənməsinə sərf etmişsiniz. Çoxsaylı elmi əsərləriniz və ixtiralarınız Azərbaycan və dünya elminin inkişafına xidmət etmişdir. Fitri istedad, yüksək təşkilatçılıq bacarığınız sayəsində siz böyük nüfuzu olan alim, istehsalat rəhbəri və ictimai xadim kimi tanınmışsınız. Azərbaycan elmi kadrlarının yetişdirilməsində də sizin zəhmətiniz əvəzsizdir. Bu gün Azərbaycanın neft-kimya sahəsində çalışan alim və mütəxəssislərin böyük qismi sizin yetirmələrinizdir.

Əziz Mark Aleksandroviç, bir daha sizi ürəkdən salamlayır, möhkəm cansağlığı, xoşbəxtlik arzulayır, bütün niyyətlərinizin gerçəkləşməsini diləyirəm".

Bu təbrik məktubları ümummilli lider Heydər Əliyevin elmə, alimə və intellektual əməyə verdiyi böyük dəyərin bariz və parlaq nümunələridir. Həmin məktublarda dövlət başçısının alim şəxsiyyətinə yalnız rəsmi münasibəti deyil, eyni zamanda, dərin hörmətə, səmimi ehtirama və yüksək mənəvi qiymətləndirməyə əsaslanan yanaşması aydın şəkildə görünür. Heydər Əliyev alimləri cəmiyyətin mənəvi-intellektual dayağı, milli inkişafın aparıcı qüvvəsi kimi dəyərləndirir və onların əməyini dövlətçilik baxımından strateji əhəmiyyət daşıyan fəaliyyət kimi təqdim edir.

Akademik Azad Mirzəcanzadəyə ünvanlanmış məktub Heydər Əliyevin nəzəri elmi-tədqiqatların praktikada tətbiqinə verdiyi dəyərlərin əhəmiyyətini göstərməklə müstəqil respublikamızın iqtisadiyyatının dayanıqlı inkişafının elmi inkişafla üzvi şəkildə bağlı olduğunun nümunəsidir.

Akademik Ziya Bünyadova ünvanlanmış məktubda Heydər Əliyev alimin çoxillik elmi fəaliyyətini, tarix və şərqşünaslıq sahəsində apardığı fundamental tədqiqatları yüksək qiymətləndirir. Orta əsrlər Azərbaycan tarixinin araşdırılması, nadir Şərq mənbələrinin dilimizə tərcüməsi, xüsusilə də "Qurani-Kərim"in tərcümə və nəşrindəki xidmətlərinin vurğulanması Ulu öndərin elmi əməyin həm milli-mənəvi, həm də beynəlxalq əhəmiyyətini dərindən dərk etdiyini göstərir. Məktubda alimin yalnız keçmiş xidmətləri deyil, həm də müstəqillik dövründə üzərinə düşən məsuliyyətə sədaqətlə yanaşması xüsusi qeyd olunur ki, bu da Heydər Əliyevin alimləri xalqın taleyüklü məqamlarında fəal mövqedə görmək istədiyini nümayiş etdirir.

Akademik İmam Mustafayevə ünvanlanmış təbrik məktubu isə Heydər Əliyevin elmi fəaliyyəti ictimai və praktiki sahələrlə üzvi şəkildə əlaqələndirən alimlərə verdiyi yüksək dəyərin göstəricisidir. Burada alimin kənd təsərrüfatı sahəsində uzunmüddətli və məhsuldar fəaliyyəti, onun xalqın rifahına xidmət edən elmi axtarışları xüsusi vurğulanır. Heydər Əliyevin İmam Mustafayevi təkcə görkəmli alim deyil, eyni zamanda, böyük vətəndaş və ictimai xadim kimi təqdim etməsi onun elmə sosial məsuliyyət prizmasından yanaşdığını bir daha təsdiqləyir.

Akademik Mark Dalinə ünvanlanan təbrik məktubunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yüksək mənəvi biliklərə malik alimin necə bir elm təşkilatçısı, respublikanın neft-kimya sahəsində aktual problemlərin qarşıya qoyulması və həlli istiqamətində böyük xidmətləri olan mütəxəssis kimi xarakterizə olunur. Onun elmi-tədqiqatlarının nəticələrinin tez bir zaman ərzində tətbiq olunması akademik Mark Dalinin yüksək mühəndislik qabiliyyətinə əsaslanırdı.

Məktublarda diqqətçəkən əsas məqamlardan biri Heydər Əliyevin alimlərə yalnız yubiley münasibətilə deyil, bütövlükdə ömür yolu, xidmətləri və cəmiyyətə verdikləri töhfələr kontekstində yanaşmasıdır. O, alimlərin əməyini dövlət səviyyəsində tanıyır, onların fəaliyyətinə mənəvi dayaq olur və gələcək fəaliyyətlərinə inam ifadə edir. Bu yanaşma Heydər Əliyevin elm siyasətinin humanist və uzaqgörən mahiyyətini açıq şəkildə ortaya qoyur.

Ümumilikdə, bu məktublar Heydər Əliyevin Azərbaycan alimlərinə göstərdiyi yüksək ehtiramın, elmi fəaliyyətə verdiyi strateji əhəmiyyətin və intellektual potensialı milli inkişafın əsas dayağı kimi dəyərləndirməsinin canlı nümunələridir. Onlar sübut edir ki, Heydər Əliyev üçün alim – təkcə elmi nəticələr əldə edən mütəxəssis deyil, həm də xalqın yaddaşını, milli kimliyini və gələcəyini formalaşdıran mühüm ictimai missiya daşıyıcısıdır.

### 23 fevral 1997-ci il: akademik Ziya Bünyadovla vidalaşma mərasimi

**Düşmən qüvvələrin təşkil etdiyi amansız terrorun qurbanı olmuş akademik Ziya Bünyadovun acı aqibəti Ulu öndəri möhkəm sarsıtmış, dərindən kədərləndirmişdi:**

"Hörmətli bacılar, qardaşlar, əziz həmvətənlər!

İkinci gündür ki, Azərbaycan Respublikası, Azərbaycan xalqı matəm içindədir. Xalqımıza böyük itki üz veribdir. Xalqımızın böyük oğlu Ziya Bünyadovun vəhşicəsinə qətlə yetirilməsi hamımızı kədərləndirib, qəzəbimizi coşdurub, hiddətləndirib. Biz hamımız matəmə qərq olmuşuq.

Dəhşətli bir hadisədir, təsəvvür etmək mümkün deyil. Azərbaycanın ən dəyərli insanlarından, şəxsiyyətlərindən biri vəhşi, namərd gülləsi ilə qətlə yetirilibdir. Hər bir itki insanı kədərləndirir. Ziya Bünyadov kimi insanların dünyadan getməsi, şübhəsiz ki, böyük itkidir və böyük qəm-qüssə doğurur. Ancaq bu qədər vəhşicəsinə, bu qədər amansız cinayət nəticəsində itkimiz bizi həddindən artıq kədərləndirib, həddindən artıq hiddətləndiribdir və hamımızı ağrıdır, incidir.

Bir də qeyd edirəm, Ziya Bünyadovun həyatdan getməsi bizim üçün böyük itkidir. Çünki o, xalqımızın XX əsrdə yetirdiyi ən görkəmli alimlərdən, ən görkəmli tarixçilərdən və ən görkəmli insanlardan biri idi. Ziya Bünyadov haqqında çox danışmaq olar və güman edirəm, bundan sonra daha da çox danışılacaq, haqqında kitablar, xatirələr yazılacaqdır.

Ziya Bünyadov adi bir tarixçi, adi bir tarix tədqiqatçısı deyildi. O, mübariz bir tarixçi idi. O, daim mübarizə aparan tarixçi idi. Onun mübarizəsi də Azərbaycanın milli mənafelərinin müdafiəsi ilə bağlı olmuşdur.

Ziya Bünyadov öz yaradıcılığı ilə, öz böyük yolu ilə özünə böyük heykəl yaratmışdır, özünə böyük bir abidə qoymuşdur. Biz Ziya Bünyadovun xidmətlərini heç vaxt unutmayacağıq".

Azərbaycan şərqşünası, Sovet İttifaqı Qəhrəmanı, astaralı tarixçi Ziya Bünyadov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı üçün müraciətə imza atmış 91 nəfər ziyalıdan biri idi. Alimin qəbirüstü abidəsinin müəllifi akademik Ömər Eldarov olmuşdur.

Bu nitq ümummilli lider Heydər Əliyevin elmə, alimə və elmi şəxsiyyətin cəmiyyətdə tutduğu mövqeyə verdiyi böyük dəyərin son dərəcə təsirli və mənəvi baxımdan dərin ifadəsidir. Görkəmli alim və ictimai xadim, akademik Ziya Bünyadovun faciəli şəkildə qətlə yetirilməsi ilə bağlı söylənilən bu çıxış təkcə matəm nitqi deyil, eyni zamanda, alim şəxsiyyətinin milli yaddaşdakı yerini, elmin dövlət və xalq üçün daşıdığı strateji əhəmiyyəti açıq şəkildə ortaya qoyan tarixi sənəddir.

Heydər Əliyevin nitqində Ziya Bünyadovun itkisi bütöv Azərbaycan xalqının itkisi kimi təqdim olunur. Bu yanaşma Ulu öndərin alimləri yalnız elmi fəaliyyət sahəsində çalışan mütəxəssislər deyil, xalqın mənəvi dayağı, milli düşüncənin qoruyucuları və daşıyıcıları kimi qiymətləndirdiyini aydın şəkildə göstərir. Onun "xalqımızın böyük oğlu" ifadəsi alim şəxsiyyətinə verilən ən yüksək mənəvi və ictimai qiymətin göstəricisidir.

Nitqdə Ziya Bünyadovun "adi bir tarixçi" deyil, "mübariz tarixçi" kimi xarakterizə edilməsi Heydər Əliyevin elmə fəal və məsuliyyətli mövqedən yanaşdığını nümayiş etdirir. Ulu öndər üçün əsl alim yalnız elmi faktları araşdıran deyil, həm də milli mənafeləri qoruyan, tarixi həqiqətləri cəsarətlə müdafiə edən ziyalıdır. Bu baxımdan Ziya Bünyadovun elmi fəaliyyəti dövlətçilik və milli ideologiya kontekstində dəyərləndirilir.

Heydər Əliyevin Ziya Bünyadovun yaradıcılığını "özünə qoyduğu böyük abidə" kimi səciyyələndirməsi elmi irsin maddi abidələrdən daha qalıcı və dəyərli olduğunu vurğulayan dərin fəlsəfi yanaşmadır. Bu fikir Ulu öndərin elmə uzunmüddətli, tarixi perspektivdən yanaşdığını, elmi irsi xalqın yaddaşında əbədi yaşayan mənəvi sərvət kimi qəbul etdiyini göstərir.

Ümumilikdə, bu nitq Heydər Əliyevin alimlərə olan münasibətinin səmimiliyini, onların əməyinə verdiyi yüksək dəyəri və elmi şəxsiyyətlərin cəmiyyətin inkişafında oynadığı əvəzsiz rolu aydın şəkildə nümayiş etdirir. Nitq sübut edir ki, Heydər Əliyev üçün elm – sadəcə bilik sahəsi deyil, milli varlığın, tarixi həqiqətin və dövlət müstəqilliyinin mühüm təminatçısıdır. Akademik Ziya Bünyadovun xatirəsinə göstərilən bu dərin ehtiram, əslində, bütövlükdə Azərbaycan elminə və alimlərinə verilən ən yüksək qiymətin parlaq təzahürüdür.

### 28 sentyabr 1998-ci il: Tibb Universitetinin yeni tədris binasının açılışı

Həmin mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqindən:

"Hörmətli alimlər, müəllimlər, əziz tələbələr!

Mən bu gün sizinlə burada, Tibb Universitetinin yeni böyük, möhtəşəm binasının açılışı münasibətilə görüşümdən çox məmnunam, çox şadam, çox sevinirəm və sizi ürəkdən salamlayıram. Azərbaycan Tibb Universitetinin böyük tarixi vardır. Tibb universiteti Azərbaycan Respublikası, xalqı qarşısında böyük xidmətlər göstərmişdir.

İndi bu gözəl, möhtəşəm bina bizim qarşımızdadır və biz bu gün bunu böyük iftixar hissi ilə açırıq. Azərbaycanda həkimlər, tibb alimləri həmişə ziyalılarımızın görkəmli hissəsini təşkil ediblər. Bəlkə gənclər bunu bir o qədər bilmir, ancaq kitablardan oxuya bilərlər. Burada bizim hörmətli professorlarımız bu işlərin şahididirlər. Mən də onlarla bərabər ötən onilliklərdə və Azərbaycanın tarixində həkimlərin, tibb alimlərinin respublikamızda təkcə insanların sağlamlığını qorumaq sahəsində yox, tibb elminin inkişaf etdirilməsi sahəsində yox, eyni zamanda, Azərbaycanda ziyalılığın, ziyalı təbəqəsinin yaranmasında, elmin inkişafında, dövlət quruculuğu işində iştirakını yaxşı bilirəm və bu gün xüsusi qeyd edirəm.

Azərbaycanda böyük tibb alimləri olubdur, onlar sizin xatirinizdədir. Azərbaycanda 1945-ci ildə Elmlər Akademiyası yarananda onun ilk prezidenti həkim, professor, alim Mirəsədulla Mirqasımov olubdur. Elmlər Akademiyasını yaradanlardan biri böyük cərrah, alim Mustafa bəy Topçubaşov olubdur. Azərbaycanda tibb elminin, səhiyyənin inkişafında böyük xidmətlər göstərmiş, uzun müddət tibb institutunun rektoru, səhiyyə naziri olmuş, Azərbaycanın rəhbərliyində olmuş, Dağıstana rəhbərlik etmiş böyük tibb alimi, professor Əziz Əliyev olubdur.

Bəli, bu insanlar və onlarla bərabər yüzlərlə belə insanlar Azərbaycanda mədəniyyəti, ziyalılığı, yüksək tərbiyəni, mənəviyyatı yaradıblar və Azərbaycanın mühitinə çox böyük təsir ediblər. Bu gün də Azərbaycanın səhiyyə, tibb elmi sahəsində fədakarcasına çalışan alimlərimiz, həkimlərimiz, ziyalılarımızın gözəl bir hissəsini təşkil edir və Azərbaycanın mədəniyyətinin, elminin, səhiyyəsinin inkişafında böyük xidmətlər göstərirlər. Əziz dostlar! Mən sizinlə görüşməyimdən xoşbəxt olduğumu bir daha bildirirəm: Hamınıza cansağlığı, səadət arzulayıram. Hər bir insan üçün çox gərəkli olan şərəfli peşənizdə sizə yeni uğurlar arzulayıram.

Eşq olsun Tibb Universitetinə! Eşq olsun Azərbaycanın gözəl tələbələrinə, gənclərinə! Eşq olsun həkimlərə! Yaşasın müstəqil, demokratik Azərbaycan! İndi mən bu universitet binasının qapılarını açıram ki, siz buraya daxil olasınız, burada işləyəsiniz, təhsil alasınız".

*(ardı var)*

*İsmayıl Hacıyev – 75*

# Tarixçi akademikin kitab xəzinəsi



**Milli Kitabxanada AMEA-nın Naxçıvan bölməsinin sədri, Əməkdar elm xadimi, akademik İsmayıl Hacıyevin anadan olmasının 75 illiyi münasibətilə görkəmli tarixçi alimin kitablarından ibarət kolleksiyanın və "Akademik İsmayıl Hacıyev" adlı ənənəvi və elektron kitab sərgilərinin təqdimat mərasimi keçirilib.**

Kitabxananın direktoru, professor Kərim Tahirov akademik İsmayıl Hacıyevin çoxşaxəli fəaliyyəti, zəngin kitab yaradıcılığı barədə məlumat verərək qeyd edib ki, saysız-hesabsız elmi əsərlər müəllifi olan, Naxçıvan Muxtar Respublikasının tarixinin salnaməsini yaradan tədqiqatçı-alim Milli Kitabxanaya 170-dən artıq kitab hədiyyə etməklə bu mənəvi saxlancın fondunu xeyli zənginləşdirib. Alimin bununla həm də tarix elminə böyük hədiyyə olan kitablarının gələcək nəsillər üçün etibarlı mühafizə olunmasına və öyrənilməsinə şərait yaradıb.

Kərim Tahirov akademik İsmayıl Hacıyevin onlarla tarixçi alimlərin yetişməsində xidmətlərindən də danışaraq salonda əyləşənlərin əksəriyyətinin onun tələbələri və yetirmələri və fəal oxucuları olduqlarını diqqətə çatdırıb, tədqimatın yubilyarın anadan olmasının 75 illiyinə kollektivin töhfəsi olduğunu söyləyib.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli isə bildirib ki, Milli Kitabxanada təşkil olunan bu mərasim İsmayıl Hacıyevin ilk kitab təqdimatıdır. AMEA rəhbəri Azərbaycan milli dövlətçilik ideologiyasının alimin kitablarında və məqalələrində əsas süjet xətti olduğunu qeyd edərək vurğulayıb ki, akademik İsmayıl Hacıyev tarixşünaslıq yanaşmasında tarixi faktların, real hadisələrin analitik əsaslarla təqdimatını xronoloji ardıcıllığı ilə qeydə alıb. Ulu öndər Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrü barədə İsmayıl Hacıyevin tədqiqatlarının önəmini vurğulayan AMEA prezidenti bu əsərlərin çox qiymətli tarixi-elmi mənbələr olduğunu söyləyib.

Akademik İsa Həbibbəyli daha sonra bildirib ki, İsmayıl Hacıyev öz əsərləri ilə elmi dövriyyəyə çoxsaylı sənəd, arxiv materialı təqdim edib. Onun tədqiqatları dövlət siyasətimizə və elmi tələblərə yüksək səviyyədə cavab verir. Alimin tarixi şəxsiyyətlər barədə əsərlər seriyası ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev haqqında yazdığı kitablarla ən yüksək zirvəyə çatıb. AMEA rəhbəri məhsuldar və obyektiv tarixçi alim İsmayıl Hacıyevi 75 illik yubileyi münasibətilə təbrik edib, ona yeni uğurlar arzulayıb.

Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı söyləyib ki, tarixin ən qədim dövrlərindən bu günə qədər olan elə bir səhifəsi yoxdur ki, İsmayıl Hacıyev onun haqqında analitik, dürüst, dolğun və müqayisəli zəngin mənbələrlə yazmasın, həmin mənbələri zərgər dəqiqliyi ilə araşdırmasın. Bu baxımdan İsmayıl müəllimin bütün tədqiqatları tarix elmimizə böyük töhfədir.

Mərasimin davamında "Akademik İsmayıl Hacıyev" adlı elektron sərgi təqdim edilib.

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov, AMEA Tarix və Etnoqrafiya İnstitutunun direktoru, professor Kərim Şükürov, Milli Məclisin komitə sədri Fazil Mustafa, BDU-nun tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov, AMEA Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, tarixçi professor Abbas Seyidov, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktor müavini, professor Eynulla Mədətli, "Xalq qəzeti"nin baş redaktor müavini, Əməkdar jurnalist Tahir Aydınoğlu akademikin elmi yaradıcılığından və ictimai-siyasi fəaliyyətindən danışıblar. Onlar İsmayıl Hacıyevə möhkəm cansağlığı, elmi fəaliyyətində yeni uğurlar arzu ediblər.

Sonda akademik İsmayıl Hacıyev tədbirin mərasiminin yüksək səviyyədə təşkilinə görə Milli Kitabxananın rəhbərliyinə, səmimi təbrik və xoş sözlərə görə iştirakçılara təşəkkürünü bildirib.

***T.RÜSTƏMLİ***
***XQ***

*Biz deməsək*

# Yaradıcı təlimə ögey münasibət şagirdi "robot"a çevirir

## *Musiqi, rəsm və əmək fənləri niyə əlavə dərslər sayılır?*

**Müasir təhsil sistemi iqtisadi və texniki prioritetlər üzərində qurulduğundan məktəb proqramlarında riyaziyyat, dil və təbiət elmləri kimi fənlərə daha çox üstünlük verilir. Musiqi, təsviri incəsənət və əmək kimi yaradıcı fənlər isə bəzən əlavə dərslər kimi qiymətləndirilir. Halbuki beynəlxalq elmi araşdırmalar bu fənlərin uşaqların zehni inkişafı, bacarıqları və akademik nailiyyətlər qazanmasında mühüm rol oynadığını göstərir.**



"Amsterdam Vrije Universiteit"nin tədqiqatçıları uzun araşdırmalar nəticəsində musiqinin əqli inkişafa müsbət təsir göstərdiyini sübut ediblər. Layihə çərçivəsində Hollandiyanın müxtəlif məktəblərində təhsil alan 147 ibtidai sinif şagirdi müşahidə olunub. Bütün məktəblər standart ibtidai tədris proqramı ilə fəaliyyət göstərsə də, bəzi məktəblərdə əlavə olaraq musiqi və ya təsviri incəsənət dərsləri tədris edilib. Bu dərslər həm nəzəri bilikləri, həm də praktik məşğələləri əhatə edib. İki ilyarımdan sonra uşaqların akademik göstəriciləri ilə yanaşı, planlaşdırma, özünüidarə və yaddaş kimi əsas bacarıqları da qiymətləndirilib.

Bundan əlavə, mütəxəssislər bir çox neyroelmi araşdırmalarda musiqi və rəsm dərsi keçən uşaqların beyin fəaliyyətində müəyyən dəyişikliklərin olduğunu qeyd edirlər. Məsələn, ritm, melodiya və xüsusi bacarıqları eyni vaxtda tələb edən musiqi təhsili beyin şəbəkələrinin sinxronlaşdırılmasını gücləndirir, xüsusilə fəal yaddaş və diqqət prosesləri stimullaşdırır. Beləliklə, beynəlxalq təcrübələrə əsasən, müasir pedaqoji yanaşmalarda musiqi və incəsənət proqramları keyfiyyətli təhsilin ayrılmaz hissəsidir.

Bəzi orta məktəblərdə təsviri incəsənət, musiqi və texnologiya fənlərinin ya zəif tədris olunması, ya da "əsas" fənlərlə əvəzlənməsi sistemli tendensiyaya çevrilib. Bu vəziyyət ilk baxışda tədris yükünün optimallaşdırılması kimi təqdim olunsa da, əslində, təsviri incəsənət, musiqi və texnologiya dərsləri vasitəsilə şagirdlər səhv etmək, yoxlamaq, yenidən qurmaq vərdişi qazanırlar.

Texnologiya fənninin zəif tədrisi isə daha çox hiss olunur. Bu dərs çox zaman nəzəri izahlarla məhdudlaşır. Halbuki texnologiya fənni şagirdə hazır alətlərdən istifadə etməyi yox, onun necə yarandığını, sistemin necə işlədiyini anlamağı öyrətməlidir. Digər tərəfdən, bu fənlərin dərs saatlarının başqa fənlərlə əvəzlənməsi təhsildə balans problemini daha da çətinləşdirir. Şagirdə gün ərzində ard-arda oxşar tipli, yüksək konsentrasiya tələb edən dərslər keçilir. Musiqi və incəsənət dərsləri isə, sanki intellektual fasilə rolunu oynayaraq beynin fərqli sahələrini fəallaşdırır.

Göründüyü kimi, bütün bacarıqların formalaşması və gələcək həyatdakı uğurların əsasları orta məktəblərdə qoyulur. Şagirdlər burada yalnız riyaziyyat və dil biliklərini deyil, həm də özünü ifadəetmə, yaradıcılıq və praktik bacarıqları öyrənirlər. Gələcəyin peşəkar seçimləri, həyat tərzi və gündəlik fəaliyyətlər üçün ilkin qərarlar məhz orta məktəb illərində formalaşır. Məsələn, bir neçə il öncə demək olar ki, əksər gənclər elektrik naqillərinin təmiri və digər gündəlik texniki işlər üçün ilkin bilik və bacarıqlar qazanırdılar. Lakin son dövrlərdə belə sadə işlər üçün də insanlar tez-tez ustalara müraciət etməli olurlar.

Bənzər vəziyyət musiqi və təsviri incəsənət təhsilində də müşahidə olunur. Orta məktəblər şagirdlərin ilkin musiqi bacarıqlarını aşkara çıxarmaq və inkişaf etdirmək üçün əsas təhsil ocağıdır. Burada müəllimlər musiqi duyumu olan şagirdləri müəyyən edir və onları bu sahəyə yönləndirməyə çalışırlar.

Əlavə olaraq, əvvəllər şagirdlər özləri də həvəs göstərərək rəsmlər çəkir, əl işləri hazırlayır və təxəyyüllərini genişləndirirdilər. Bu fəaliyyətlər onların yaradıcı düşüncəsini, estetik zövqünü və problem həll etmə bacarıqlarını gücləndirirdi. Lakin indi bu cür fəaliyyətlər kifayət qədər önə çıxarılmır. Nəticədə, yalnız akademik göstəricilər üzərində fokuslanmaq, şagirdlərin təxəyyülünün və yaradıcı düşüncəsinin inkişafına mane olur.

**Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın katibi Günay Əkbərova bildirdi ki, təsviri incəsənət, musiqi və texnologiya fənləri uzun illərdir məktəbdə "əsas olmayan dərslər" kimi qəbul edilir:**

– Bu yanaşma dəyişmədikcə, həmin fənlərin tam ciddiyyətlə keçirilməsi və şagirdlər tərəfindən dəyərli sayılması mümkün olmayacaq. Dünya təcrübəsi göstərir ki, uşaq məhz bu dərslərdə özünü tanıyır, hisslərini ifadə etməyi öyrənir. Bir çox Avropa ölkələrində, xüsusilə Skandinaviya və Baltik regionunda incəsənət və texnologiya dərsləri uşağın psixoloji rahatlığı, yaradıcılığı üçün əsas sahə hesab olunur. Orada bu dərslər "vaxt doldurmaq" üçün yox, uşağın şəxsiyyəti kimi



formalaşması üçün keçirilir. Bizdə isə reallıq bir qədər fərqlidir. Bəzən bu dərslər formal xarakter daşıyır.

Təbii ki, bunu da bilirik ki, musiqi aləti olmayan musiqi dərsi, materialı olmayan texnologiya dərsi sadəcə adı olan dərsə çevrilir. Digər tərəfdən, valideynlər də bu fənlərə "imtahan fənni deyil" gözü ilə baxır. Uşaq özü də hiss edir ki, bu dərsə ciddi yanaşılmır. Halbuki müasir dünyada dizayn, texnologiya, yaradıcı sənayelər, innovasiya kimi sahələr məhz məktəbdə formalaşan bacarıqlar üzərində qurulur.

Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan Mədəniyyəti–2040" konsepsiyasında 2026–2030-cu illər ərzində mədəniyyətin təhsilin tərkib hissəsinə çevrilməsi, o cümlədən mədəniyyət sahələrinə və Azərbaycanın mədəni dəyərlərinə dair fənn və biliklərin tədrisinin təmin edilməsi nəzərdə tutulur.

Konsepsiyanın mahiyyətini düzgün anlamaq üçün, ilk növbədə, dövlət başçısının mədəniyyətə və milli dəyərlərə verdiyi önəmə diqqət yetirmək lazımdır. Ölkə rəhbəri çıxışlarında vurğulayır ki, mədəniyyət hər bir xalqın kimliyini yaşadan əsas dayaqdır və dövlətçilik ənənələrinin qorunmasında məhz bu mənəvi sütunlar üzərində qurulur.

**Mövzu ilə bağlı təhsil mütəxəssisi Elçin Əfəndi isə dedi ki, orta məktəblərdə təsviri incəsənət, texnologiya və musiqi fənlərinin zəif tədris edilməsinin bir səbəbi də şagirdlərin bu sahələrə olan maraqlarının digər fənlərlə müqayisədə nisbətən aşağı olmasıdır:**

– Təsviri incəsənət, texnologiya və musiqi dərslərinə çox az şagird maraq göstərir. Valideyn və müəllimlər də şagirdin uğurunu əsasən standart akademik göstəricilərlə ölçür və yaradıcılıq yönümlü fənlərin əhəmiyyətini



kifayət qədər dəyərləndirmirlər. Halbuki bu fənlər şagirdlərin fərdi maraqlarını inkişaf etdirməklə yanaşı, onların yaradıcılıq, estetik zövq, problemləri fərqli baxış bucağı ilə həll etmə bacarıqlarını da formalaşdırır.

Beləliklə, maraq yalnız şagirdin uğuru ilə deyil, həm də təhsilin keyfiyyəti və onların şəxsiyyət inkişafı ilə bağlıdır. Məktəblərdə bu fənlərə kifayət qədər yer verilməməsi və dərs saatlarının digər fənlərlə əvəzlənməsi şagirdlərin tam potensialın ortaya çıxmasına mane olur. Nəticədə, yalnız xüsusi istedadlı və maraqlı uşaqlar bu fənlərdən həqiqətən faydalanır, digərləri isə potensial imkanlarını itirir.

Bu problemi aradan qaldırmaq üçün qiymətləndirmə sistemini yenidən baxmaq vacibdir. Formal, subyektiv və ya sadəcə iştirak əsasında qiymətləndirmə şagirdlərin bu fənlərə marağını artırmır. Əksinə, tam obyektiv, bilik və bacarıqlara əsaslanan qiymətləndirmə tətbiq edildikdə şagirdlər dərslərə daha ciddi yanaşır və maraq göstərirlər. Bu, həm də şagirdlərə öz nailiyyətlərini real şəkildə görmək imkanı yaradır və onları təkmilləşdirir. Dərslərdə aşağı qiymət alan şagirdlərin bu göstəricilər əsasında qiymətləndirilməsi deyil, onların inkişaf imkanlarının təmin olunması önəmlidir.

Belə yanaşma şagirddə həm fənnə qarşı maraq, həm də özünüifadə bacarığı yaradır, nəticədə təsviri incəsənət, musiqi və texnologiya dərsləri daha effektiv şəkildə mənimsənilir. Nəhayət, problem dərsin keyfiyyəti ilə yanaşı, həm də şagirdlərin həvəsləndirilməsi və bacarıqlarının qiymətləndirilməsindədir. Düzgün və ədalətli qiymətləndirmə, şübhəsiz, şagirdlərdə bu fənlərə marağı artırar.

***Ləman TƏHMƏZ***
***XQ***

*İmran Mehdiyev – 90*

# Qurucu insanın şərəfli ömür yolu

**"Güclü iradə, sağlam əqidə və xeyirxah əməllər sahibi olan polad insan". Tanınmış ictimai-siyasi xadim və alim, qurucu memar-inşaatçı İmran Əzim oğlu Mehdiyevi yaxından tanıyanların onun şəxsiyyətini belə dəyərləndirirlər. Bu sözlər əməlləri ilə unudulmazlar sırasında yer almış soydaşımızın mənəvi portretidir.**



Onun ömür yolu cəsarət, zəhmət və peşəkarlıq prinsipləri üzərində qurulmuşdur.

Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ölkəmizin zəngin memarlıq irsinə və şəhərsalma ənənələrinə diqqəti bir daha artırır. Azərbaycan şəhərlərinin hər biri öz tarixi, mədəniyyəti və sənətkarlığı ilə fərqlənir. Özünəməxsus bir inkişaf mərhələsi keçdiyinə görə onların rəngarəng siması var. Bu şəhərlər arasında qədim İpək Yolu üzərində yerləşən, bu gün isə Zəngəzur dəhlizi ilə strateji əhəmiyyət qazanan Ordubad zəngin memarlığı ilə seçilir.

İmran Mehdiyev 1936-cı il yanvarında məhz belə tarixi-mədəni mühitdə, Ordubadın Anbaras məhəlləsində dünyaya göz açıb. O, böyük maarifçi Məmməd Tağı Sidqinin adını daşıyan 1 nömrəli Ordubad tam orta məktəbində təhsil alıb. Zəhmətkeş, dürüst və xeyirxah ailədə böyüməsi onun xarakterinin formalaşmasında mühüm rol oynayıb. Atasından prinsipiallıq və dəqiqlik, anasından sadəqət, mərhəmət və insanpərvərlik kimi keyfiyyətlər mənimsəyib. Bu xüsusiyyətlər onun elmi və dövlətçilik fəaliyyətinin əsas dayaqları olub.

İstedadlı memar-inşaatçı kimi İmran müəllim 1962–1963 və 1968–1971-ci illərdə Nazirlər Sovetinin Tikinti və kommunal təsərrüfatı şöbəsində böyük referent, 1971–1976-cı illərdə zavod direktoru olub. O, 1976–1979-cu illərdə Naxçıvan MSSR Nazirlər Soveti sədrinin birinci müavini, 1979–1982-ci illərdə isə sədr vəzifəsində çalışıb. 1982-1983-cü illərdə Azərbaycan SSR Dövlət Qiymət Komitəsi sədrinin birinci müavini, 1983–1989-cu illərdə isə Azərbaycan Kommunist Partiyası İsmayıllı Rayon Komitəsinin birinci katibi işləyib. 1991–1999-cu illərdə Sənaye tikinti materialları nazirinin birinci müavini, "Azərsənayetikinti" Dövlət Konserninin birinci vitse-prezidenti vəzifələrində çalışıb. 1998–2008-ci illərdə Satınalmalar üzrə Dövlət Agentliyinin direktoru olub.

İmran Mehdiyev müasir Azərbaycanın qurucusu Heydər Əliyevin ideya və əməllərini gerçəkləşdirən fəal rəhbər kadr kimi tanınıb. O, ötən əsrin 80-ci illərinin sonlarında Moskvada doktorluq araşdırması apardığı zaman Kremldə çalışan ulu öndər Heydər Əliyevlə tez-tez görüşüb, onunla baş verən hadisələri və Azərbaycanda gedən prosesləri müzakirə edib.

Azərbaycanın müstəqilliyinin ilk illərində milli dövlət quruculuğuna qoşulan İmran Mehdiyev Yeni Azərbaycan Partiyasının yaranması, formalaşması və möhkəmlənməsində fəal iştirak edib, çətin vaxtlarda mövqeyi, sədaqəti və prinsipiallığı ilə örnək olub. O, partiyanın Ordubad rayon təşkilatının yaradılmasında birbaşa iştirak edən təşəbbüskar ziyalılardan biri kimi yadda qalıb.

Azərbaycan Respublikasının milli qurtuluşu, ictimai-siyasi sabitliyi ilə bağlı İmran Mehdiyevin xidmətlərini ümummilli lider Heydər Əliyev yüksək qiymətləndirib. Ulu öndər təcrübəsini, bilik və bacarığını nəzərə alaraq müstəqillik illərində onu Satınalmalar üzrə Dövlət Agentliyinin direktoru vəzifəsinə təyin edib. 2003-cü ildə isə Prezident İlham Əliyevin yeni formalaşdırdığı Nazirlər Kabinetində o həmin vəzifəyə təyin edilib. 2008-ci ildə dövlət başçısı qüsursuz xidmətlərə görə ona şəxsən təşəkkürünü bildirib və uzunmüddətli, səmərəli fəaliyyətini yüksək qiymətləndirib.

Azərbaycanın tanınmış rəhbər kadrı olmaqla yanaşı, İmran Mehdiyev elmi-pedaqoji fəaliyyətlə də məşğul olub. 3 monoqrafiya, 3 dərslik və 90-dan artıq elmi məqalənin müəllifi olan alim Azərbaycan Memarlıq və İnşaat Universitetində iqtisad elmləri doktoru, professor kimi gənc kadrlar yetişdirib. Almaniyanın universitetlərində etdiyi məruzələr və verdiyi mühazirələr onun beynəlxalq nüfuzundan xəbər verir.

İmran Mehdiyev bir sıra yüksək mükafatlara layiq görülüb, "Qırmızı Əmək Bayrağı", 2 dəfə "Şərəf nişanı" ordenləri və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilib. O, Beynəlxalq Mühəndislik Akademiyasının, Rusiya Maliyyə və İqtisadiyyat Akademiyasının, Azərbaycan Memarlar İttifaqının üzvü seçilib

İmran müəllim Vətəninə, elinə, obasına bağlı bir ziyalı kimi seçilib və sevilib. O, 1991-ci ildə Ordubad ictimaiyyətinin birliyini ifadə edən "Tusi" Xeyriyyə Cəmiyyətinin yaradılmasına da dəstək göstərib. İmran Mehdiyev ailə dəyərlərinə də sadiq qalaraq övladlarını vətəndaşlıq məsuliyyəti ilə yanaşı, Vətənə dərin bağlılıq və yüksək əxlaqi prinsiplərlə tərbiyə edib.

10 mart 2023-cü ildə Bakıda vəfat edən İmran Mehdiyevin ömür yolu çağdaş nəsillər üçün örnəkdir. Onun əziz xatirəsi tanıyanların qəlbində daim yaşayacaq.

***Yəhya BABANLI,***
***"Tusi" Xeyriyyə Cəmiyyəti İdarə Heyətinin sədri, fəlsəfə doktoru***

# Əl işlərimiz Oman forumunda






**Dövlət Turizm Agentliyi Oman Sultanlığının paytaxtı Məsqət şəhərində keçirilən yaradıcılıq üzrə əl işi sənayelərinə həsr olunmuş Birinci Beynəlxalq Forumda milli stendlə təmsil olunub.**

Agentlikdən XQ-yə bildirilib ki, forum Omanla yanaşı, müxtəlif xarici ölkələrdən yaradıcılıq və əl işi sənayeləri sahəsində fəaliyyət göstərən qurum və müəssisələrin nümayəndələrini bir araya gətirib.

Forum çərçivəsində Azərbaycanın Oman sultanlığındakı səfiri Rəşad İsmayılov, Omanın mədəni irs və turizm naziri Seyid İbrahim bin Səid əl-Busaidi və Omanın Kiçik və Orta Müəssisələrin İnkişafı üzrə Qurumunun sədri Halima bint Rəşid əl-Zəriya milli stendi ziyarət edib.

Ziyarətçilər milli stenddə yerli sənətkarlar tərəfindən nümayiş etdirilən Şəkiyə məxsus şəbəkə, təkəlduz və keçə sənəti nümunələri ilə tanış olublar.

***XQ***

# İslahatlar səhnəyə də çatdı



**Azərbaycanda dövlət teatrlarının idarəetmə sistemində əsaslı islahatlara başlanılıb. Teatrların əsasnamələri, idarəetmə strukturları və ştat cədvəlləri yenilənib və müasir idarəetmə prinsiplərinə uyğunlaşdırılıb.**

Mədəniyyət Nazirliyi tərəfindən verilən məlumata görə, islahatların əsas məqsədi dövlət teatrlarında idarəetmə mexanizmlərini daha səmərəli, çevik və şəffaf etmək, qərar qəbuletmə prosesini təkmilləşdirmək və yaradıcılıq potensialının daha effektiv şəkildə reallaşdırılmasına şərait yaratmaqdır.

Qeyd olunub ki, yeni yanaşmaya uyğun olaraq mövcud idarəetmə strukturunda yer alan baş rejissor, baş rəssam, bədii rəhbər və digər oxşar vəzifələr yeni struktura daxil edilməyib. Bu qərar vəzifələrin formal mövcudluğundan deyil, funksional effektivliyindən çıxış edərək qəbul olunub. Daxil edilməyən vəzifələrin funksiyaları daha çevik və nəticəyönümlü idarəetmə modeli çərçivəsində yenidən bölüşdürülüb.

Bu vəzifələrin funksiyaları kollegial idarəetmə prinsipləri əsasında və yeni yaradılmış struktur bölmələri vasitəsilə həyata keçiriləcək. Məqsəd qərarların bir nəfər üzərində cəmlənməsi deyil, kollektiv məsuliyyət və aydın funksional bölgü mexanizminin formalaşdırılmasıdır.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 16 (30985) 28 yanvar 2026-cı il, çərşənbə

## İDMAN

### Gənc cüdoçulara yeni qaydalar izah olunub

**Gənc oğlanlardan ibarət Azərbaycan yığmasının üzvləri üçün Beynəlxalq Cüdo Federasiyasının tətbiq etdiyi yeni qaydalarla bağlı maarifləndirici seminar təşkil olunub. Azərbaycan Cüdo Federasiyasından (ACF) verilən məlumata görə, seminar ACF-nin Hakimlər Komitəsinin sədri Natiq Bağırov və qurumun hakimlər üzrə meneceri, A kateqoriyalı beynəlxalq dərəcəli hakim Mətin Rəhimlinin rəhbərliyi ilə baş tutub.**



Mərasimdə qaydalardakı yeniliklər idmançılara praktik nümunələr üzərindən təqdim olunub, müxtəlif epizodlar əsasında hakim qərarlarının formalaşma meyarları geniş müzakirə edilib. Seminarın əsas məqsədi yeni tələblərin idmançılar tərəfindən daha dəqiq mənimsənilməsini təmin etmək, yarış zamanı yarana biləcək anlaşılmazlıqların qarşısını almaq və taktiki hazırlığın effektivliyini artırmaqdır.

### Bakıda atletika üzrə beynəlxalq yarış

**Azərbaycan Atletika Federasiyasının məlumatına görə, Bakıda atletika üzrə beynəlxalq yarış keçiriləcək. Beynəlxalq qış turniri yanvarın 30-da Dünya Atletikası, Gənclər və İdman Nazirliyi, Azərbaycan Atletika Federasiyası və "Athletics Club" tərəfindən Bakı Atletika Mərkəzində baş tutacaq.**

AZƏRBAYCAN ATLETİKA FEDERASİYASI
AZERBAIJAN ATHLETICS FEDERATION

Yarışda 60 metr məsafəyə qaçış, uzunluğa tullanma və üçtəkanla tullanma növündə U-18 və böyük yaş qrupu iştirak edəcək.

### Yeniyetmə və gənc voleybolçularla görüş

**Azərbaycan Voleybol Federasiyasının (AVF) prezidenti Şahin Bağırov Cəlilabadda yeniyetmə və gənc idmançılar, həmçinin məşqçilərlə görüşüb. Cəlilabad Olimpiya İdman Kompleksində baş tutan mərasimdə Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilov, Lənkəran-Astara Regional Təhsil İdarəsinin müdir müavini Rəhim Rəhimov, AVF-nin və Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin nümayəndələri, yeniyetmə voleybolçuların valideynləri və digər qonaqlar iştirak ediblər.**



Görüş zamanı sözügedən rayonda voleybolun inkişafı, idmançılar və məşqçilər üçün yaradılan şərait barədə ətraflı məlumat verilib. Şahin Bağırov çıxışında federasiya tərəfindən ölkədə voleybolun kütləviliyinin artırılması, bölgələrdə idmanın təşviqi və gənc nəslin bu idman növünə cəlb olunması istiqamətində görülən işlərdən danışıb.

Daha sonra federasiya prezidenti və digər rəsmi şəxslər yeniyetmələrin məşq prosesini izləyib, idmançıların valideynləri ilə görüşüblər. Şahin Bağırov valideynlərin dəstəyinin əhəmiyyətini vurğulayıb, onlara təşəkkürünü bildirib və yaxın gələcəkdə potensiallı gənclərin milli komandaları uğurla təmsil edəcəklərinə inamını ifadə edib.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Finişin astanasında*

# "Qarabağ" son səhifəni futbolun vətənində yazacaq

**Yorulmadan gördüyü böyük işlərlə Azərbaycan futboluna, bütün xalqımıza xoşbəxt günlər yaşadan Qurban Qurbanovun komandası Çempionlar Liqasının Liqa yolunda son addımını atmaq, son səhifəni yazmaq üçün 1966-cı ilin dünya çempionu İngiltərəyə böyük qürur hissi ilə gedib. Artıq bizim üçün möcüzəyə bərabər nəticə –10 xalla növbəti mərhələnin qapısını xeyli (bəlkə də, tam!) aralamış "Qarabağ" bu gecə məhz futbolun vətənində onu rəsmən taybatay açmağa çox yaxındır.**

İnşallah, belə də olar, Ağdam komandası Avropa klublarının 1 nömrəli turnirində öz tarixinə daha bir parlaq səhifə yazar. Mübaliğəsiz, böyüklü-kiçikli əksər insanlarımızın yatmağı ağıllarına belə gətirməyib, bayram kimi gözlədiyi hadisə Liverpulda bu şəhərin eyniadlı məşhur klubu ilə görüşdə baş verəcək.

Azarkeşlər qarşıdakı oyun ərəfəsində hər iki rəqibin turnir cədvəlindəki göstəricilərini və iddialarını əzbər bilirlər. Hazırda 15 xalla 4-cü mövqedə olan "Liverpul" Liqa mərhələsində mənzilbaşına birbaşa səkkizdəbir finalda oynamaq hüququ verən birinci "8-likdə" çatmaqdan başqa heç nə barədə düşünmür.

Tarixində ikinci dəfə Çempionlar Liqasının əsas mərhələsində oynayan və bu günə qədər əldə etdiyi bal kimi şirin nailiyyətlə də kifayətlənməyən "Qarabağ" da, öz növbəsində, pley-off və ya 1/16 final adlanan oyunların iştirakçısı olmaq eşqi ilə alışıb-yanır. Komandanın hərəsi bir ağır sınağa bərabər 7 görüşdən sonra cədvəlin tən ortasında –18-ci pillədə olması onun yenilməz qələbə əzmi və yüksək iddialarının nəticəsidir. Təkrar edək, Liverpul görüşünün nəticəsindən asılı olmayaraq, istəyimiz, deyəsən, artıq həyata keçib və bizə sadəcə, bir gədər də səbirli olub, gecə saat 2-ni, eyni vaxtda başlayacaq bütün 18 oyunun sona çatacağı dəqiqələri gözləmək qalır.



Finişin astanasında turnir cədvəlində komandamızın mövqeyi, pley-offa aparan yolda onun rəqiblərini də asan oyunların gözləməməsi ("Ayaks"–"Olimpiakos", "Barselona"–"Kopenhagen", "Napoli"–"Çelsi", "Brügge"–"Marsel" və s.) belə inam yaradır ki, Ağdam klubu Liverpulda, hətta xal qazana bilməyəcəyi təqdirdə də növbəti mərhələdə mübarizəni davam etdirmək ehtimalı kifayət qədər böyükdür. Əgər bu ehtimal riyaziyyatçıların hesabladıqları kimi təxminən 95-98 faizə bərabərdirsə, onda əsas mərhələdə əsas məsələmiz, demək olar, həllini tapıb.

Deməli, variantlar Azərbaycan çempionunun nəhənglər meydanında 8-ci raund döyüşlərindən sonra da çıxışlarını davam etdirmək imkanlarına elə bir şübhə yeri qoymur. Azarkeşlər ümidlərinin doğrulacağına əmin olmaqda haqlıdırlar. Elə futbolçuların özlərində qüvvələrinə inam hissinin ikiqat artması da xüsusi əhəmiyyət kəsb edir. Hər bir işdə qüvvəyə inamın mühüm şərt olması heç kim üçün sirr deyil.

"Ayntraxt"a vurduğu 2 qolla görüşün ən yaxşı oyunçusu olmuş Kamilo Duran, sona saniyələr qalmış əsl mərkəz hücumçusu kimi qarşısıalınmaz zərbə ilə rəqib komandanın bütün ümidlərini alt-üst edən mərkəz müdafiəçisi Bəhlul Mustafazadə, ən mahir qaçış ustaları kimi meydanın bir başından digərinə sürətli həmlələri və dəqiq ötürmələri ilə əzmkar qələbədə böyük pay sahibi olaraq həftənin rəmzi komandasına daxil edilmiş Elvin Cəfərquliyev və onların şaxtalı qış axşamında əvvəldən axıradək fədakarcasına mübarizə aparmış dostları böyük iş görmüş, sözün əsl mənasında, meydanda can qoymuşlar. O gündən bəri hamının "Canım "Qarabağ", gözüm "Qarabağ" nidaları ilə əzizlədiyi komanda çox şeyə qadirdir və hər cür nəvazişə, hörmətə layiqdir.

Onlar bu gecə qeydə alınacaq nəticədən asılı olmayaraq, artıq öz kəsərli sözlərini demiş, qəlbləri fəth etmiş, könülləri riqqətə gətirmişlər. Yoxsa yüzlərlə "Qarabağ" pərəstişkarı qışın oğlan çağında min kilometrlərlə məsafə qət edib, uzaq Liverpula gedərdimi?!

Ötən payızda Bakıda klublararası dünya çempionu "Çelsi" ilə əsl qrossmeyster heç-heçəsi (2:2) xatirələrdə təzədir. İndi isə "Qarabağ" İngiltərənin digər məşhur klubu ilə üz-üzə gələcək. Ağdam komandası da oyundan-oyuna onlar kimi böyüyür.

Bu gün "Enfild" stadionunda baş hakim kimi slovakiyalı İvan Krujlyakı iş başında görəcəyimizi də qeyd edək. Görək o, nə ilə yadda qalacaq, "Ayntraxt"la oyunumuzun hakimi isveçrəli Sandro Şererdən fərqli olaraq, UEFA-nın etimadını ədalətli qərarlarla doğrulda biləcəkmi?

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

## Pakistanlı qonaqlar Ədəbiyyat Muzeyində



**Ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının MUSLİM İnstitutunun rəhbəri, Cunaqad ştatının Baş naziri Sultan Əhməd Əli Sahibzadənin rəhbərlik etdiyi nümayəndə heyəti Milli Azərbaycan Ədəbiyyatı Muzeyini ziyarət edib.**

Qonaqlar əvvəlcə muzeyin direktoru, akademik Rafael Hüseynovla görüşüb.

Görüş zamanı Azərbaycanla Pakistan arasında mövcud elmi-mədəni əlaqələrdən, dostluq və qardaşlıq münasibətlərindən bəhs olunub, əməkdaşlığın inkişaf perspektivləri haqqında fikir mübadiləsi aparılıb. Milli Azərbaycan Ədəbiyyatı Muzeyi ilə Pakistanın MUSLİM İnstitutu arasında mədəni-elmi əməkdaşlığın genişləndirilməsinə dair Anlaşma Memorandumu imzalanıb.

Qonaqlar beynəlxalq əlaqələr və dünya muzeyləri şöbəsinin müdiri Nailə Əliyevanın təqdimatı ilə muzeyin ekspozisiyası ilə tanış olublar. Onlara Azərbaycan ədəbiyyatının klassik irsi, xüsusilə Nizami Gəncəvinin Şərq və İslam dünyası mədəniyyətində tutduğu mövqe haqqında ətraflı məlumat verilib.

Sultan Əhməd Əli Sahibzadə ölkəmizdə hökm sürən sülh və əmin-amanlıqdan, xalqımızın qonaqpərvərliyindən söz açaraq, zəngin Azərbaycan ədəbiyyatı, mədəniyyəti və tarixi ilə yaxından tanışlıqdan məmnunluğunu bildirib, Pakistan və Azərbaycan arasında həqiqi dostluğun və qardaşlığın əbədi olmasını diləyib.

*Qabil YUSİFOĞLU*
*XQ*

## Süni ürək xəyal deyil

**Tibb tarixi elə anlardan ibarətdir ki, bir qərar təkcə bir insanın deyil, bütöv bir elmi istiqamətin taleyini dəyişir. Sankt-Peterburqdakı Mariinski Xəstəxanasında həyata keçirilən və Rusiyada ilk dəfə olaraq eyni vaxtda iki süni ürək mədəciyinin implantasiyası ilə nəticələnən əməliyyat məhz belə hadisələrdəndir. Bu hadisə bir daha sübut edir ki, müasir tibb yalnız xəstəliklərlə mübarizə aparmır, eyni zamanda, insan həyatının davamlığını yenidən formalaşdırır.**



Anton adlı pasiyentin hekayəsi təkcə tibbi faktlardan ibarət deyil. Bu, ümidsiz görünən vəziyyətdə elmin və həkim məsuliyyətinin necə möcüzəyə çevrilə bildiyinin bariz nümunəsidir. Kardiomiopatiya və ürək çatışmazlığının terminal mərhələsi diaqnozu ilə xəstəxanaya yerləşdirilən Anton üçün donor ürəyinin transplantasiyası ilkin mərhələdə yeganə çıxış yolu hesab olunurdu. Lakin ağırlaşmalar, daha dəqiq desək, ağciyər arteriyasının tromboemboliyası və infarkt-pnevmoniya, bu ehtimalı müvəqqəti olaraq mümkünsüz etdi.

Belə bir kritik məqamda Mariinski Xəstəxanasının baş həkimi İqor Reutskinin verdiyi qərar xüsusi diqqətəlayiqdir. O, riskləri dəqiq qiymətləndirərək pasiyentin həyatını xilas etmək üçün qeyri-standart, lakin elmi cəhətdən əsaslandırılmış bir addım atdı: eyni vaxtda iki süni ürək mədəciyinin implantasiyası. Təxminən dörd saat davam edən bu mürəkkəb əməliyyatın əsas çətinliyi hər iki cihazın tam sinxron işləməsinin təmin edilməsi idi. Ən kiçik uyğunsuzluq belə pasiyentin həyatını təhlükə altına qoya bilərdi.

Həkimlər bu məsuliyyətli mərhələni uğurla başa çatdıraraq süni qan dövranının stabil şəkildə işləməsinə nail oldular. Nəticədə Anton hazırda tamamilə nəbzsiz, lakin həyat fəaliyyətini davam etdirən nadir pasiyentlərdən birinə çevrildi. Onun vəziyyətinin stabil olması və yaxın günlərdə evə buraxılacaq olması tibbi kollektivin peşəkarlığının və müasir texnologiyaların gücünün göstəricisidir.

Bu hadisə təkcə bir xəstəxananın uğuru deyil, bütövlükdə süni orqan texnologiyalarının gələcəyi baxımından mühüm mərhələdir. Süni ürək sistemləri bu gün artıq yalnız transplantasiyaya qədər keçid mərhələsi deyil, bəzən müstəqil şəkildə həyatı davam etdirməyin real vasitəsinə çevrilir. Bu isə gələcəkdə donor çatışmazlığı probleminin aradan qaldırılmasında mühüm rol oynaya bilər.

Bir sözlə, Antonun süni ürəklə döyünən həyatı belə deməyə əsas verir ki, tibb yalnız diaqnoz və müalicə deyil, həm də məsuliyyət, cəsarət və insan həyatına sonsuz hörmətdir. Mariinski Xəstəxanasında baş verən bu hadisə göstərir ki, elmin sərhədləri hələ tam cızılmayıb və insan iradəsi ilə bilik birləşəndə "mümkünsüz" anlayışı mənasını itirir. Bu gün Antonun həyatı süni mexanizmlərlə davam edir, sabah isə həmin həyat yeni bir donor ürəyi ilə yenidən öz ritmini tapa bilər. Tibbin əsas missiyası da məhz budur – ümidin tükəndiyi yerdə yeni bir yol açmaq.

*Nurəngiz ADİLQIZI*
*XQ*

## HAVA

### Paytaxtda yağıntı, rayonlarda yağış və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında havanın bəzi yerlərdə fasilələrlə yağıntılı olacağı gözlənilir. Mülayim cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 2-4, gündüz 5-9 dərəcə isti olacaq. Atmosfer təzyiqi 768 millimetr civə sütunundan 763 millimetr civə sütununa enəcək. Nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə yağıntının intensivləşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi dağlıq və dağətəyi rayonlarda arabir güclənəcək.

Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 5-9 dərəcə isti, dağlarda gecə 5-10, yüksək dağlıq ərazilərdə 11-13, gündüz 0-5 dərəcə şaxta olacaq.



Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlayacağı ehtimalı var.

*Q.ƏLİYEV*
*XQ*

✓ *2024-cü ildə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən Həsənbəyli Nicat Əliyar oğlunun adına verilmiş 13/10 nömrəli iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

✓ *2020-ci il iyulun 14-də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Mehralıyev Pərvin Nuralı oğlunun adına verilmiş ƏN seriyalı, 3354 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

✓ *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən Kərimli İsmayıl Mehman oğlunun adına verilmiş AR seriyalı, 061171 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

✓ *1998-ci il iyunun 19-da Abşeron Rayon İcra Hakimiyyəti tərəfindən Nuriyev Məhərrəm Qayıbqulu oğlunun adına verilmiş torpağın mülkiyyətə verilməsinə dair fərdi ev tikintisi üçün JN-2265H nömrəli, 30800086 kodlu şəhadətnamə itdiyi üçün etibarsız sayılır.*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2910
SİFARİŞ 153
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00